Xalqın qəzeti!

# Xalq qəzeti

№ 107 (30801) 24 may 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# TDT-nin təməlində dostluq və qardaşlıq məramı dayanır



Səhifə ⇨ 2

## Lavrovun "Taleyranlığı", yaxud Ermənistan üçün ambient

*Azərbaycan daha 30 il əvvəlki deyil!*

**Əlbəttə, Xarici işlər naziri Sergey Lavrov Ermənistana Rusiyanın hay sevgisini ifadə etmək üçün yollanmamışdı. Bəri başdan deyək ki, yazımızda səfərin yalnız bir məqamı üzərində dayanacağıq.**



Ondan başlayaq ki, İrəvanın Moskvaya hazırkı, yumşaq desək, pis münasibətini ermənilərin Lavrovu əllərində Rusiya Prezidenti Vladimir Putinə ünvanlanmış təhqiramiz şüarlar və lövhələrlə "qarşıladıqları" sübuta yetirir. Ancaq "Kremlin Taleyranı"nın belə "nəzakət nümunələrinə" "qarnı toxdur". Onun şəxsində təmsil etdiyi ölkənin Ermənistana mesajı isə budur: Səni sevəcəyəm, sən sevməsən də. Hərçənd, Lavrov İrəvanda "həm sevəcəyəm, həm də söyəcəyəm" dedi, Ermənistanı uşaq kimi danladı. Obrazlı desək, meymunun çox istədiyindən balasını yediyini bilirik. "Əmması" budur ki, Ermənistan nəinki "bala" olmaq istəmir, habelə, özünü heç uşaq kimi də aparmır.

Bəli, Rusiyanın baş diplomatının İrəvanda səsləndirdiyi fikirlərin, demək olar ki, hamısı ikibaşlı xarakter daşıyırdı. Hesab edirik ki, o, dilə gətirdiklərinin fərqindədir. Çünki çox təcrübəlidir və "adamı bir qaşıq suda boğar". Amma, İrəvanda "boğulan" tərəf Lavrov idi və sonda fikrimizə aydınlıq gətirəcəyik.

*(ardı 8-ci səhifədə)*

## Öz gözlərində tiri görməyənlər

**Ölkəmiz müharibənin vurduğu maddi-mənəvi acıları özünün 30 illik acı təcrübəsindən yaxşı bilir. Ona görə müharibədən ziyan görən bütün ölkələrə və xalqlara yardım əlini uzatmağı özünün xeyirxahlıq missiyasi hesab edir.**



Ədalətsiz müharibənin, işğal siyasətinin fəsadlarını yaşayan Azərbaycan bu gün eyni aqibətlə üzləşmiş ukraynalıların yanında olduğunu gizlətmir, bunu açıq bəyan edir. Yardımların hərbi deyil, yalnız humanitar xarakter daşıdığı hamıya məlumdur. Amma buna baxmayaraq hökumətə yaxın media vasitələri feyk-xəbərlər yaymaqda davam edirlər. Azərbaycanın müharibədən əziyyət çəkən ölkəyə ancaq humanitar yardım etdiyini Rusiyada hamı yaxşı bilir.

Son vaxtlar Rusiyanın bəzi elektron media seqmentlərində Azərbaycanı hədəfə alan yazılar çoxalmaqdadır. Zatulinçilərdən, valuyevçilərdən sonra hökumət tapşırıqlarının "yumşaq" icraçısı kimi tanınan oliqarx Konstantin Malofeyevin kurasiyasında olan "Tsarqrad" qəzeti Azərbaycana və onun rəhbərliyinə daha çox "diqqət ayırmağa" başlayıb. Bu haypərəst nəşr az qala hər gün anti–Azərbaycan məzmunlu məqalələr dərc edir. Rusiyada yaşayan ermənilərin, zəngin hayların anti-Azərbaycan lobbisi həmişə aktiv fəaliyyətdə olub. Bu ölkədə rəsmi Bakının bölgədə və dünyada artan nüfuzunu, suveren siyasətini həzm edə bilməyən qüvvələr təkcə ölkəmizə qarşı deyil, postsovet respublikaların hamısına münasibətdə radikal mövqe sərgiləyirlər. Onlar Azərbaycanı nədəsə ittiham etmək üçün daim bəhanə axtarırlar. Ukrayna ilə hərbi münaqişə başlanandan Şimal qonşumuzda neoimperialist, şovinist meyillərin xeyli gücləndiyini, bəzən isterik hala çevrildiyini müşahidə edirik. Bəli, müharibə millətçiliyi gücləndirir, rusofobiyanı şişirdir.

*(ardı 4-cü səhifədə)*

## Ermənistanın Qərbi Azərbaycan xofu

*Badalyanın açıqlaması İrəvanın tarixi və hüquqi gerçəyi qəbul etmək istəmədiyindən qaynaqlanır*



**Qərbi Azərbaycanda – indiki Ermənistan ərazisində XX əsrdə üç dəfə həyata keçirilmiş sistemli və total etnik təmizləmə nəticəsində tarixi yurd yerlərini tərk etməyə məcbur olmuş soydaşlarımızın qayıdışının Ermənistana ərazi iddiası demək olmadığına dair Bakıdan verilən yüksək səviyyəli bəyanatlara baxmayaraq, rəsmi İrəvan öz ampluasındadır. Mayın 21-də Ankarada keçirilən və region üçün mühüm siyasi mesajlar ehtiva edən "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda beynəlxalq konfransa Ermənistan dövlətinin verdiyi reaksiya belə deməyə əsas verir.**

Ölkənin xarici işlər nazirliyinin mətbuat katibi Ani Badalyanın mayın 22-də dövlət informasiya agentliyi – "Armenpress"in "Dünən bir tədbirdə (?) Azərbaycan Prezidentinin müraciəti səsləndirildi və orada yenidən Qərbi Azərbaycan ifadəsi işlədildi. Buna necə cavab verirsiniz?" sualına cavabı bir daha bunun bariz göstəricisidir.

*(ardı 9-cu səhifədə)*

## Xəzər yenidən geri çəkilir



Səhifə ⇨ 13

## "İsveçrə neytrallığı"nın gerçək dəyəri

*Azərbaycan əleyhinə növbəti təxribat*



**Dünya erməniliyi "hayların Qarabağa qayıtması" üçün Avropanın qanunverici orqanlarında lobbiçilik etmək cəhdlərindən əl çəkmir. Son vaxtlar bu məsələdə İsveçrədəki erməni icması xüsusi fəallıq göstərir. Burada yaşayan ermənilər lobbiçilik fəaliyyətlərini həm siyasi, həm də ictimai platformalarda davam etdirirlər.**

Yada salaq ki, bu ölkədə erməni icması 1960-cı illərdə yaradılıb və və bu gün diaspor strukturlarına malikdir. Hazırda Cenevrə, Sürix, Fribourg, Bern, Neuşatel və Tessin şəhərlərində 5–7 minə yaxın erməni yaşayır. Əsasən, müxtəlif fondlar, mədəniyyət mərkəzləri və siyasi lobbi təşkilatları vasitəsilə fəaliyyət göstərirlər. Onların məqsədi yalnız mədəni və dini kimliyini qorumaq deyil, eyni zamanda, erməni məsələləri üzrə beynəlxalq dəstək qazanmaqdır.

*(ardı 4-cü səhifədə)*

## İbrahim razılaşması: aşkar və gizli məqamlar



Səhifə ⇨ 15

## Ölkəmiz dünyada ekosistemin zənginliyi ilə seçilir



Səhifə ⇨ 11

# TDT-nin təməlində dostluq və qardaşlıq məramı dayanır

## Prezident İlham Əliyev TDT daxili işlər nazirlərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Türk Dövlətləri Təşkilatının (TDT) daxili işlər nazirlərinin ikinci görüşünün iştirakçılarından ibarət nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinə Qazaxıstan Respublikasının daxili işlər naziri Erjan Sadenov, Qırğız Respublikasının daxili işlər naziri Ulan Niyazbekov, Türkiyə Respublikasının daxili işlər naziri Ali Yerlikaya, Özbəkistan Respublikasının daxili işlər naziri Aziz Taşpulatov, Şimali Kipr Türk Cümhuriyyətinin daxili işlər naziri Dursun Oğuz, Macarıstanın daxili işlər nazirinin müavini Bentse Retvari və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev daxildir.

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

– Türk Dövlətləri Təşkilatının daxili işlər nazirlərinin ikinci görüşü Azərbaycanda keçirilir. Bu, çox sevindirici haldır. Əminəm ki, belə görüşlərin davamı olacaq.

Bildiyiniz kimi, Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü iki gün bundan əvvəl Macarıstanda keçirilmişdir. Bildirməliyəm ki, belə tədbirlərin, belə görüşlərin keçirilməsi Azərbaycan tərəfinin təşəbbüsü idi. Birinci qeyri-rəsmi Zirvə görüşü ötən il Azərbaycanda, Qarabağda, Şuşa şəhərində keçirilmişdir. Dövlət və hökumət başçıları qərara gəldilər ki, belə qeyri-rəsmi görüşlər müntəzəm olaraq keçirilsin.

Bizim rəsmi Zirvə görüşlərimiz hər il keçirilir. Amma hesab etdik ki, ildə bir dəfə bu tərkibdə görüşlər kifayət deyil. Bildirməliyəm ki, bu il Azərbaycanda rəsmi Zirvə görüşü keçiriləcək. Bu görüşə ciddi hazırlıq gedir və əminəm ki, Zirvə görüşü zamanı önəmli qərarlar qəbul ediləcək.

Təşkilata üzv və müşahidəçi ölkələrin ortaq maraqları göz önündədir. Biz nəinki dost, strateji tərəfdaş, müttəfiqik və başlıca amil odur ki, qardaş ölkələrik və təşkilatın təməlində məhz bu prinsip dayanır. Hesab edirəm ki, gələcək illərdə təşkilatımız daha böyük zirvələrə qalxa bilər. Bunun üçün bütün imkanlar var. Ölkələrimizdə müsbət inkişaf dinamikası müşahidə olunur. Təşkilata üzv ölkələrdə daxili sabitlik təmin edilir. Bizim böyük coğrafiyamız var. Təşkilata üzv bəzi ölkələrdə zəngin təbii sərvətlər vardır. Bizim nəqliyyat layihələrimiz ölkələrimizi birləşdirir və hətta daha böyük coğrafiyanı əhatə edir. Ölkələrimizin ərazisindən keçən nəqliyyat dəhlizləri Avropanı Asiya ilə birləşdirir. Bir sözlə, iqtisadi sahədə çox böyük potensialımız var. Əgər buna bizim müsbət demoqrafik dinamikanı əlavə etsək, mənzərə daha ürəkaçan olacaq.

Bizim ölkələrimizdə əhali artır. Azərbaycana gəldikdə, Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa edəndə bizim əhalimiz təqribən 7 milyon idi, indi 10 milyonu ötüb. Bütün üzv ölkələrdə buna oxşar dinamika müşahidə olunur. Əhalimiz gəncdir, dinamikdir, öz tarixi köklərinə bağlıdır. Ona görə biz təşkilat çərçivəsində iqtisadiyyat, nəqliyyat, enerji məsələləri ilə yanaşı, mütləq ortaq köklərimiz, ortaq tariximiz haqqında geniş danışmalıyıq.

Tarixdə müxtəlif məqamlar olub. Biz müəyyən dövr ərzində bizdən asılı olmayan səbəblərə görə bir-birimizdən ayrı düşmüşdük. Ancaq təşkilata üzv olan ölkələrin iradəsi, xalqların iradəsi bizi yenə də bir araya gətirdi. Əlbəttə ki, təşkilatın formalaşmasında, inkişafında tarixi Naxçıvan Zirvəsi xüsusi yer tutur. Biz çox şadıq ki, bu tarixi qərar məhz Azərbaycanın qədim şəhəri olan Naxçıvanda qəbul edilmişdir.

O ki qaldı, daxili işlər orqanlarının birgə fəaliyyətinə, təbii ki, buna böyük ehtiyac var. Çünki qeyd etdiyim kimi, ölkələrimizdə daxili sabitlik olsa da təhdidlər var, çağırışlar var, xaricdən müdaxilə cəhdləri var və olacaq. Yəni, heç kim bundan sığortalı deyil. Ona görə daxili işlər orqanlarının əsas vəzifəsi olan ictimai asayişin qorunması, əlbəttə ki, hər bir ölkəmiz üçün önəmli daxili sabitlik amilidir. Təşkilata üzv ölkələrin daxili işlər orqanlarının bir araya gəlməsi, müntəzəm olaraq görüşlərin keçirilməsi, fikir mübadiləsi, təcrübə mübadiləsi, informasiya mübadiləsi aparılması böyük önəm daşıyır.

Təbii ki, bizim əsas məqsədimiz təşkilatı daha da gücləndirməkdir. Mən tam əminəm ki, əgər bütün üzv və müşahidəçi ölkələr güclü vahid iradə göstərsələr, bizim təşkilatımız dünya miqyasında aparıcı beynəlxalq təşkilatlardan birinə çevrilə bilər. Biz dünyada mövcud olan beynəlxalq təşkilatları yaxşı tanıyırıq. Biz bəzi təşkilatlara üzvük, bəzi təşkilatlarla müxtəlif formatlarda əməkdaşlıq edirik və Türk Dövlətləri Təşkilatının üstünlüyünü biz şəxsən Azərbaycanda açıq-aydın görürük. Yenə də bu üstünlük ondan ibarətdir ki, bizi birləşdirən əsas amil tarixi köklərdir, etnik köklərdir, mənəvi dəyərlərdir və təbii ki, qeyd etdiyim kimi, bizim iqtisadi, sənaye və digər sahələrdəki potensialımız. Bütün bunları biz bir araya gətirmişik, təşkilatı strukturlaşdırmışıq, müxtəlif istiqamətlər üzrə fəal işlər gedir. Hesab edirəm ki, indi əsas məsələ beynəlxalq gündəlikdə söz sahibi olmaq, nəinki təşkilatın coğrafiyasında və onun həndəvərində, qlobal müstəvidə dünyada aparıcı siyasi təşkilatlardan birinə çevrilməkdir. Yenə də deyirəm, bunlar üçün bütün imkanlar var. Əgər olmasaydı, mən bu barədə danışmazdım.

Mən sizi bir daha salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Sizə uğurlar arzulayıram. Təmsil etdiyiniz ölkələrin xalqlarına öz hörmətimi bildirirəm və Sizə uğurlu iş və gözəl nəticələr arzulayıram.

**Sonra çıxış edən Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev dedi:**

– Əvvəlcə, bizi qəbul etdiyinizə görə Sizə təşəkkür etmək istəyirəm. Siz qeyd etdiyiniz kimi, bu, daxili işlər nazirlərimizin ikinci görüşüdür. Birincisi keçən il Qırğızıstanda olub. Siz qeyd etdiniz ki, hörmətli nazirlərimiz görüşürlər, onlar daha çox mahiyyətə diqqət yetirirlər. Bu gün də Kommünike hazırlanıb. Bundan sonra da belə görüşlər keçiriləcək və orada daxili işlər nazirlərinin fəaliyyətinin əsas istiqamətlərini ehtiva edən Kommünike qəbul olunacaq. Bu, banditizm, terrorizm, cinayətkarlıq və sairə ilə mübarizə daxil olmaqla nazirlərimizin fəaliyyətinin bütün istiqamətlərini əhatə edir.

İki gün əvvəl vaxtilə Sizin təşəbbüskarı olduğunuz qeyri-rəsmi Zirvə görüşümüz keçirildi. O, mahiyyət etibarilə qeyri-rəsmi deyil, daha çox rəsmi idi. Orada da hüquq-mühafizə orqanlarımızın işindən bəhs edildi. Siz də qeyd etdiniz ki, keçən il ilk dəfə Şuşada ali məhkəmə instansiyalarımızın görüşü oldu. Ali məhkəmələrin sədrləri bu yaxınlarda - iki həftə əvvəl Antalyada yenidən toplaşdılar və nizamnamə qəbul etdilər. Orada da bütün fəaliyyət istiqamətləri göstərilib. Bizdə artıq Baş prokurorlar, notarial orqanlar, ədliyyə nazirlərinin platformaları yaradılıb, keçən il ədliyyə nazirləri də Astanada bir araya gəldilər.

Bir sözlə, bütün hüquq-mühafizə bloku institutlaşmaya başlayıb, artıq ilk addımlar atılır. Sizin parlamentdəki inaqurasiya nitqinizdə qısaca qeyd etdiyiniz kimi, hamı bunu dəstəkləyir. İndi Sizin dediyiniz kimi, bizim təşkilat daha güclü ola bilər. Biz həqiqətən nadir beynəlxalq təşkilatıq. Siz qeyd etdiyiniz kimi, 15 il əvvəl qəbul edilən Naxçıvan Sazişində deyilir ki, bizi məhz tarixi köklər, mədəniyyətimiz, dil, din birləşdirir. Çünki başqa belə bir təşkilat yoxdur və bizim hamımızın vəzifəsi yaradılmış platformalarla onu gücləndirməkdir.

*AZƏRTAC*

## Azərbaycan Respublikasının Prezidenti Zati–aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizi və ölkənizin xalqını ürəkdən təbrik edirəm.

Dost və qonşu xalqlarımızın ortaq tarixi, onlar arasındakı qırılmaz bağlar ölkələrimizin münasibətlərinin inkişafı üçün qiymətli sərmayə yaratmışdır.

İran İslam Respublikası əlaqələri ortaq maraqlar çərçivəsində strateji tərəfdaşlıq səviyyəsinə qədər genişləndirmək və yüksəltmək əzmindədir, bu baxımdan nəqliyyat, elektrik enerjisi, təbii qaz ilə bağlı müxtəlif sahələrdə ortaq layihələrin tamamlanması işlərinin sürətləndirilməsinin, ticarət mübadiləsinin həcminin artırılmasının, insanlar arasında təmasların asanlaşdırılmasının önəm kəsb etdiyini vurğulayır.

İran İslam Respublikası ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşmaqla regionda davamlı sülhün və təhlükəsizliyin bərqərar olmasında mühüm rol oynaya biləcək kommunikasiya yollarının açılacağına inanır.

Uca Allahdan Zati-alinizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, Azərbaycan xalqına isə səadət və xoş günlər arzulayıram.

**Hörmətlə,**

***Məsud PEZEŞKİAN,***
***İran İslam Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – 28 May - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi-qəlbdən təbriklərimi, rifah və firavanlıq arzularımı çatdırıram.

**Hörmətlə,**

***FİLİP,***
***Belçikalıların Kralı***

***

**Hörmətli İlham Heydər oğlu.**

Sizi və Azərbaycan Respublikasının bütün vətəndaşlarını Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Sizin quruculuq səyləriniz sayəsində Azərbaycan bu gün sürətlə inkişaf edən iqtisadiyyatı, vətəndaşların həyat səviyyəsinin davamlı şəkildə yüksəlməsi, beynəlxalq aləmdə əldə etdiyi mühüm nailiyyətlər ilə haqlı olaraq fəxr edir.

Minsk-Bakı strateji tərəfdaşlığının daha da möhkəmlənməsinə zəmanət verən hökumətlər, parlamentlər və regionlar arasında sistemli əməkdaşlıq, müntəzəm təmaslarımız buna bariz sübutdur. Bu münasibətlər hər iki dövlətin maraqlarına cavab verir.

Əminəm ki, Belarus-Azərbaycan əməkdaşlığı dostluq və qarşılıqlı anlaşma ənənələri əsasında bundan sonra da fəal şəkildə inkişaf edəcəkdir.

Bu bayram münasibətilə Sizə və ailənizə cansağlığı, rifah, bütün azərbaycanlılara isə əmin-amanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

***

**Cənab Prezident!**

Ölkənizin milli bayramı – 28 May – Müstəqillik Günü münasibətilə Zati-alinizi təbrik edirəm.

Bu bayram münasibətilə Azərbaycan xalqına daha firavan gələcək diləyir və ən xoş arzularımı çatdırıram.

**Hörmətlə,**

***Villem-ALEKSANDR,***
***Niderlandın Kralı***

***

**Cənab Prezident!**

Ölkənizin milli bayramı – 28 May - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Sizə və dost Azərbaycan xalqına firavanlıq və davamlı tərəqqi diləyir, ən xoş arzularımı ifadə edirəm.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi üçün Sizinlə işləməyə hazır olduğumu bir daha vurğulayıram.

**Dərin hörmətlə,**

***Bassiru Diomaye FAYE,***
***Seneqal Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

28 May – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Ötən müddət ərzində Azərbaycan cəmiyyətin həyatının bütün sahələrinin təkmilləşdirilməsi və müasirləşdirilməsi işində heyrətamiz nəticələrə, yüksək iqtisadi inkişaf templərinə, dünya birliyində nüfuzunun möhkəmləndirilməsinə nail olmuş, uğurlu beynəlxalq layihələrin təşəbbüskarı kimi xüsusi rol oynamışdır.

Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) fəaliyyətinə göstərdiyiniz davamlı diqqətə görə Sizə minnətdarıq. ŞƏT-in dialoq üzrə tərəfdaşı olaraq Azərbaycan 10 ildən artıqdır ki, təşkilatın məqsəd və vəzifələrinin həyata keçirilməsinə mühüm töhfə verir. Əminik ki, Azərbaycan ilə ŞƏT arasında çoxşaxəli əməkdaşlıq gələcəkdə də möhkəmlənəcəkdir.

Hörmətli İlham Heydər oğlu, icazə verin, Azərbaycanın daha da tərəqqisi naminə fəaliyyətinizdə Sizə yeni uğurlar, cansağlığı və əmin-amanlıq arzu edim.

**Dərin hörmətlə,**

***Nurlan YERMEKBAYEV,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

***

**Hörmətli İlham Heydər oğlu!**

28 May – Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi günü münasibətilə Tatarıstan xalqının və şəxsən mənim səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Bir əsr əvvəl Azərbaycan xalqı öz müqəddəratını müstəqil həll etmək, doğma torpağının bu gününü və gələcəyini müəyyənləşdirmək kimi müstəsna hüququnu müdafiə etdi. Bu cəsarətli seçim, nəsillərin qırılmaz əlaqəsi və ideya mirası Azərbaycan dövlətinin gələcək tarixini, ən əsası isə müasir uğur və nailiyyətlərini böyük dərəcədə qabaqcadan müəyyən etdi. Qoy, bu möhtəşəm günün sevinci, ümumi yüksək məqsədlər ətrafında birliyin xüsusi ruhu Sizin və gözəl ölkənizin bütün vətəndaşları üçün Azərbaycanın firavanlığı naminə bundan sonra da yorulmaz quruculuq işlərində ilham mənbəyinə və yeni gücə çevrilsin!

Bu fürsətdən istifadə edərək, Tatarıstan Respublikasına göstərdiyiniz diqqətə görə Sizə minnətdarlığımı ifadə etmək istəyirəm. Ümidvaram ki, biz gələcəkdə də Rusiya-Azərbaycan münasibətləri çərçivəsində qarşılıqlı anlaşma və etimada əsaslanan əməkdaşlıq ənənələrini artırmaq üçün birgə səylərimizi davam etdirəcəyik.

Sizə, yaxınlarınıza və respublikanın sakinlərinə möhkəm cansağlığı, xoşbəxtlik və gözəl bayram əhvali-ruhiyyəsi arzulayıram.

**Hörmətlə,**

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi, "Rusiya – İslam Dünyası" Strateji Baxış Qrupunun sədri***

***

**Möhtərəm İlham Heydər oğlu!**

İcazə verin, Sizə öz ehtiramımı ifadə edim və 28 May - Müstəqillik Günü münasibətilə təbriklərimi çatdırım.

Bu bayram Azərbaycan Respublikasının öz ölkəsini sevən, onun tarixini və ənənələrini əziz tutan, daha gözəl gələcək naminə çalışan bütün sakinlərini birləşdirir.

Bu əlamətdar gündə Sizə və Azərbaycanın bütün vətəndaşlarına möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və doğma ölkənin rifahı naminə quruculuq fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Azərbaycan Respublikası qarşılıqlı fəaliyyətin bütün istiqamətləri üzrə həmişə Rusiya Federasiyasının strateji tərəfdaşı olub və belə olaraq qalır.

Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında yaranmış dostluq əlaqələrini yüksək qiymətləndirirəm və regionumuzla çoxplanlı qarşılıqlı faydalı təmasların möhkəmləndirilməsinə verdiyiniz dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm.

**Hörmətlə,**

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 190-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 190-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 30.6.18-ci maddəsində hər iki halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 30.6.18-ci maddəsində hər iki halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 190-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 aprel tarixli 364 nömrəli, 17 aprel tarixli 367 nömrəli və 15 may tarixli 392 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndə "30.6.16-cı (hər iki halda)," sözlərindən sonra "30.6.17-ci, 30.6.18-ci (hər iki halda)," sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 1.12-3-cü bənd əlavə edilsin:

"1.12-3. həmin Məcəllənin 30.6.18-ci maddəsində (hər iki halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 may 2025-ci il**

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

**Çox hörmətli Mehriban Arif qızı!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə öz dərin ehtiramımı bildirir və səmimi təbriklərimi çatdırıram.

Bu bayram Azərbaycanın öz Vətənini sevən, tarixinə və ənənələrinə sadiq qalan, daha xoşbəxt gələcək naminə çalışan bütün sakinlərini birləşdirir.

Ölkənizin həyatının bu əlamətdar günündə Sizə və Azərbaycan Respublikasının bütün xalqına möhkəm cansağlığı, xoşbəxtlik, sülh və tərəqqi, daha firavan həyat naminə yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan Respublikası ilə Həştərxan vilayəti arasında çoxşaxəli əməkdaşlığın daha da genişlənməsinə verdiyiniz dəstəyi yüksək qiymətləndiririk. Qarşılıqlı hörmətə və etimada əsaslanan münasibətlərimizin bundan sonra da uğurla davam edəcəyinə əmin olduğumu bildirirəm.

**Dərin hörmətlə,**

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

***

**Çox hörmətli Birinci vitse-prezident Mehriban xanım.**

İcazə verin, Sizə dərin ehtiramımı ifadə edim və Seçenov Universitetinin kollektivi adından, həmçinin şəxsən öz adımdan Sizi və Azərbaycan Respublikasının bütün xalqını Müstəqillik Günü münasibətilə təbrik edim.

Azərbaycan xalqının rifahı naminə genişmiqyaslı fəaliyyətiniz, humanitar dəyərlərə dərin sədaqətiniz, səhiyyə, təhsil və mədəniyyətin inkişafına böyük töhfəniz beynəlxalq aləmdə Sizə səmimi hörmət qazandırıb.

Sizin rəhbərliyinizlə ölkənin mənəvi potensialını möhkəmləndirən çox mühüm sosial təşəbbüslər həyata keçirilir. Sizin tibb elminin və təcrübəsinin inkişafına, həmçinin vətəndaşların sağlamlığının möhkəmləndirilməsinə yönəlmiş proqramların dəstəklənməsinə mühüm töhfənizi xüsusi qeyd etmək istərdim.

Sizə möhkəm cansağlığı, əmin-amanlıq və yüksək missiyanızda yeni-yeni uğurlarla bağlı ən xoş arzularımı qəbul edin.

Qoy, Azərbaycan sülh və tərəqqi naminə bundan sonra da yeni zirvələr fəth etsin!

**Hörmətlə,**

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

# Əlaqələndirmə Qərargahının növbəti iclası Ağdam şəhərində keçirilib



**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın növbəti iclası mayın 23-də Ağdam şəhərində keçirilib. İclasda çıxış edən Samir Nuriyev ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli inkişaf strategiyasını müasir dövrün tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması istiqamətində genişmiqyaslı işlərin davam etdirildiyini bildirib.**







Dövlətimizin başçısının xüsusi diqqət və qayğısı sayəsində Ağdam rayonu da daxil olmaqla, işğaldan azad olunmuş bütün ərazilərin sürətlə dirçəldiyini və inkişaf etdiyini diqqətə çatdıran Qərargah rəhbəri deyib ki, burada dağıdılmış infrastruktur bərpa olunur, kəndlər və şəhərlər yenidən qurulur, həyat getdikcə daha çox canlanır. Beş il ərzində dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilər üzrə 500-dən çox tədbirdə iştirak edib, müxtəlif təyinatlı 159 layihənin təməlini qoyub, 133 infrastruktur obyektinin açılışını edib.



Bildirilib ki, Böyük Qayıdış proqramının uğurlu icrası və dayanıqlı məskunlaşmanın təmin olunması istiqamətində mühüm işlər görülür, işğaldan azad olunmuş ərazilərdəki 14 yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlərin qayıdışı artıq təmin edilib. Bütövlükdə hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə 43 mindən çox insan yaşayır və fəaliyyət göstərir.

İclas iştirakçılarının diqqətinə çatdırılıb ki, dayanıqlı məskunlaşmaya nail olmaq üçün geri qayıdan keçmiş məcburi köçkünlərin məşğulluq məsələlərinin həlli əsas hədəflərdən biridir. Bu məqsədlə kənd təsərrüfatı sahəsində fəaliyyətin genişləndirilməsi, biznes mühitinin stimullaşdırılması və iqtisadi fəallığın təşviqi istiqamətlərində zəruri tədbirlər görülür. Artıq Zəngilan rayonunun Ağalı kəndində sakinlərlə kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədilə istifadəyə verilməsi üçün icarə müqavilələri bağlanır, işğaldan azad olunmuş ərazilərdə yaradılmış sənaye məhəllələrində sahibkarlıq fəaliyyəti genişləndirilir və investisiyalar cəlb edilir.

Qərargah rəhbəri işğaldan azad edilmiş ərazilərdə şəhər-kənd inteqrasiyasının gücləndirilməsi və regionların digər ərazilərlə dayanıqlı əlaqəsinin təmin olunması məqsədilə nəqliyyat infrastrukturunun qurulması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini qeyd edib. Hazırda ümumi uzunluğu 2644 kilometrə çatan 40 avtomobil yolunun inşası davam etdirilir, uzunluğu 224,1 kilometr olan 7 yolda işlər artıq yekunlaşıb.

İşğaldan azad edilmiş ərazilərin inkişafı və yeni yaşayış məntəqələrinin salınması məsələlərinin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu xatırladan Samir Nuriyev bu prosesin yalnız fiziki məkanların qurulması ilə məhdudlaşmadığını, eyni zamanda, sosial, iqtisadi, ekoloji və hüquqi aspektləri özündə birləşdirən çoxşaxəli və kompleks yanaşmanı tələb edən bir proses olduğunu vurğulayıb.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyəti, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası istiqamətində, habelə Proqram çərçivəsində əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi, nəqliyyat infrastrukturunun yaradılması, sərnişindaşıma və rabitə xidmətlərinin təşkili, ərazilərdə şəhərlərin və digər yaşayış məntəqələrinin yenidən qurulması və bərpası sahələrində görülən işlər barədə məruzələr dinlənilib. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin ərazilər üzrə xüsusi nümayəndəliklərinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə məlumatlar təqdim edilib.

İclasın sonunda Qərargahın rəhbəri Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərinə mühüm əhəmiyyət verdiyini bildirib, dövlətimizin başçısının qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində müvafiq tapşırıqları iştirakçıların diqqətinə çatdırıb.

Səfər çərçivəsində Ağdam şəhəri ərazisində bir sıra obyektlərə, o cümlədən Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinə, Ağdam Muğam Mərkəzinə və Ağdam İmarət Kompleksinə baxış keçirilib.

İnşasına ötən ildən başlanılmış 2-ci yaşayış məhəlləsi ilə tanışlıq çərçivəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi tərəfindən qeyd olunub ki, hazırda 11 kvartalda 66 binanın tikinti işləri davam etdirilir. Məhəllədə ümumilikdə 60 yaşayış, 6 qeyri-yaşayış binası olmaqla, 1268 mənzilin, həmçinin qazanxananın, uşaqlar üçün əyləncə mərkəzinin, idman meydançalarının inşası nəzərdə tutulur.

Daha sonra Ağdam Cümə məscidi ziyarət edilib. İşğal dövründə - 2000-ci il mayın 9-da Ümummilli Lider Heydər Əliyevə təqdim olunmuş daş parçasının aid olduğu məscid Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilib. Məscidin qırıq minarəsi və içindəki daşları, giriş qapısı bərpa olunub, fasadı tarixi görkəminə uyğun restavrasiya edilib.

Sonda dövlətimizin başçısının 2021-ci il 28 may tarixli Fərmanı ilə yaradılmış Ağdam Sənaye Parkına yola düşən Əlaqələndirmə Qərargahının üzvləri burada sahibkarlıq subyektləri üçün təmin edilmiş şəraitlə tanış olublar. Sənaye Parkı barədə məlumat verən iqtisadiyyat naziri vurğulayıb ki, 190 hektar ərazini əhatə edən Ağdam Sənaye Parkı rezidentlərin sayına görə ölkədə ikinci sənaye parkıdır. Burada ümumilikdə 31 olmaqla, 27 müəssisə rezident, 4 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Sənaye Parkında divar kağızının istehsalçısı olan "Mister Decor", rabitə və işarəvermə, mikroprosessor mərkəzləşmə sistemi avadanlığı istehsalçısı olan "Rail Trans Service", orta və aşağıgərginlikli qurğu, monoblok beton yarımstansiya və elektrik avtomobilləri üçün şarjdoldurma avadanlığı istehsalçısı olan "Eel Electric" və təhlükəsizlik ayaqqabıları, poliuretan çəkmələr istehsalçısı olan “BAFCO İnvest” məhdud məsuliyyətli cəmiyyətlərinin fəaliyyəti barədə məlumatlar təqdim olunub.

***AZƏRTAC***

# Hikmət Hacıyevin Brüssel görüşləri





**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Avropa İttifaqının Xarici Fəaliyyət Xidmətinin baş katibi Belen Martinez Karbonellə görüşüb. Bu barədə Aİ rəsmisi “X”də paylaşım edib.**

“Biz Aİ-Azərbaycan münasibətlərini, Aİ-nin Azərbaycan-Ermənistan arasında normallaşma prosesinə dəstəyini və regional hadisələri müzakirə etdik. Aİ regionda sülh və tərəqqiyə sadiqdir”, - o bildirib.

***

**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev NATO-nun Brüsseldəki mənzil-qərargahına səfəri çərçivəsində alyansın baş katibinin müavini Radmila Şekerinska ilə də görüşüb. Bu barədə Azərbaycanın təşkilatdakı nümayəndəliyindən bildirilib.**

Görüş zamanı tərəflər Azərbaycan–NATO tərəfdaşlığının hazırkı vəziyyətini, gələcək əməkdaşlığın perspektivlərini, o cümlədən regional və daha geniş təhlükəsizlik mühiti ilə bağlı məsələləri müzakirə ediblər.

NATO-nun sülhməramlı əməliyyatlarına, eləcə də müttəfiq və tərəfdaş dövlətlərin enerji təhlükəsizliyinə verdiyi töhfə vurğulanaraq, Azərbaycanın alyansın uzunmüddətli etibarlı tərəfdaşı kimi rolu vurğulanıb.

Səfər çərçivəsində Hikmət Hacıyev, həmçinin NATO Baş Katibinin Şəxsi Ofisi direktorunun birinci müavini Lorenz Meyer-Minnemann ilə də görüşüb.

***

**Belçikada Avropa İttifaqı-Azərbaycan Təhlükəsizlik Dialoqunun 6-ci iclası keçirilib. Bu barədə Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri Vaqif Sadıqov “X” hesabında paylaşıb edib.**

İclasa Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Avropa İttifaqının Xarici Fəaliyyət Xidmətinin baş katibinin müavini Olof Skug həmsədrlik ediblər.

İclasda siyasi və təhlükəsizlik sahələrində mövcud əlaqələr və əməkdaşlıq perspektivi haqqında əsaslı və açıq müzakirələr aparılıb:



“Bu dialoq son aylarda Malta, Bakı, Brüssel və Tiranada keçirilmiş bir sıra mühüm yüksək səviyyəli Aİ-Azərbaycan görüşlərinin ardınca aparılıb. İkitərəfli, regional və qlobal hadisələr müntəzəm olaraq fikir mübadiləsini tələb edir. Bu gün həmçinin Aİ-nin digər yüksək vəzifəli rəsmiləri və təşkilata üzv bir sıra dövlətlərin, o cümlədən ev sahibi ölkə olan Belçikanın nümayəndələri ilə mühüm müzakirələr aparılıb”.

***XQ***

# Vyanada Azərbaycan təntənəsi



**Azərbaycanın Avstriyadakı səfirliyində 28 May Müstəqillik Günü və 26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə rəsmi qəbul keçirilib.**

Mərasimdə Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli 107 il əvvəl əsası qoyulan müsəlman Şərqində ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyətinin keçdiyi çətin və şərəfli yola nəzər salıb. Diplomat qeyd edib ki, 23 aylıq müddət ərzində görülən işlər, həyata keçirilən islahatlar, dövlət quruculuğu və hüquqi bazanın inkişafı həmin dövr üçün inqilabi xarakter daşıyırdı.

Bildirilib ki, həmin dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti müsəlman Şərqində ilk nümunə idi və cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq, Müstəqillik Bəyannaməsində əks olunan prinsiplərə uyğun olaraq, təxminən, 230 mühüm qanun və qərar qəbul edib. 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən 34 il sonra, Azərbaycan Xalq Cümhuriyyətinin idealları və dəyərləri bu gün də müstəqil dövlət kimi yeni üfüqlərə doğru yolumuza bələdçilik edən əsas prinsiplər olaraq qalır.

Avstriya Xarici İşlər Nazirliyinin idarə rəisi Qerhard Sayller ikitərəfli əlaqələrin inkişaf etdiyini, qarşılıqlı səfərlərin mütəmadi şəkildə həyata keçirildiyini diqqətə çatdırıb.

Avstriyada yaşayan azərbaycanlı musiqiçi Fərid Feyzullayevin rəhbərlik etdiyi kvartet mərasimdə Azərbaycan və Avropa bəstəkarlarının əsərlərindən ibarət musiqili proqram ilə çıxış edib.

***XQ***

# Öz gözlərində tiri görməyənlər

## Rusiya Ermənistana 1 milyard dollarlıq silah-sursatı “hədiyyə” elədiyini niyə unudur?

**Ekspert rəyi**



***Elxan ŞAHİNOĞLU,***
***“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı***

– Ermənistan müstəqilliyini qazandıqdan İkinci Qarabağ müharibəsinə, hətta ondan sonrakı dövrə qədər Rusiyadan milyardlarla dollar həcmində silah-sursat alıb. Rusiyanın keçmiş illərdəki hərbi komandanlığı Ermənistana Birinci Qarabağ müharibəsində Azərbaycan torpaqlarının işğalının planlamasında da kifayət qədər dəstək verib.

Rusiya Ermənistanı həm rəsmi, həm də qeyri-rəsmi kanallarla silahlandırıb. Rusiya Dövlət Dumasının keçmiş deputatı, müdafiə komitəsinin sabiq sədri, general Lev Roxlin 1990-cı illərin ortalarında Rusiyanın Ermənistana qeyri-qanunu yollarla 1 milyard dollar civarında silah və hərbi texnika göndərdiyini bildirmişdi. Lev Roxlin bunu açıqladıqdan bir müddət sonra evində ölü tapıldı. Roxlinin açıqlaması o zaman rəsmi Bakını ciddi narahat etmişdi. Prezident Heydər Əliyev rusiyalı həmkarı Boris Yeltsinlə görüşdə bu məsələnin araşdırlmasını tələb etmişdi. İkitərəfli komissiya yaradıldı, ancaq Kreml bu məsələni araşdırmaqda maraqlı deyildi. Vladimir Putin hakimiyyətə gəldikdən sonra Ermənistana hərbi yardım dayandırılmadı, əksinə, Serj Sərkisyanın prezidentliyi dövründə İrəvana Rusiyadan hərbi texnika almaq üçün 200 milyon dollar kredit ayrıldı. Kremlin Nikol Paşinyana mənfi münasibətinə baxmayaraq, onun hakimiyyəti dövründə də Rusiyadan Ermənistana hərbi texnika daşınırdı. İndi Rusiya mediasının Azərbaycanı Ukraynaya hərbi yardımda suçlaması absurddur.

İkinci Qarabağ müharibəsi dövründə Rusiya Mərkəzi Asiya və İran üzərindən Ermənistana hərbi texnikanı ötürməkdə davam edirdi. 44 günlük müharibə dövründə Azərbaycana qarşı istifadə edilən Rusiyanın “İsgəndər-M” raketləri Ermənistana eyni marşrutla çatdırılmışdı. Bütün bunlardan məlumatlı olan Nikolay Bordyuja Rusiyanı və KTMT-ni tənqidinə görə İravanın naşükürlük etdiyini, Kremlin yaxşılığını tez unutduğunu bildirib.

*(əvvəli 1-ci səhifədə)*

Rusiyadakı haypərəst düşərgə isə son vaxtlar iki ölkə arasında münasibələrdə müşahidə olunan sərinliyi fürsət bilərək, yaranmış vəziyyətdən maksimum istifadə etməyə çalışır. Reallıqda isə Rusiya–Azərbaycan əlaqələrinin inkişafına mane ola biləcək səbəb yoxdur. Azərbaycan Rusiyaya qarşı heç bir hərbi–siyasi blokda yer almır, Qərbin tətbiq etdiyi sanksiyalara qoşulmur. Əslində, Bakının buna sağlam və balanslı yanaşması Ukrayna münaqişəsi prizmasından indi daha qabarıq görünməkdədir.



Azərbaycanın Ukraynaya, guya, hərbi yardım etməsini ictimai rəyə sırımağa çalışan şəbəkənin “menyusuna” bəzi fakt və sübutları çatdırmağımız yerinə düşər. Bunu biz yox, 2003-2016-cı illərdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi olmuş Nikolay Bordyuja deyir. Altı ay əvvəl Ermənistanın təşkilata üzvlüyünü dayandıracağı barədə bəyanatlarını böyük səhv adlandıran Bordyuja KTMT ilə yanaşı, Rusiyanın İrəvana böyük kömək göstərdiyini belə izah edib: “Ermənistanın silahlı qüvvələri, o cümlədən bütün güc strukturları illər boyu Rusiyadan hərtərəfli – hərbi texnikadan tutmuş elmi və texniki dəstəyə qədər yardım alıblar. Sadəcə, rəqəmlər gizli saxlanılıb. Amma onu deyə bilərəm ki, Rusiya Ermənistanın silahlı qüvvələrinə və bütövlükdə, Ermənistana kifayət qədər maliyyə xərcləyib. Burada söhbət böyük rəqəmlərdən gedir”.

Bakı onu da gizlətmir ki, son üç ildə valideynləri silahlı münaqişədə həlak olmuş və ya əsir götürülən 273 ukraynalı uşaq Azərbaycanda reabilitasiya keçib. Onu da yada salaq ki, Rusiya mediası iki il bundan əvvəl də Azərbaycandan Ukraynaya silah tədarükü ilə bağlı məlumatlar yaymışdı. İddia olunurdu ki, 2022-ci ildə Bakıda istehsal olunan 120 millimetrlik “40M11” minaları Ukraynaya satılıb. Rusiya mediası ötən ilin iyununda da Ukrayna silahlı qüvvələrinin arsenalında Azərbaycan istehsalı olan 82 millimetrlik “20N5” minaatanların olduğunu yazmışdı. Azərbaycanda bu minaatanların istehsalına təxminən on il əvvəl başlandığı barədə informasiya rəsmi mənbələrdə yer alır. Azərbaycan BMT-nin silahlara nəzarət rejiminin tələblərinə uyğun şəkildə, bunun üçün müvafiq sertifikata malik olan “20N5” minaatanlarını Yaxın Şərqin bir sıra ölkələrinə də satıb. Rəsmi mənbələrin açıqlamasına görə, Azərbaycan Ukraynaya heç bir silah, o cümlədən minaatanlar satmayıb və ötürməyib. Yəni, əsasən hay mənbələrin yaydığı, Rusiya mediasının da tirajladığı bu tip məlumatların heç bir əsası yoxdur.

*

Rəsmi Bakının Ukraynaya humanitar yardımı, bu ölkənin ərazi bütövlüyünü dəstəkləməsi müharibənin ilk günündən elan olunan xətdir. Bu mövqe bütün platformalarda, hətta Rusiya rəhbərliyi ilə görüşlərdə də dəfələrlə nəzərə çatdırılıb. Görünən odur ki, Rusiyada bəzi dairələr, media subyektləri Azərbaycana qarşı münasibətdə müttəfiqlik və tərəfdaşlıq əlaqələrimizi pozan mövqe sərgiləyirlər. Elə indi aparılan anti-Azərbaycan kampaniyası da yeni bir şey deyil.

İndi aparılan anti–Azərbaycan kampaniyasının Prezident İlham Əliyevin 9 mayda Rusiyaya parad səfərindən imtinası, Xarici işlər naziri Sergey Lavrovun Ermənistana məlum səfəri və Rusiya–Ermənistan münasibətlərində müşahidə edilən son istiləşmə fonunda baş verməsi təsadüfi deyil. Bununla Moskva bir daha əsl niyyətini, daha doğrusu, Cənubi Qafqaza köhnəlmiş siyasətindən əl çəkmədiyini, üzdə görünən fikir ayrılığına baxmayaraq, bölgədə əsas müttəfiqinin Ermənistan olduğunu bir daha ortaya qoyur. Bu, artıq hamıya məlum olan həqiqətin etirafıdır.

Yəqin, sonda bu xatırlatmaya da ehtiyac var: “Sülhməramlı kontingenti”nin ərazimizdə olduğu müddətdə erməni quldur dəstələrinin Ermənistandan silah, mina daşımalarına şərait yaratması sənədləşdirilən xronikadır. Bəlkə Moskva belə çirkin dezinformasiya, ideoloji kampaniya ilə Bakıya təzyiq göstərə biləcəyini, haqlı mövqeyindən geri çəkiləcəyini düşünür? Elədirsə, onda yanılır və bu cür zərərli addımların onun özünün maraqlarına zərbə vuracağı tezliklə üzə çıxacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



***Rasim MUSABƏYOV,***
***Milli Məclisin deputatı, politoloq***

– “Tsarqrad” rusiyanın millətçi dairələrinə məxsus, şovinist mövqeyi ilə seçilən qəzetdir. Onu oliqarx Konstantin Malofeyevin maliyyələşdirdiyi məlumdur. Azərbaycanın Ukraynaya yardımı ilə bağlı mövqeyi gizli deyil. Bu mövqe ondan ibarətdir ki, Azərbaycan dövlətlərin ərazi bütövlüyü prinsipinə dəstək verir. Məhz bu baxımdan, Ukraynanın beynəlxalq hüququn təsbitlədiyi bu haqqını tanıyır və onun tərəfindəyik. Rəsmi Bakı bunu prinsipial mövqeyi kimi açıq nümayiş etdirir. Bəli, MDB ölkələri arasında Ukraynaya ən böyük humanitar yardımı Azərbaycan göndərib. Axı, bu dövlətin energetika sistemi darmadağın olmuşdu. Bakı Kiyevi ciddi ehtiyac duyduğu elektro-generatorlarla, xüsusi kabellərlə təmin edib. Yəni, Azərbaycan dinc əhalinin normal yaşayışını təmin etmək məqsədilə yanacağı, ilkin tələbat mallarını Ukraynadan əsirgəməyib.

Azərbaycan bu istiqamətdə humanitar fəaliyyətini heç vaxt gizlətməyib. İndi durub kiminsə bu fəaliyyətimizə görə bizi qınamağa haqqı yoxdur. Axı, bizdən fərqli olaraq, milyardlarla dollar dəyərində sulahları Ermənistana müftə verən Rusiya olub. Ermənistanın həmin silahlardan Azərbaycan torpaqlarının işğalı üçün istifadə etdiyini xarici işlər naziri Sergey Lavrov özü etiraf etdi. Artıq o da sirr deyil ki, 44 günlük müharibədə Moskva İran ərazisindən Ermənistana bir milyardlıq yeni silahlar ötürüb. Rusiyanın Gümrüdəki hərbi bazasının cəbbəxanası da hayların ixtiyarına verilmişdi. Hərbi yardın buna deyirlər. Biz hələ işğalçıya verilən və torpaqlarımızı darmadağın edən “İsgəndər” və “Smerç” raketlərini demirik.

Bütün bunları “Tsarqrad”a xatırlatmaq lazımdır ki, Azərbaycanı Ukraynaya göstərdiyi humanitar yardıma görə qınamağı unutsun. Bakı Moskva ilə daim qonşuluq, strateji tərəfdaşlıq münasibətlərini qoruyub saxlamağa çalışıb. Amma bu o demək deyil ki, Rusiya xarici siyasətini, digər ölkələrlə münasibətləri necə qurması barədə Azərbaycana göstəriş versin.

# “İsveçrə neytrallığı”nın gerçək dəyəri

*(əvvəli 1-ci səhifədə)*

Bu günlərdə Ermənistan mətbuatı “Daşnaksütyun”un Hay dat bürosunun mərkəzi ofisinə istinadən yazıb ki, “2025-ci il mayın 26-da İsveçrənin paytaxtı Berndə “İsveçrənin sülh təşəbbüsü”nü dəstəkləyən 19 deputatdan ibarət partiyalararası komissiya işinə başlayacaq. Bildirilib ki, komissiyanın fəaliyyəti məhz İsveçrə parlamentinin yuxarı palatasının 2024-cü il martın 18-də qəbul etdiyi qərarın dəstəklənməsi və onun praktik müstəviyə keçirilməsi məqsədini daşıyır. Qərarın əsas məğzi isə Qarabağ ermənilərinin geri dönüş hüququnun tanınması və bu hüququn həyata keçirilməsi üçün beynəlxalq səviyyədə mexanizmlərin işlənib hazırlanmasıdır. Əslində, erməni diasporu tərəfindən mart ayında İsveçrə parlamentində keçirilən qondarma “sülh təşəbbüsü” beynəlxalq ictimaiyyətə ermənilərin, guya, Qarabağ bölgəsini tərk etmək məcburiyyətində qaldığı barədə yalan məlumat verməkdir. Bu, həm də onu göstərir ki, ermənilər diplomatik təzyiq vasitəsilə məqsədlərinə çatmağa çalışırlar.

Heç də təəccüblü deyil ki, bu məsələdə aparıcı rolu parlamentarilər Erix Vontobel və Stefan Müller-Altermatt kimi erməni lobbiçiləri oynayırlar. Onların statusunu yaxın keçmişdəki faktlar da aydın şəkildə təsdiq edir. Belə ki, Vontobel bu yaxınlarda İrəvana səfər edib və orada Qarabağda separatizminin son tör-töküntülərinin rəhbəri Samvel Şahramanyanla görüşüb.

Öz növbəsində, Stefan Müller-Altermatt da həmkarı kimi, erməni müştərilərinin pulunu qazanmaq üçün var gücünü sərf edir. Bu ilin yanvarında, o, Azərbaycan əleyhinə təxribat xarakterli bəyanatları ilə seçilib. Erməni nəşrlərindən birinə müsahibəsində Qərbi Azərbaycanla bağlı xoşagəlməz bəyanatlara yol verib və həyasızcasına onun tarixini uydurma adlandırıb. Bundan başqa, o, dəfələrlə Ermənistanın baş naziri Nikol Paşinyanın “Sülh kəsişməsi” layihəsini tərifləyib. Bildirib ki, beynəlxalq ictimaiyyət təkcə Ermənistan hökumətinin “Sülh kəsişməsi”nin həyata keçirilməsini deyil, həm də Qarabağ ermənilərinin qayıtmaq, öz müqəddəratlarını təyin etmək hüquqlarını və mədəni irsin qorunmasını tələb etməlidirlər. Bu açıqlamalar bir daha göstərir ki, Müller-Altermattın Azərbaycanın maraqları və tarixi reallıqları nəzərə alınmadan irəli sürdüyü fikirləri regionda sülh və etimadın bərqərar olmasına xidmət etmək əvəzinə, əlavə gərginliklər yaradır.

Yeri gəlmişkən, Müller-Altermattın təriflədiyi Paşinyanın “Sülh kəsişməsi” layihəsi Azərbaycansız sadəcə kağız parçasıdır. Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin yanvarında nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə bildirdiyi kimi, “Ermənistan “Sülh kəsişməsi” layihəsini ortalığa atıb və indi dünyada bir ölkə qalmayıb ki, o ölkəyə bu layihə təqdim edilməsin. Halbuki bu dırnaqarası layihənin Azərbaycansız iki qəpiklik də qiyməti yoxdur və biz bunu dəfələrlə Ermənistan tərəfinə müxtəlif kanallar vasitəsilə çatdırmışıq. Əgər siz bu layihəni doğrudan da həyata keçirmək istəyirsinizsə, ilk növbədə, Azərbaycana müraciət etməlisiniz. Çünki bizsiz bu, sadəcə olaraq, kağız parçasıdır, bizim şərtlərimiz isə ədalətlidir, beynəlxalq hüquqa əsaslanır və Ermənistanın özünün götürdüyü öhdəliklərinə əsaslanır. Ermənistan rəhbərliyinə bir daha məsləhət görərdim ki, 10 noyabr kapitulyasiya aktını diqqətlə oxusun və orada xüsusilə dediyim o bəndə diqqət yetirsin. Yenə də deyirəm, onların “layihəsi” Azərbaycansız tamamilə əhəmiyyətsizdir. Sadəcə olaraq, vaxt uzatmaqla məşğuldurlar, beynəlxalq ictimaiyyəti çaşdırmaqla məşğuldurlar. Yenə də Azərbaycana qarşı müxtəlif dairələrdə çirkin kampaniyaların aparılmasına rəvac veriblər”.

Dövlətimizin başçısının bu aydın mesajı təkcə Ermənistan rəhbərliyinə deyil, həm də Qərbdəki erməni maraqlarını müdafiə edən dairələrə – o cümlədən İsveçrə və digər Avropa ölkələrində fəaliyyət göstərən lobbi qruplarına yönəlib. Azərbaycanın maraqları nəzərə alınmadan həyata keçirilmək istənilən təşəbbüs və layihələrin reallaşmasının mümkün olmadığı bir daha diqqətə çatdırılıb. Bu səbəbdən də İsveçrədə fəaliyyətə başlayan “sülh təşəbbüsü” komissiyası və onun ətrafında formalaşan siyasi ritorika ekspertlər və rəsmi dairələr tərəfindən “xəyalpərəstlik” və ya reallıqdan uzaq təşəbbüs kimi qiymətləndirilir. Bu kimi planların həyata keçirilməsinin yalnız bir tərəfin iradəsi ilə mümkün olmadığını, münaqişənin həllinə deyil, yeni gərginlik yaradacağına səbəb olacağı vurğulanıb. Yəni ekspertlər tərəfindən konstruktiv dialoqdan çox, təxribatçı ritorika kimi qəbul edilir. Halbuki Azərbaycanın təqdim etdiyi “sülh gündəliyi” və regional kommunikasiyaların açılması təşəbbüsləri uzunmüddətli sabitliyə daha real və konstruktiv əsas yaradır.

Milli Məclisin deputatı Şahin Seyidzadə bildirdi ki, Fransa və Niderlanddan sonra İsveçrə də Azərbaycana münasibətdə riyakar mövqe nümayiş etdirir: “İsveçrənin paytaxtı Berndə 2025-ci il mayın 26-da Artsax ermənilərinin qayıdış hüququnun müdafiəsi məqsədilə yeni bir təşəbbüs platforması fəaliyyətə başlayacaq. Bu təşəbbüs, İsveçrə Parlamentinin yuxarı palatasının 2024-cü il martın 18-də qəbul etdiyi və ermənilərinin geri dönüş hüququnun həyata keçirilməsi üçün beynəlxalq mexanizmlərin tətbiqini nəzərdə tutan qərarın dəstəklənməsinə yönəlib.



İsveçrənin Azərbaycana qarşı riyakar mövqe nümayiş etdirməsi məsələsi, ölkənin xarici siyasətinin və bəzi beynəlxalq məsələlərdəki davranışlarının qiymətləndirilməsindən irəli gəlir. Azərbaycana qarşı riyakar mövqe ittihamları, ümumiyyətlə, İsveçrənin bəzi beynəlxalq təşkilatlarda və dövlətlərarası münasibətlərdə tənqid olunan addımlarına əsaslanır. Məsələn, İsveçrə, Azərbaycanın ərazi bütövlüyünü tanımasına baxmayaraq, bəzi hallarda Qarabağ məsələsində Ermənistanın mövqeyinə daha yaxın yanaşmış, həmçinin bəzi hallarda ölkəmizə qarşı sərt tənqidlər irəli sürmüşdür.

Belə mövqelər, İsveçrənin beynəlxalq hüquqa və insan hüquqları ilə bağlı bəzi məsələlərə daha çox diqqət yetirən siyasətinə də aid ola bilər, amma bu yanaşma zaman-zaman mübahisələrə səbəb olur və tərəflər arasında inamsızlığa yol aça bilər. Bu mövzu, ümumiyyətlə, İsveçrənin və Azərbaycanın müxtəlif strateji və diplomatik maraqları arasında gərginlik yaradan bir məsələyə çevrilə bilər”.

Onu da qeyd edək ki, isveçrəli deputatlar əvvəllər də qərəzli mövqe tutublar. Heç vaxt Ermənistanın azərbaycanlılara qarşı törətdiyi cinayətlərə, o cümlədən öz ərazisindən yüz minlərlə azərbaycanlını qovmasına, Azərbaycan ərazilərini 30 il işğal altında saxlayaraq əlavə milyona yaxın azərbaycanlını öz doğma torpaqlarından didərgin salmasına və onların geri qayıtmaq hüququnu pozmasına dair narahatlıqlarını ifadə etməyiblər. Azərbaycanlıların hüquqlarının kobud şəkildə pozulmasına və Ermənistanda, eləcə də vaxtilə işğal olunmuş ərazilərdə Azərbaycan mədəni irsinin məqsədyönlü şəkildə dağıdılmasına qarşı susqunluq nümayiş etdirmək, İsveçrə parlamentarilərinin qərəzli mövqeyini açıq-aydın göstərir.

Ümumiyyətlə, isveçrəli deputatların təhrif edilmiş məlumatlara əsaslanan bu təşəbbüsü regionda sülh və sabitliyə zərbə vurur, etnik qarşıdurmaların qızışdırılmasına xidmət edir. Bu, teatr tamaşasının məqsədi Ermənistanı qurban, Azərbaycanı isə işğalçı kimi təqdim etməklə beynəlxalq ictimaiyyəti çaşdırmaqdır. Doğrudanmı bu deputatlar başa düşmürlər ki, belə təxribatlar beynəlxalq aləmdə neytrallıq mövqeyi ilə tanınan bir ölkənin nüfuzuna zərbədir? Yoxsa, rüşvət onlar üçün daha önəmlidir?

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Milli Məclisin plenar iclası



**Mayın 23-də Sahibə Qafarovanın sədrliyi ilə parlamentin yaz sessiyasında növbəti plenar iclası keçirilib.**

İclası açan parlamentin sədri Milli Məclisin nümayəndə heyətinin İspaniyaya rəsmi səfəri barədə danışıb.

Sahibə Qafarova iclasın gündəliyinə 13 məsələnin daxil edildiyini söyləyib. O, birinci məsələnin "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi (ikinci oxunuş) olduğunu deyib. İclasda bu məsələni Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim edib. Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Gündəliyin növbəti beş məsələsindən ikisi beynəlxalq sənədlərin təsdiq edilməsi haqqında olub. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Zaur Şükürov "Azərbaycan Respublikası ilə Beynəlxalq Mülki Aviasiya Təşkilatı arasında aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində universal yoxlamalar proqramı çərçivəsində davamlı monitorinq mexanizminə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında bitki karantini və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini diqqətə çatdırıb. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Deputan Nizami Səfərov "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsindən danışıb. Qanun layihələri səsə qoyularaq qəbul edilib.

Parlamentin sədri Sahibə Qafarova gündəliyin digər yeddi məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu bildirib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Pasportlar haqqında" və "Dövlət qulluğu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsindən (birinci oxunuş) söhbət açıb.

Deputat bildirib ki, "Dövlət qulluğu haqqında" Qanuna bir sıra dəyişikliklər edilərək, Prezident Administrasiyasında şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbərinin müavini vəzifəsi inzibati vəzifələrin birinci təsnifatına aid edilib. Bu dəyişikliklərin icrası məqsədi ilə "Pasportlar haqqında" Qanuna təklif edilən düzəlişə əsasən, Prezident Administrasiyasında şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbərinin müavinləri diplomatik pasportu əldə edə biləcək subyektlər dairəsinə daxil edilir. Bununla yanaşı, "Dövlət qulluğu haqqında" Qanunda Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasının ləğv edilməsi ilə bağlı dəyişiklik təklif olunur və həmin quruma dair müvafiq müddəaların qanundan çıxarılması nəzərdə tutulur. Bu qanuna təklif olunan digər dəyişiklikdə inzibati və yardımçı vəzifələr təsnifatına Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi vəzifəsi əlavə edilir. Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Vergi Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumatı nəzərə çatdırıb.

Komitə sədri qeyd edib ki, layihə Dünya Bankı Qrupunun "Biznesin müflisləşməsi" indikatoru üzrə müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyaların həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi"ndə iflas proseduru başlanılmış hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər barədə məlumatların müvafiq olaraq hüquqi şəxslərin dövlət reyestrində və vergi ödəyicilərinin uçotu reyestrində uçotunun aparılması məqsədilə hazırlanıb.

Deputat Bəhruz Məhərrəmov məsələ barədə fikir və qeydlərini bildirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Torpaq Məcəlləsində, Mülki Prosessual Məcəllədə, Mülki Məcəllədə, "Notariat haqqında" və "İcra haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. O bildirib ki, layihə vərəsəlik hüquq münasibətlərində tərəflərin – həm miras qoyanın, həm də vərəsənin hüquq və maraqlarının ədalətli şəkildə qorunmasına xidmət edir. Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev məsələ barədə bu komitənin müsbət rəyini nəzərə çatdırdıqdan sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rövşən Muradov "Yaşayış minimumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumatı təqdim edib. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

"Pambıqçılıq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı isə Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev çıxış edib. Diqqətə çatdırılıb ki, layihə Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq hazırlanıb. Dəyişikliklərlə bağlı deputat Vüqar Bayramovun fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi müzakirəyə çıxarılıb. Layihə barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. Komitə sədri Zahid Orucun fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Gündəliyin sonuncu məsələsi olan "Qiymətli kağızlar bazarı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov məlumat verib. Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatıb.

***XQ***

# Türk Dövlətləri Təşkilatına üzv ölkələrin daxili işlər nazirlərinin Bakı görüşü





**Mayın 23-də Bakı şəhərində Türk Dövlətləri Təşkilatının daxili işlər nazirlərinin ikinci görüşü keçirilib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Türk Dövlətləri Təşkilatının daxili işlər nazirlərinin ikinci




görüşünün iştirakçılarından ibarət nümayəndə heyəti Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar.

Sonra Zəfər parkına gələn qonaqlar Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Qələbəsini simvolizə edən Zəfər abidəsi önünə əklil qoyaraq şəhidlərə ehtiramlarını ifadə ediblər.

Görüşdə Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov, Qazaxıstan Respublikasının daxili işlər naziri Erjan Sadenov, Qırğız Respublikasının daxili işlər naziri Ulan Niyazbekov, Türkiyə Respublikasının daxili işlər naziri Ali Yerlikaya, Özbəkistan Respublikasının daxili işlər naziri Aziz Taşpulatov, Şimali Kipr Türk Cümhuriyyətinin daxili işlər naziri Dursun Oğuz, Macarıstan Respublikası daxili işlər nazirinin müavini Bentse Retvari və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev iştirak ediblər.

İclası açıq elan edən Vilayət Eyvazov iştirakçıları səmimiyyətlə salamlayaraq Təşkilata üzv dövlətlərin xalqlarını sıx dostluq, qarşılıqlı inam və hörmət tellərinin bağladığını, türk dövlətləri liderlərinin müdrik uzaqgörənliyi və siyasi iradəsi sayəsində ölkələrarası dostluq və qardaşlıq münasibətlərinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu, strateji tərəfdaşlıq xarakteri daşıdığını, dövlət başçılarının müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq dinamik inkişaf etdiyini, bu kontekstdə Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın daha da dərinləşdiyini diqqətə çatdırıb.

İclasda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi, transmilli mütəşəkkil cinayətkarlıqla birgə mübarizə, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi sahəsində məlumat mübadiləsi, informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin qarşısının alınması, aşkar edilməsi, açılması üzrə əlaqəli fəaliyyət və Təşkilatın daxili işlər orqanlarının rəqəmsallaşması sahəsində əməkdaşlığın perspektivləri kimi məsələlər müzakirə edilib.

Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin daxili işlər nazirlərinin növbəti görüşünün Qazaxıstan Respublikasında keçirilməsi qərara alınıb.

Tədbirdə tərəflər Türk Dövlətləri Təşkilatı daxili işlər nazirlərinin ikinci görüşünə dair Birgə Kommünike sənədini imzalayıblar.

Çıxışlarda təşkilata üzv və müşahidəçi dövlətlərin daxili işlər nazirlərinin ikinci görüşünün türk xalqları və dövlətləri arasında həmrəyliyin möhkəmləndirilməsinə növbəti təkan olacağına əminlik ifadə olunub, habelə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tədbirə ev sahibliyi etməsinə görə təşəkkür edilib.

***XQ***

# Gürcüstanın Müstəqillik Gününə həsr olunmuş rəsmi qəbul



**Mayın 23-də Bakıda Gürcüstanın Müstəqillik Gününə həsr olunmuş rəsmi qəbul keçirilib.**

Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze çıxış edərək bildirib ki, ölkəsinin çoxəsrlik dövlətçilik tarixində 1918-ci il mayın 26-sı xüsusi əhəmiyyət kəsb edir. Həmin tarixdə Gürcüstan Demokratik Respublikası yaradılaraq gürcü xalqının müstəqil, vahid və azad dövlət qurmaq arzusu reallaşıb.

Regionda və dünyada sülhün və sabitliyin əhəmiyyətindən danışan səfir Gürcüstan hökumətinin münaqişələrin sülh yolu ilə həlli siyasətinə sadiq olduğunu bildirib, Azərbaycanın bu mövzuda dost, strateji tərəfdaş kimi ölkəsinə göstərdiyi dəstəyə minnətdarlığını ifadə edib.

Daha sonra Milli Məclisin sədri Sahibə Qafarova çıxış edərək Azərbaycan ilə Gürcüstan arasında çoxəsrlik dostluq və mehriban qonşuluq münasibətlərindən söz açıb. Milli Məclisin sədri iki ölkə arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayıb. O, enerji və nəqliyyat layihələri ilə yanaşı, Heydər Əliyev Fondunun Gürcüstanda həyata keçirdiyi sosial-humanitar təşəbbüslərin xalqlar arasında yaxınlığın və qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət etdiyini diqqətə çatdırıb.

Tədbirdə Gürcüstan və Azərbaycanın milli mahnıları səsləndirilib

***XQ***

# Koreya səfiri XİN-də



**Mayın 23-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Kimqu Kanqla görüşüb.**

Görüş zamanı səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir səfiri təyinat münasibətilə təbrik edib, ona fəaliyyəti müddətində uğurlar arzulayıb.

Səfir iki ölkə arasında münasibətlərin daha da inkişafı üçün bütün səylərini səfərbər edəcəyini diqqətə çatdırıb.

Görüşdə Azərbaycan-Koreya ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi müzakirə olunub.

*

Dünən xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar Misirin Azərbaycandakı səfiri Hişam Məhəmməd Nağı ilə görüşüb.

Ceyhun Bayramov səfirin ölkəmizdə diplomatik fəaliyyəti müddətində iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsinə verdiyi töhfəyə görə təşəkkürünü bildirib. Nazir tarixi dostluğa və qardaşlığa əsaslanan Azərbaycan-Misir münasibətlərinin xüsusi əhəmiyyət daşıdığını qeyd edərək, ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə mövcud olan əməkdaşlığı yüksək qiymətləndirib.

Misir səfiri Hişam Məhəmməd Nağı Azərbaycanda fəaliyyəti müddətində ona göstərilən diqqətə və dəstəyə görə təşəkkürünü bildirib.

***XQ***

# Qlobal geosiyasət və Türk Dövlətləri Təşkilatı




### III məqalə

## Dünya siyasətində turbulentlik

"Turbulentlik" fizikadan gələn anlayışdır. Ümumiyyətlə, nizamı aydın olmayan, qeyri-müəyyən, proqnozlaşdırılması çox çətindir, lakin açıq prosesi xarakterizə edir. Onun siyasətə ilk konseptual reduksiyasını 1990-cı ildə ABŞ politoloqu Ceyms Rozenau etmişdir. O, dünya siyasi sisteminin turbulentliyə meylliliyini vurğulamışdır. Yəni dünya miqyasında siyasi proseslərin ümumi qanunauyğunluğu pozulmuşdur və yeni düzən formalaşmamışdır. Bu da qlobal səviyyədə xeyli ixtilafların yaranmasına əsas vermişdir.

Xaotik təsirlər qlobal səviyyədən regional miqyaslara olmuşdur. Onun da nəticəsi çox sayda regional münaqişələrin yaranmasıdır. Bununla, faktiki surətdə, dünya siyasi sistemi idarəolunmaz hala gəlmişdir. Belə bir vəziyyətin təzahürlərindən biri nüfuz uğrunda mübarizənin daha da kəskinləşməsi və bir sıra dairələrdə proteksionizmin güclənməsidir.

Bütün bunlar qlobal geosiyasətdə müəyyən qüvvələr bir-biri ilə münasibətlərində neqativ halları artırmışlar. O cümlədən, Azərbaycana Ermənistanın təcavüz etməsi və bu davranışı dünyanın böyük güclərinin faktiki olaraq dəstəkləməsi özünü göstərmişdir.

Azərbaycan və bütövlükdə Türk dünyası bu proseslərə necə reaksiya verməli idi? Əlbəttə, özlərini qorumaq və müstəqil inkişaf etmək formatları axtarmalı və onu reallaşdırmağa çalışmalı idilər. Türk Dövlətləri Təşkilatı vurğulanan aspektdə xilas yolu kimi meydana gəlmişdir. Bu prosesə ənənəvi olaraq özlərini güclü sayanlar və dünyada əsl söz sahibi olanların reaksiyası ciddi məsələdir. Onlar, təbii ki, öz nüfuzlarını saxlamağa çalışmalı və bu yolda qarşıya çıxan türk dövlətləri kimi "əngəlləri" aşmalıdırlar. Buradan türk coğrafiyasında siyasi, geosiyasi, ideoloji, təhlükəsizlik, hərbi və digər xarakterli proseslərin sürətlənməsi və genişlənməsi aydın olur.

Yəni burada kimlərdənsə şikayət etmək və ya narazılığı bildirmək çıxış yolu deyil. Kimlərdəsə vicdan axtarmaq, insanlıq gözləmək də xülyadır – bütün hallarda öz maraqlarına nail olmaq üçün hər üsuldan istifadə edəcəklər. Məhz buna görədir ki, hətta türk cəmiyyətlərində elə hüdudsuz hərəkət edən qruplar tapılır ki, sağlam düşüncə onu izah edə bilmir. Heç bir etik sərhəd və mənəvi-əxlaqi qayda gözləmədən olduqca böyük vəhşət yarada bilirlər. Bununla türklərin "gözünü qırıb" onları kölə etməyə çalışırlar. Buna görədir ki, bəzən türk dövlətlərində elə amansızlıqla cinayət törədirlər ki, insan ağlına sığmır.

Belə çıxır ki, bütövlükdə dünya səviyyəsində yeni siyasi ab-hava yaranmışdır və Türk dünyası ondan kənarda qala bilməz. TDT-yə bu prizmadan yanaşmaq reallığa daha uyğun olardı.

## Birlik və həmrəylik

İndi TDT ilə bağlı bir-birinə əks olan iki proses getdikcə intensivləşir. Bir tərəfdən, TDT üzvləri birlik və həmrəyliklərini yeni səviyyəyə yüksəltməkdədirlər. Bunun üçün onlar sosial, mədəni, iqtisadi, kommunikasiya, informasiya, təhlükəsizlik, ideologiya, təhsil, elm və digər sferalar üzrə müasir tarixi dönəmdə görünməmiş miqyasda konkret proqramlar həyata keçirirlər. Təcrübə göstərir ki, türk dövlətləri bu istiqamətlərdə həm birgə çalışa bilir, həm də konkret nəticələr alırlar. O cümlədən, ortaq əlifbanın yaradılması, ortaq dil ilə bağlı müzakirələrin aparılması, müxtəlif mənəvi, mədəni sferaları əhatə edən layihələrin həyata keçirilməsinə başlanması kimi proseslər geridönməz trendə çevrilməkdədir. Bu isə o deməkdir ki, TDT artıq real geosiyasi güc halına gəlir.

Üzv dövlətlərin birliyini və həmrəyliyini pozmağa yönəlmiş hər hansı hərəkət və təhdidlərin qarşısının alınmasının vacibliyi diqqətə çatdırılır. TDT-nin nail olduğu səviyyəni Macarıstanda qəbul edilən Bəyannamənin bir sıra bəndlərindən aydın görmək mümkündür. Orada deyilir:

*– Türk xalqlarının tarix boyu dünya sivilizasiyasına mühüm töhfələrini, o cümlədən Avropa və Asiyanın mədəni, siyasi cəhətdən formalaşmasında davamlı irsini, Türk dövlətlərinin dünyada müasir siyasi, iqtisadi, sosial tərəqqiyə, regional və qlobal sülh və təhlükəsizliyə təsir göstərməkdə mühüm rolunu vurğulayan dövlət başçıları TDT-nin təşkilatın institusional əsasını qoyan tarixi Naxçıvan Sazişinin prinsiplərinə, məqsədlərinə və ruhuna sarsılmaz sadiqliyini bir daha təsdiqləyiblər.*

*– Türk dövlətlərinin regionda və onun hüdudlarından kənarda rolunu artıran siyasi, iqtisadi, ekoloji, sosial və mədəni nailiyyətləri təqdir edən prezidentlər "Türk Dünyası Xartiyası"nı türk xalqlarının ortaq mədəniyyətinin, adət-ənənələrinin, dilinin və tarixinin əsas ifadəsi və onların ortaq türk kimliyinin möhkəmləndirilməsi üçün birləşdirici çərçivə kimi tanıyıblar.*

*– Tərəflər Türk dövlətləri arasındakı böyük potensialdan və imkanlardan istifadə edərək, bütün sahələrdə həmrəyliyi, əməkdaşlığı və koordinasiyanı daha da gücləndirmək əzmində olduqlarını bildirir, Macarıstan, Türkmənistan, Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi qismində təşkilatın işinə dəyərli töhfələrini alqışlayırlar. Eyni zamanda, Kipr məsələsinin danışıqlar yolu ilə, qarşılıqlı məqbul və həyat qabiliyyətli həllinə nail olunmasının zəruriliyi qeyd edilir.*

*– Təşkilatın üzvləri regionda və onun hüdudlarından kənarda sülh və təhlükəsizliyə təhdid və çağırışlar yaradan terrorizm və transmilli mütəşəkkil cinayətkarlığın bütün formaları, terrorizmin maliyyələşdirilməsi və kibercinayətkarlıqla mübarizədə birgə səyləri davam etdirməyə sadiqliklərini bir daha təsdiqləyirlər. Bu kontekstdə Suriyanın ərazi bütövlüyü, birliyi əsasında təhlükəsizliyin və sabitliyin bərqərar olması, ona qarşı sanksiyaların aradan qaldırılması istiqamətində Türkiyənin konstruktiv rolu yüksək qiymətləndirilir.*

Bunlar 17 bəndin cəmi 4-dür. Lakin məna və məqsədcə çox geniş hədəflərə fokuslanmanı açıq göstərir. Türk dövlətləri qlobal geosiyasi miqyasda söz sahibi olmanın uğurlu modelini dəqiq müəyyən etmişlər. Bunun fonunda türk dövlətləri onlara qarşı nələrin ola biləcəyini də detallarına qədər dərk etmişlər və bunu aşağıdakı müddəa ilə Bəyannamədə ifadə etmişlər: "Üzv dövlətlərin birliyini və həmrəyliyini pozmağa yönəlmiş hər hansı hərəkət və təhdidlərin qarşısının alınmasının vacibliyi diqqətə çatdırılır".

Bunlardan çox əhəmiyyətli nəticə çıxarmaq olar – artıq dünya siyasətində "türk ruhu" ciddi surətdə hiss olunur və buna qarşılıq hansı addımları bir sıra dairələrin ata biləcəyi öncədən müəyyənləşmişdir. Bu da o deməkdir ki, Türk dünyası böyük geosiyasi mübarizəyə köklənmişdir və ona hazırdır. İndi bu kontekstdə türk toplumlarına qarşı atılan addımlara baxaq.

## Kənar hücumların əsas hədəfləri

Başa düşürlər ki, ümumiyyətlə, türkləri dayandırmaq mümkün olmayacaqdır. Xüsusilə, Azərbaycanın həqiqi mənada möhtəşəm layihələri və onların daha möhtəşəm siyasi-diplomatik təqdimatı göstərir ki, türk dövlətləri dünya miqyasında məharətli siyasi oyunçulardır! Azərbaycan və Türkiyənin son zamanlar bir-birinin ardınca dünyaya təsiri olan addımlar atmaları və onların sistemli, davamlı və nəticəverici olması çoxlarını heyran qoymuşdur.

Dünyanın müxtəlif regionlarında (Qafqazada, Yaxın Şərqdə, Mərkəzi Asiyada, Uzaq Şərqdə və hətta Afrikada) siyasi-diplomatik "türk fırtınası" vardır. Qafqaza hakimliyi və Mərkəzi Asiyaya güclü təsirləri Azərbaycan edir. Bakının Yaxın Şərqə və Avropaya da təsirləri özünü göstərir. Suriyadakı proseslərə kənardan çoxlu təsirlər olmasına baxmayaraq, ilk növbədə Türkiyənin və onunla bərabər Azərbaycanın situasiyaya hakimliyi indi kimsədə şübhə doğurmur. D.Tramp daxil, siyasi liderlər indi bu "türk siyasi möcüzəsi"ndən danışırlar.

Məsələ ondan ibarətdir ki, elə dairələr vardır ki, bu gedişatdan razı deyil və əks addımlar atmağa çalışırlar. Türk toplumlarında müşahidə edilən bir sıra anormal proseslər məhz oradan qaynaqlanır. Onlar bilirlər ki, türklərin birliyi və həmrəyliyini pozmadan onları yollarından döndərmək mümkün olmayacaq. Ona görə də müxtəlif ideoloji təxribatlar ortaya atılır. Son zamanlar isə əsas hədəfin dil, din və mədəniyyət olduğu aydınlaşır. Bu prosesin başqa bir "üzü" türk cəmiyyətləri arasında nifaq salmaqla bağlıdır. Şimali Kipr nümunəsində buna cəhd etdilər. Ancaq türk dövlət başçıları müdrik çıxdılar. Çünki türk siyasi liderlər baş verənlərə təmkinli, səbirli və ağıllı reaksiya verdilər ki, yekunda bizə dost olmaq istəməyənlər bir şeyə nail ola bilmədilər.

Bunlara paralel olaraq müxtəlif KİV vasitəsi ilə türk dövlətlərini bir-birinə qarşı qoymaq, onların hansısa gücdən asılılığı görüntüsü yaratmaq kimi fəaliyyətlərə də rast gəlinir. Bu da səmərəsiz çabalardır.

Bütün bunların, ümumiyyətlə, uğursuz olacağına yuxarıda bəyannamədən gətirdiyimiz 4 bəndin təhlili əsasında əmin ola bilərik.

## Türk sivilizasiyasının dünyaya töhfələri

Bu, çox dərin məsələdir. Tarix boyu türk xalqları və onların yaratdıqları dövlətlər dünya sivilizasiyasının inkişafına ciddi təkanlar vermişdir. Türklər əsas olaraq mədəniyyətləri, siyasətdə səbirli, müdrik və ədalətli olmaları ilə seçilmişlər. Bunları hətta Qərbdə geniş araşdırmışlar. Məsələn, Vyanada XX əsrdə bir araşdırma məktəbi yaradılmışdı. Orada türk sivilizasiyasını tədqiq etmişlər. Alman araşdırmaçılar belə qənaətə gəlmişlər ki, türklərin çöl mədəniyyəti dünya mədəniyyətinin inkişafına ciddi töhfələr vermişdir. Türklər bu mədəniyyətlə ailə, cəmiyyət, var-dövlətin idarəolunması və s. kimi sosial strukturların formalaşmasına ciddi təkanlar vermişlər.

Məsələn, "savaşçı çobanlar" ailənin idarə edilməsində türk nümunəsini yaymışlar. Bununla onlar iki məqsədə nail olmuşlar. Birincisi, ailə modelini cəmiyyətin təməlinə yerləşdirmişlər və bu zaman asılılıq bağlantılarını aradan qaldırmışlar. Tədqiqatlarda göstərilir ki, slavyan ailəsində ciddi asılılıq və köləlik vardısa, türk ailələrində sərbəstliklə qanunlara (törəyə) əməl etməyin nisbəti mövcud idi. Yəni türk ailəsində valideyn-valideyn, valideyn-övlad, övlad-övlad münasibətlərində köləlik mövcud deyildir. Əvəzində ailənin maraqları naminə birlik və törəyə uğun çoxalma (demoqrafik artım) prinsipləri hakim idi. Türk ailələrində kiçik oğul yurdda qalmalı və valideyinlərinə qulluq etməli idi. Böyük övladlar isə mütləq "ev" qurmalı idilər və bu üsulla çoxalma olmalı idi. Bu prosesdə mülkün ədalətli bölünməsi də törədə dəqiq müəyyən edilmişdi.

Tarixi mənbələrdə göstərilir ki, bu prosesi türklər ədalətli və qanunauyğun aparmışlar. Nəticədə ailə düzəninin türk modeli dünyaya "savaçı çobanlar" vasitəsilə yayılmışdır (əlbəttə, türk birgəyaşam modeli yalnız "savaşçı çobanlar"la məhdudlaşmır, biz nümunə olaraq onları göstəririk).

Müxtəlif tədqiqatçılar türk xalqlarının özünəməxsus birgəyaşam mədəniyyəti ilə orijinal sivilizasiya növü yaratdıqlarını aydınlaşdırmışlar. Bununla türk sivilizasiyası özünəməxsus formada mədəniyyət, dinc yanaşı yaşamaq, qanunlara uyğun həyat sürmək və ədalətli olmaq kimi fəzilətləri bütün dünyaya bəxş edib. TDT mövcudluğu və inkişafının təməlində bu anlayış var. Deməli, TDT, faktiki olaraq, dünyaya ədalət, paylaşma, yardımlaşma, hüquq və qanunun aliliyi kimi dəyərləri müasir dünyanın təzadları şəraitində yenidən qazandırma məqsədini qarşıya qoymuşdur!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Aİ–Macarıstan antoqonizmi və yeni geosiyasi gerçəklik

**Avropa İttifaqının (Aİ) daxili birliyi və institusional möhkəmliyi illərdir müzakirə mövzusudur. Lakin Macarıstanın son illərdəki siyasi xətti bu müzakirələri yeni səviyyəyə qaldıraraq Aİ-nin ideoloji və funksional bütövlüyünü ciddi şəkildə sınağa çəkir. Viktor Orban hökumətinin suverenlik və milli maraqlar əsasında formalaşan siyasəti Brüssellə açıq qarşıdurmaya gətirib çıxarıb. İkitərəfli münasibətlərdəki qarşıdurma – yəni, Aİ–Macarıstan antoqonizmi, təkcə siyasi fərqliliklərlə deyil, həm də enerji təhlükəsizliyi, geosiyasi orientasiyalar və qlobal güc balansları ilə izah olunur.**

Macarıstanın Aİ ilə münasibətlərindəki əsas qırılma nöqtəsi Brüssel mərkəzli inteqrasiya ideologiyası ilə Budapeştin milli suverenlik doktrinası arasındakı dərin prinsipial fərqlərdən qaynaqlanır. Aİ uzun illərdir ki, "vahid Avropa" modeli üzərində qurulmuş ümumi dəyərlər sistemini dəstəkləyir və bu model özündə qərarların mümkün qədər mərkəzləşdirilməsini və üzv ölkələrin daxili siyasətinin ümum avropa çərçivəsinə uyğunlaşdırılmasını ehtiva edir.



Viktor Orbanın siyasi fəlsəfəsi isə tamamilə fərqli məntiqə əsaslanır: dövlətin milli iradəsi və daxili qərarvermə hüququ toxunulmazdır. Onun tez-tez vurğuladığı "Macarıstanın taleyini yalnız macarlar müəyyən edə bilər" fikri Brüsselin unifikasiyaya yönəlmiş siyasətinə qarşı açıq ideoloji çağırışdır. Diskursal qarşıdurma artıq daha dərin – siyasi identiklik və gələcək vizyon səviyyəsində yaşanır. Brüssel bürokratiyasının çeviklikdən uzaq, tez-tez real kontekstdən qopmuş qərar mexanizmləri Macarıstan kimi öz strateji müstəqilliyini qorumağa çalışan ölkələr üçün ciddi çətinliklər yaradır. Aİ-nin əsasən Qərb mərkəzli baxış bucağı mərkəzi və Şərqi Avropa ölkələrinin tarixi keçmişini və siyasi reallıqlarını yetərincə nəzərə almır. Nəticədə, bu amil Avropa ailəsi daxilində qarşılıqlı anlaşma və qarşılıqlı hörmətin zəifləməsinə səbəb olur.

Belə bir şəraitdə Budapeşt öz xarici siyasətində daha balanslı və çoxtərəfli yanaşma nümayiş etdirməyə başlayır. Qərblə münasibətlərdə gərginliyin artdığı məqamlarda Macarıstan Şərq tərəfdaşlığı istiqamətində aktiv diplomatik addımlar atmağa başlayır. Xüsusilə, enerji təhlükəsizliyi məsələsində Aİ-nin qeyri-müəyyən və ideoloji yanaşmaları fonunda Orban hökuməti daha praqmatik və real əməkdaşlıqlara üstünlük verir.

Məhz bu kontekstdə, Azərbaycanla enerji tərəfdaşlığı Macarıstan üçün strateji önəm kəsb edir. Azərbaycanın sabit enerji təchizatçısı rolunu oynaması qardaş ölkənin enerji asılılığını diversifikasiya etməsi baxımından vacib alternativ yaradır. Bu əməkdaşlıq həm də siyasi mesaj xarakteri daşıyır: Budapeşt göstərir ki, alternativ tərəfdaşlar vasitəsilə Brüsselin təzyiqlərinə qarşı müstəqil manevr imkanları mövcuddur.

Beləliklə, suverenlik doktrinası ilə inteqrasiya ideologiyası arasında gedən qarşıdurma, sadəcə, Macarıstan–Aİ münasibətlərinin deyil, bütövlükdə bu qurumunn gələcək modelinin necə formalaşacağına dair daha geniş diskussiyanın tərkib hissəsidir. Macarıstanın enerji təhlükəsizliyi məsələsində Aİ-nin mərkəzləşdirilmiş və tez-tez ideoloji çərçivələrə sıxışdırılmış siyasətinə inamsızlığı onu daha çevik, praqmatik və çoxqütblü enerji diplomatiyasına sövq edir. Aİ-nin bəzən reallıqdan uzaq "yaşıl keçid" yanaşmaları və enerji təchizatçılarının siyasiləşdirilməsi fonunda Budapeşt öz enerji siyasətini milli maraqlara əsaslanaraq formalaşdırmağa çalışır. Bu tabloda Azərbaycanla əməkdaşlıq birbaşa milli təhlükəsizlik və strateji müstəqillik məsələsidir.

Son illərdə Bakı–Budapeşt xəttində müşahidə olunan yaxınlaşma qarşılıqlı enerji maraqları ilə yanaşı, geosiyasi baxımdan da mühüm prosesin göstəricisidir. Azərbaycanın Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya açılan enerji xətti Macarıstan üçün Rusiya qazından alternativ və dayanıqlı enerji mənbəyi tapmaq baxımından həyati əhəmiyyət daşıyır. Bu marşrut, eyni zamanda, siyasi iradə və strateji tərəfdaşlığın ifadəsidir.

Azərbaycan regionda həm sabitlik amili, həm də enerji təchizatında etibarlılığı ilə seçilən aktordur. Rusiya və İran kimi böyük enerji oyunçularına alternativ olaraq Azərbaycanın Avropanın "üçüncü yolu" kimi qəbul olunması siyasi risklərin azaldılmasına əsaslanır. Mövcud kontekstdə Macarıstan üçün Azərbaycanla əməkdaşlıq ənənəvi enerji bazarlarının siyasi manipulyasiyasından uzaq durmaq üçün mühüm alətə çevrilir. Üstəlik, bu əlaqələr Aİ daxilində enerji maraqlarının coğrafi baxımdan yenidən bölüşdürülməsi prosesinə də təsir göstərir. Şimali və Qərbi Avropa ölkələrinin enerji strategiyalarının dominantlığına qarş Mərkəzi və Şərqi Avropada öz maraqlarını müdafiə edə biləcək yeni güc xətti formalaşır. Macarıstanın Azərbaycanın enerji siyasətində fəal iştirakı bu baxımdan "Şimal–Cənub–Şərq" enerji maraqları xəritəsində yeni balansın yaranmasına şərait yaradır. Eyni zamanda, bu əməkdaşlıq Macarıstanın beynəlxalq arenada daha çevik və çoxvektorlu diplomatik oyun qurmasına imkan verir. Azərbaycanla münasibətlər Budapeştin təkcə enerji təminatını deyil, həm də siyasi manevr imkanlarını genişləndirir ki, bu da Macarıstanın Aİ içində sözünü daha inamla deməsinə və suverenlik mövqeyini gücləndirməsinə şərait yaradır.

Rusiyanın Ukraynaya hərbi müdaxiləsi Aİ daxilində həmrəyliyin sınağa çəkildiyi əsas geosiyasi hadisəyə çevrildi. Aİ-nin cavab tədbirləri – xüsusilə, sərt iqtisadi sanksiyalar paketi– üzv dövlətlər arasında fikir ayrılıqlarını daha da kəskinləşdirdi. Burada Macarıstanın mövqeyi Aİ-nin konsensus prinsipini sarsıdan başlıca faktor kimi önə çıxır. Budapeştin əsas arqumenti sanksiyaların Rusiya iqtisadiyyatına deyil, əksinə, Avropa ölkələrinin iqtisadi sabitliyinə daha çox ziyan vurması ilə bağlıdır. Orban hökuməti hesab edir ki, Aİ münaqişənin diplomatik həlli üçün konkret strategiya formalaşdırmadan, Rusiya ilə qarşıdurmanı təkcə siyasi yox, həm də iqtisadi cəbhəyə daşımaqla özünün iqtisadi maraqlarını təhlükə altına atır. Bu amil Macarıstanın özünü regional sülhün təşviqində "vasitəçi dövlət" kimi təqdim etməsi üçün əlverişli zəmin yaradır. Macarıstanın fərqli yanaşması Aİ daxilində gedən geosiyasi parçalanmanın təzahürü kimi də qiymətləndirilə bilər. Budapeşt təkcə Moskva ilə körpüləri tam şəkildə yandırmayan azsaylı Avropa paytaxtlarından biri kimi özünü neytral oyunçu və vasitəçi aktor olaraq göstərmək istəyir. Onun bu mövqeyi klassik "realist xarici siyasət" ənənələrinə əsaslanır və çoxqütblü dünyada manevr imkanlarını qorumağa yönəlib.



Elə bu kontekstdə Macarıstan təkcə Aİ daxilində deyil, həm də onun hüdudlarından kənarda – xüsusilə də, Avrasiya məkanında – yeni tərəfdaşlıq xətləri qurmağa can atır. Azərbaycanla münasibətlərin intensivləşdirilməsi də məhz bu strategiyanın tərkib hissəsidir. Avropada sərt xəttin tərəfdarı olan ölkələrdən fərqli olaraq, Macarıstan regional sabitliyin qorunmasında qeyri–Qərb güclərin rolunu tanıyan və onlarla əməkdaşlığı zəruri sayan yanaşmanı seçir. Azərbaycan isə bu konfiqurasiyada həm enerji təhlükəsizliyi baxımından, həm də müharibədən sonra formalaşan yeni geosiyasi düzəndə mühüm vasitəçi və tərəfdaş kimi qəbul edilir. Budapeştin Bakı ilə əlaqələri genişləndirməsi həm də yeni dünya nizamında çevik diplomatik mövqe tutmaq istəyindən doğur.

Nəticə etibarilə, Macarıstanın Rusiya – Ukrayna müharibəsi fonunda fərqli mövqe tutması və sanksiyalara qarşı çıxması onun Avropa daxilində özünəməxsus siyasi xəttin daşıyıcısına çevrilməsinə gətirib çıxarır. Bu xəttin regional və qlobal tərəfdaşlıq kontekstində əsas dayaqlarından biri isə Azərbaycanla qurulan çoxvektorlu əməkdaşlıqdır. Bəzi siyasi dairələrdə Macarıstanın bu mövqeyi Aİ-dən çıxışın ilkin əlamətləri kimi qiymətləndirilsə də, rəsmi Budapeşt bu iddiaları qətiyyətlə rədd edir. Əksinə, Viktor Orban Aİ-nin qlobal səviyyədə yenidən güc mərkəzinə çevrilməsi üçün islahatların vacibliyini vurğulayır.

Sonda onu da qeyd edək ki, bütün bu reallıqlar fonunda Azərbaycan–Macarıstan əlaqələri alternativ diplomatik modellərin formalaşdırılması baxımından diqqətəlayiq nümunəyə çevrilir. Aİ daxilində dərinləşən ziddiyyətlər və yeni dünya düzəni kontekstində Macarıstanın xarici siyasəti Avropa sistemində transformasiya çağırışı kimi dəyərləndirilə bilər.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Heydər Əliyev və memarlıqda milli üslub

**Ulu öndər Heydər Əliyev hələ gənclik illərindən memarlığa böyük həvəs göstərib. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil alıb, amma İkinci Dünya müharibəsinin başlanması ona orada təhsilini sona çatdırmağa imkan verməyib. Bununla belə, Ümummilli liderin memarlığa sevgisi və diqqəti könlündə həmişəlik yurd salıb.**



Azərbaycana rəhbərlik etdiyi hər iki dönəmdə Heydər Əliyev ölkənin memarlıq abidələri ilə zənginləşdirilməsinə, gözəl dizaynlı binalarla, heykəllərlə gözəlləşdirilməsinə xüsusi diqqət yetirib. “Dünya ümumiyyətlə quruculuqla, tikib yaratmaqla yaşayıb, inkişaf edib”, – deyərək, memarlıq və inşaat sahəsində də böyük tərəqqi əldə edilməsini prioritet sayıb. Paytaxtımızda və digər şəhərlərimizdə memarların yüksək ustalığına ünvan olan ictimai və yaşayış binaları, parklar, memarlıq ansamblları meydana gəlib. Bu sahədə həm kəmiyyətə, həm də keyfiyyət və bədii-estetik səviyyəyə tələb artıb.

Ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq, qısa bir dönəmdə Azərbaycan memarlıq və şəhər salnaməsində artıq estetik dəyişikliklərə start verildi. Ümummilli liderin Azərbaycan memarları qarşısında qoyduğu ilk tapşırıq belə idi ki, tikilinin formasından asılı olmayaraq, milli üslub, milli kolorit, tarixi, klassik memarlıq adət-ənənələri davam etdirilməlidir. Baxmayaraq ki, həmin dövrlərdə SSRİ məkanında o cür formatda tikililərin layihələndirilməsinə belə icazə verilmirdi. Bütün bu çətinliklərə baxmayaraq, Ulu öndər konseptual həllini özü təyin etdiyi layihələrin həyata vəsiqə almasına nail olurdu. O tikililərin layihələndirməsində, necə deyərlər, süjet xəttini özü verir və hətta memarlarımız tərəfindən layihələr işləndikcə mütəmadi olaraq müzakirələr aparırdı. Yəni demək olar ki, layihələri özü memarlarımızla birgə işləyirdi. Bu, dünya tarixində müşahidə olunmamış bir hadisədir. Məhz bunun nəticəsində həmin dövrlərdə müasir şəhərsalma prinsiplərinə və xalq təsərrüfatının tələbinə uyğun olaraq, şəhərlərimizin yeni baş planları işləndi, yaşayış məntəqələrinin siması köklü şəkildə dəyişdi. Əgər ona qədər Azərbaycanda cəmi 37 şəhərin baş planı vardısa, 70–80-ci illərdə 60 şəhərin və bir sıra şəhər tipli qəsəbələrin baş planları işlənildi. Beləliklə də, bir-birindən gözəl, milli üslubda ucaldılan tikililər epoxası başlandı.




Ümummilli lider tikililərin layihələndirilməsi ilə yanaşı, onların yerini də özü seçir, ətraf mühitlə harmoniyanı nəzərə alırdı. Bu isə memarlıqda ən əsas amillərdəndir. Buna misal olaraq “Respublika” sarayı və qarşısındakı geniş ərazinin təmizlənib abadlaşdırılması oldu. Həmin sarayın konsert salonu 2500 tamaşaçı üçün nəzərdə tutulmuşdur. Mühüm ictimai-siyasi toplantıların keçirildiyi binanın dekorativ tərtibatında bahalı materiallardan istifadə edilmişdir. Sarayın qarşısındakı geniş meydan və bağ, eləcə də vağzalyanı meydanın formalaşması Bakının Baş planı üzrə reallaşan bulvarın yaradılması istiqamətində həyata keçirilən ilk tədbirlərdən olmuşdur. Götürək Gülüstan Sarayını. Bu abidə də Heydər Əliyev ideyasının təcəssümüdür. Sarayın ərsəyə gəlməsində tapşırıq birmənalı milli üslub və ərazinin düzgün seçimi idi. Heydər Əliyev bu sarayların ucaldılmasına, onların memarlıq və tərtibatına xüsusi diqqət yetirir və bütün böyük tikintilərdə olduğu kimi, burada da işlərin gedişini şəxsi nəzarətində saxlayır, bir sıra prinsipial məsələlərin həllində şəxsən iştirak edirdi.

Ümummilli lider memarlıqda milliliyin tərənnüm olunmasını hətta yeraltı keçidlərdə, metro stansiyalarında da tətbiq etdirdi. Daha dəqiq desəm, metro stansiyalarını tunel anlamından yeraltı muzey formatına qaldırdı: başdan-başa milli üslub, milli kolorit. Mozaikadan yığılma rəngarəng milli ornamentlərlə zəngin elementlər, təsvirlər. Elə “Nizami” metro stansiyasına baxmaq yetər ki, bu barədə qənaət birmənalı möhkəmlənsin. Təsadüfi deyil ki, Bakının sürətli yeraltı ictimai nəqliyyat aləmi bu gün dünya səviyyəsində memarlıq zənginliyini özündə əks etdirməkdə birincilər sırasındadır.

Milli heykəltəraşlığın inkişafı da Heydər Əliyevin uca adı ilə bağlıdır. O dövrlərdə mədəniyyətimizin klassiklərinə, görkəmli ədiblərimizə, dünya şöhrətli incəsənət xadimlərimizə, qəhrəmanlarımıza ardıcıl olaraq bir-birindən gözəl monumental abidələr, abidə kompleksləri ucaldıldı. Heykəltəraşlıq tariximizdə xüsusilə qəhrəmanlıq mövzulu heykəllərin varlığı gənclərimizin vətənpərvər ruhda böyüməsinə təkan verdi. Bir memar kimi deyə bilərəm ki, Ümummilli liderimiz vətənpərvirlik tərbiyəsinin yeni formulasını yaratdı. Bir var, qəhrəmanlıq mövzusunda film – buna insanlar il ərzində 1 və ya 2 dəfə baxa bilirlər – bir də var, hər gün rast gəlinib göz-könül oxşayan heykəllər, abidə komplekslərinin yaratdığı ruhi assosiasiya.

Ulu öndərin təşəbbüsü ilə ucaldılan abidələr Azərbaycan heykəltəraşlıq məktəbinin intibahı ilə yanaşı, tariximizin yaddaşlara yazılması, dünya ictimaiyyətinə çatdırılması baxımından da önəmlidir. Milli memarlığın layiqli urvata çatması sayəsində onlarca Azərbaycan heykəltəraşı yetişdi, çoxu da sonrakı dövrlərdə dünya heykəltəraşlıq elitası səviyyəsinədək yüksəldi.

Reklam, şəhər tərtibatı məsələləri də diqqətdən kənarda qalmayıb. Sovetlər birliyi dövründə belə tikilmiş binaların damlarında, sağ və sol fasadlarında mozaikadan iri həcmli kompozisiyalar, ornametlər, zəhmətkeşliyi, beynəlmiləlçiliyi tərənnüm edən xeyli sayda yeni memarlıq formatı yarandı. Bu işlərdən ötrü yüzlərlə rəssam, dizayner tələb olunurdu və bunun da nəticəsində çoxsaylı sənətkarlar meydana gələrək, işlə təmin edildilər, mozaik istehsalı müəssisələri yaradıldı. Beləliklə, bədii tərtibat işləri o vaxt nəinki Bakıda, respublikamızın bütün şəhər və rayonlarında tətbiq edilməyə başladı ki, bu da şəhərlərimizin özünəməxsus estetik görkəminin formalaşmasına gətirib çıxardı.

Onu da qeyd edim ki, bu gün dünyanın üzləşdiyi problemlərdən biri yaşıl şəhər məsələsidir. Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə məhz Ümummilli liderimizin uzaqgörən fəhmi və təşəbbüsü ilə Bakının yaşıl şəhərə çevrilməsi üçün real zəmin yaradılıb. Heydər Əliyev bu problemlə də şəxsən məşğul olurdu. 1971-ci ildə qəbul edilmiş “Bakının və Abşeron yarımadasının daha da yaşıllaşdırılması tədbirləri haqqında” qərara əsasən yaradılan meşə-park zonası geniş ərazilərdə mikroiqlimin yaxşılaşmasına, təmiz hava rezervuarı yaradılmasına, ərazini küləkdən və təbii erroziyadan qorumağa kömək edib. 70-ci illərdə yaşıllaşdırma işlərinin geniş vüsət alması nəticəsində paytaxtımızda bağların və parkların sahəsi 3 dəfədən çox artıb. Yeni, yeni park və xiyabanlar salınıb. Həm ekoloji, həm də memarlıq və şəhərsalma kontekstində ilkin etibarlı bünövrə qoyulub. Bakının infrastrukturu, vizual siması rəngarəng olub, təbiət naxışları ilə bəzədilib.

Eyni zamanda, mənzil tikintisinin genişlənməsi şəhər ərazilərinin abadlaşdırılması, sosial və mədəniyyət obyektləri şəbəkəsinin inkişafı ilə müşayiət olunub. Gəncədəki Yeni Gəncə, Naxçıvandakı Yeni Naxçıvan massivləri, Sumqayıtdakı 13-cü, 17-ci mikrorayonlar memarlıq və kompozisiya həllinə görə həmin dövrün ən uğurlu yaşayış məkanları hesab edilir.

Maddi-mədəni irsimizə vətənpərvər yanaşmanı əks etdirən daha bir sənədin –1981-ci ildə “Azərbaycan SSR-də şəhərsalma, memarlıq və arxeologiya abidələrinin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında” qərarın qəbul edilməsi də abidələrimizin tədqiqi və mühafizəsi üçün böyük əhəmiyyət kəsb edib. Sovet ideologiyasına əsasən İslam dini abidələrinə mənfi münasibət bəslənməsinə baxmayaraq, Heydər Əliyev sərgilədiyi böyük vətənpərvərlik və cəsarət nümunəsi ilə belə ziyarətgahların qorunub saxlanması məsələlərini önə çəkmişdir. Həmin qərarla müqəddəs dini abidələrimizin – Naxçıvanda Qarabağlar türbəsinin, Qusar rayonunda Həzrə türbəsinin, Şamaxıda Cümə məscidinin təmir-bərpa işləri reallaşıb. Həm də abidələrin tədqiqi, aparılan elmi işlərin genişləndirilməsi və bu istiqamətdə təbliğatın güclənməsi üçün bütün mətbuat orqanlarına, kütləvi informasiya vasitələrinə müvafiq tapşırıqlar verilib, Azərbaycan və xarici dillərdə çoxlu nəşrlər meydana gəlib.

Maddi-mədəniyyət abidələrimizə hər zaman qayğı ilə yanaşan Heydər Əliyevin “Bakı şəhərində İçərişəhər tarix-memarlıq qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında” sərəncamı da böyük əhəmiyyət daşıyıb. Bu qərar bütün ictimaiyyətin diqqətini dağılan tarixi-memarlıq abidələrimizə cəlb edib və İçərişəhərin, sonra isə digər abidələrimizin müasir dövrün tələblərinə uyğun idarə olunmasının əsasını qoyub. Bu gün xarici qonaqlar, turistlər İçərişəhəri heyranlıqla gəzir, qədim tariximizə qayğı və sevgi dolu yanaşmamızı ürəkdən təqdir edirlər.

Xalqın təkidli tələbi ilə 1993-cü ildə siyasi hakimiyyətə qayıdan dahi şəxsiyyət yenidən milli-mənəvi dəyərləri dirçəltdi, bütün sahələr kimi, memarlığı da layiq olduğu səviyyəyə qaldırdı. Çətinliklərə baxmayaraq, Yeni Azərbaycanda yenidən quruculuq işləri geniş vüsət aldı. Memarların qarşısında bütün işlərində milli memarlıq irsi elementlərini tətbiq etmək tələbi qoyuldu və bu yaradıcılıq sahəsi özünün yeni intibah dövrünü yaşadı.

Milli memarlığa Heydər Əliyevin fenomenal qayğı ənənəsini bu gün Prezident İlham Əliyev layiqincə davam etdirir. İllər uzunu erməni işğalı altında olan torpaqlarımıza Böyük Qayıdış konsepsiyası, dağıdılan şəhər və kəndlərimizin yenidən qurulması, tarixi-memarlıq irsimizin bərpası ölkəmizdə memarlıq və inşaat fəaliyyətinin daha da genişlənməsinə rəvac verib. Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması çağdaş tələblər səviyyəsində, yeni texnologiyaların, şəhərsalma standartlarının və memarlıq formalarının tətbiqi ilə gerçəkləşir. Abidələrin ilkin siması özünə qaytarılır, məhz dünənlə bu günün arxitektura vəhdətində XXI əsrin yeni Azərbaycan kənd və şəhərlərinin obrazı yaradılır. Qürur doğuran bu milli təəssübkeşliyin kökündə isə Ulu öndərin milli-mənəvi dəyərlərimizə, maddi mədəniyyətimizə böyük məhəbbəti dayanır.

***Cahid HƏSƏNOV,***
***Ümumdünya Reklamçılar Assosiasiyasının üzvü,***
***Türk Ölkələri Beynəlxalq Araşdırmalar Akademiyasının fəxri doktoru, professor***

Reaksiya

# Lavrovun "Taleyranlığı", yaxud Ermənistan üçün ambient



*(əvvəli 1-ci səhifədə)*

Ermənistanda Lavrova sual şəklində ünvanlanmış qəribə gileylərdən biri bu idi: Azərbaycan 44 günlük müharibədə Ermənistanı rus silahları ilə məğlubiyyətə uğradıb. Hesab edirik ki, belə yanaşma ilk dəfədir səslənir. Bir qayda olaraq, haylar Türkiyənin və İsrailin Azərbaycanı silahlandırdığını deyirlər. Görünür, təzə anti-Rusiya tezisi tapıblar. Yaxud bu tezis onlara yeni verilib. Çünki Lavrova sual verən media təmsilçisinin məqsədi aydındır – Rusiyanı Ermənistanla bağlı mənəvi müstəvidə qınamaq. Ancaq təcrübəli diplomata saxta sentimentalizmin elementləri ilə təsir göstərmək mümkünsüzdür. Necə deyərlər, "Moskva göz yaşlarına inanmır".

Onu da deyək ki, Lavrov "Moskvadan" daha qəddardır və deyir ki, bütün dünya rus silahından istifadə edir, hətta Mozambikin bayrağında "Kalaşnikov" avtomatının təsviri yer alır. Yəni, rus silahından istifadə edən təkcə Azərbaycan deyil. Hesab edirik ki, diplomatın cavabı yalnız bundan ibarət olmalı idi. Baxmayaraq ki, Moskva-İrəvan strateji müttəfiqliyi var. Amma...

Lavrovun qəddarlığı vaxtilə Ermənistanın özünə məxsus olmayan və heç zaman tanımadığı həm Qarabağı, həm də bölgəyə bitişik yeddi rayonu məhz rus silahı ilə ələ keçirdiyini deməsidir. Birincisi, Ermənistan Qarabağı və digər Azərbaycan rayonlarını tanımırdısa, deməli özününkü bilmirdi. O zaman həmin rayonları "doğma" sayan hansı tərəfdir? Ortada rus silahı varsa, deməli, söhbət Kremldən gedir. Hər halda, Ermənistan Mozambik deyil. Bəlkə Qarabağ məsələsi Rusiyanın özünə lazım imiş? Sualımız ritorikdir.

Nəzərə alaq ki, Birinci Qarabağ müharibəsində təkcə rus silahı "danışmamış", eyni zamanda, rus hərbçiləri bilavasitə hərbi əməliyyatlara rəhbərlik etmiş, ermənilərin tərəfində döyüşmüşdülər. Fikrimizin sübutu kimi, Xocalı faciəsinin sovetlərin 366-cı motoatıcı alayının əli ilə törədildiyini vurğulaya bilərik. Amma bu, ilk və son fakt deyil. Tanınmış telejurnalist Aleksandr Nevzorovun xatirələrindən məlum olur ki, Rusiyanın ali xüsusi təyinatlıları sayılan Pskov desantları da müharibəyə qatılmışdılar. Jurnalist ermənilərin onların köməyi ilə azərbaycanlı döyüşçüləri sıxışdıra bildiklərini və itki verməyə məcbur etdiklərini vurğulayıb.

İkinci məqama diqqət yetirək. Əlbəttə, Qarabağ məsələsi Rusiyaya lazım idi. Postsovet məkanının digər nöqtələrindəki konfliktlərdə də Kremlin əlinin olduğu danılmazdır. Amma Qarabağ erməni qövmü üçün ideoloji əhəmiyyət kəsb edirdi və yenə bu baxış "aktuallığını" saxlayır. Axı haylar hər zaman Azərbaycan torpaqlarına ərazi iddiası irəli sürüblər. Bu da bir faktdır ki, onların avantürizmi gerçəkləşdirmək üçün üz tutduqları ünvan Moskva olub. Prinsip etibarilə, hər iki tərəfin mənafeləri uzlaşıb.

*

Bəli, ermənilərin Cənubi Qafqaz müstəvisində əldə etdikləri hər bir ərazi və digər üstünlükdə rus varlığının müstəsna rolu var. Ancaq tarixin müxtəlif dövrlərində ruslar məsələyə özlərinin daxili işləri kimi yanaşıblar. Ona görə Azərbaycan xalqının reallığa müqavimət potensialında zəiflik müşahidə edilib. Üstəlik, sapı özümüzdən olan baltaların "əməyini" də deməliyik.

Məlumdur ki, Azərbaycan torpaqları hesabına Ermənistana ərazi hədiyyələri 1969-cu ilin ortalarınadək davam edib. Buna ciddi müqavimət ulu öndər Heydər Əliyevin respublikamızda rəhbərliyə başlamasından sonra olub. Təsadüfi deyil ki, dahi liderin 1987-ci ildə sabiq SSRİ-dəki hakimiyyət olimpindən uzaqlaşdırılması ilə ermənilərin ərazi iddiaları vüsət almağa başlayıb. Sonra yaşananlar hər birimizə məlumdur. Azərbaycan torpaqlarının işğalı və bir milyona yaxın vətəndaşımızın qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkumluğu da həmçinin.

Birmənalı şəkildə deyə bilərik ki, xalqımız erməni işğalına qarşı mübarizə aparıb. Bunun nəticəsində 1988-ci ildə start götürmüş və Qarabağın Azərbaycandan alınaraq Ermənistana verilməsini nəzərdə tutan "Miatsum" cəfəngiyyatı sonradan forma və məzmununu dəyişərək, "Dağlıq Qarabağın müstəqilliyi" kazusuna əsaslanmışdı. Yəni, ilk hərbə-zorbalıq keçməmişdi.

Erməni millətçilərinin Qarabağ avantürasına Rusiya da, sabiq SSRİ rəhbərliyi də dəstək göstərmişdi. İkinci özünü qətiyyətsiz aparmaqla və hay quldurlarının hərəkətlərinə göz yummaqla, guya, barışdırıcı mövqe tutmaqla, birinci isə açıq şəkildə Ermənistanı silahlandırmaqla, hətta onun tərəfində hərbi əməliyyatlarda iştirak etməklə.

Xalqımızın erməni qəsbkarlığına qarşı mübarizəsi nə üçün nəticə vermədi? Bunun bir səbəbi Rusiyanın Ermənistana aşkar dəstəyi nəticəsində qüvvələr nisbətinin qeyri-bərabərliyi, digər səbəb müstəqil Azərbaycanda dövlət aparatının zəifliyi, daxildə hərc-mərcliyin baş alıb getməsi idi. Lakin ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanda hakimiyyətə gəldikdən sonra ermənilərin bütün planları pozuldu.

Ulu öndər, ilk növbədə, Rusiya ilə münasibətləri qaydasına saldı. Müəyyən mənada, Moskvanın neytrallığı təmin edildi. Nəticə etibarilə, 1994-cü ildə Bişkek protokolu imzalandı və atəşkəs əldə olundu. Ən başlıcası isə Ümummilli lider Qarabağ məsələsinə sabiq yalnız SSRİ-nin daxilindəki konflikt baxışını dəyişdi, böyük məharətlə münaqişəni beynəlxalq arenaya çıxardı.

Ulu öndər Heydər Əliyev Qarabağ məsələni xarici aləmə Azərbaycanın haqq davası kimi tanıtdı. Bu, son dərəcə böyük diplomatik uğur idi. Artıq ölkəmizə münasibətdəki hərbə-zorbalıq ritorikası sıradan çıxmışdı. Çünki dahi şəxsiyyət həm Azərbaycanı beynəxalq məkanın həqiqi üzvünə çevirmiş, həm də respublikada güclü dövlət quruculuğuna start vermişdi. Prezident İlham Əliyev isə Ulu öndərin Qarabağ davasını daha da möhkəmləndirmişdi.

Dövlətimizin başçısı ölkəmizin iqtisadi yüksəlişi fonunda həmin dava naminə hücum diplomatiyasına üstünlük vermişdi. Bu diplomatiya Ermənistanı daimi təzyiqdə saxlayır, rəsmi İrəvanın manevr imkanlarını məhdudlaşdırırdı. Qarşı tərəfin əsəbləri tarıma çəkməsi ilə qoşunların təmas xəttində atəşkəsin pozulması halları artırdı. Bir sözlə, Ermənistan vəziyyətlə barışmadığını göstərirdi.

Azərbaycan dövləti də torpaqlarımızın işğalda qalması ilə barışmayacağını daha əmin şəkildə vurğulayırdı. Bütün bunlar Rusiyanın da tərkibində yer aldığı ATƏT-in Minsk qrupunun vasitəçilik adı ilə apardığı ermənipərəstlik oyununun davam etdiyi bir şəraitdə yaşanırdı.

Atəşkəsin daha böyük miqyasda pozulması özünü 2016-cı ilin Aprel döyüşləri zamanı göstərdi. Məhz bu müharibə bir həqiqəti ortaya çıxardı: Azərbaycanın güclü ordusu var.

Bıçaq sümüyə dirənmişdi. Bir tərəfdən Azərbaycanın qüdrətinin artması ilə yanaşı, beynəlxalq mövqeləri güclənir, dünyanın ölkəmizlə hesablaşma bağlarının sayı artır, digər yandan hücum diplomatiyası daha konkret hədəfləri nişan alırdı. Nəhayət, 2018-ci ildə Ermənistanda hakimiyyət dəyişikliyi baş verdi və iqtidara Qərbpərəst Nikol Paşinyan gəldi. Paşinyanın Qarabağ danışıqlarında hansı mövqe tutduğu, onun sərsəmləmələrinin 44 günlük müharibəyə və rüsvayçılığa gətirdiyi aydındır.

*

Bəzən deyilir ki, Paşinyan hakimiyyətə gəlməsəydi və Ermənistan Rusiyanın orbitindən çıxmasaydı, Moskva Azərbaycanın Qarabağ aktivliyinin qarşısını kəsərdi. Əslində, belə deyimlərin heç bir əsası yoxdur. Çünki haqqında söz açdığımız hücum diplomatiyası onsuz da rəsmi İrəvanı dalana dirəmişdi. Tam əminliklə demək olar ki, Serj Sarkisyan hakimiyyətdən getməsəydi, onun Ermənistanı da Nikolun Ermənistanının yaşadığı aqibətlə üzləşəcəkdi. Nəzərə alaq ki, Rusiyanın hesablaşmalı olduğu həqiqətlər var və onlar həmişə olub. Azərbaycan isə siyasətini bu amili nəzərə alaraq qururdu.

Bu yerdə Rusiyanın XİN rəhbərinin vaxtilə Avropa İttifaqının Azərbaycan-Ermənistan şərti sərhədinin Ermənistan tərəfində keşik çəkən mülki müşahidə missiyasını "regionda əlavə qıcıqlandırıcılar" adlandırmasını yada salaq. S.Lavrov da ona ünvanlanmış suala əlavə rəng qatdı.

Axı Bakı ilə İrəvan sülh müqaviləsi mətninin bütün bəndlərini razılaşdırıblar. Bu gedişlə Ermənistan ölkəmizin barış sazişinin imzalanması üçün irəli sürdüyü iki şərti də qəbul edəcək. Lavrov isə İrəvana gedib subliminal şəkildə hayların yadına keçmişi salır...

Sözümüz ondadır ki, indiki məqamda Rusiya XİN başçısı fikirlərinə, ifadələrinə diqqət yetirsə, daha faydalıdır. Çünki Ermənistan 5 il əvvəlki Ermənistan olmadığı kimi, Azərbaycan da 30 il qabaqkı Azərbaycan deyil. Yəni, hazırkı Ermənistanı otuz il əvvəlki Ermənistanın işğalçılıq ovqatı ilə motivə etmək və ələ almağa çalışmaq tam gərəksizdir.

Lavrov Ermənistana Rusiyanın nəhəngliyini göstərmək istəyirsə, "musiqisini" hayların Qarabağ rekviyeminin, yaxud ambientinin notları üzərinə kökləməməlidir. Ermənistan cəmiyyətindəki revanşist və şovinist ovqatı körükləməyə ehtiyac yoxdur. Moskva hay müxalifətini hərəkətə gətirmək istəyirsə və ya Ermənistanı hansısa formada yenidən öz orbitinə qaytarmağı arzulayırsa, bunun başqa sivil üsullarını düşünməlidir.

Sonda haqqında söz açacağımızı bildirdiyimiz məqama keçid alaq. Daha doğrusu, "adamı bir qaşıq suda boğan" Lavrovun "boğulan" tərəf kimi görünməsinə. Belə qənaətə gəlirik ki, həm Rusiya XİN rəhbərinin Ermənistana səfəri, həm də onun barəsində bəhs etdiyimiz açıqlaması gözlər önündə boğulan birinin saman çöpündən yapışması mənzərəsini canlandırır. Əlbəttə, daha böyük mənzərə Rusiyanın kiçik Ermənistan qarşısındakı acizliyidir. Moskvanın İrəvana avantürizm vədi nəinki acizlik, eyni zamanda, rəzillik və miskinlikdir.

Ən sonda "Kremlin Taleyranı" ifadəsi üzərində dayanaq. Tam rahatlıq üçün bildirək ki, Lavrov inciməsin, amma o, Napalyon Fransasının Xarici işlər naziri Taleyran deyil və ola da bilməz. Çünki ikinci vaxtilə məğlub Fransanın müharibədən itkisiz çıxmasına səbəb olmuşdu. Lavrovun şəxsindəki Rusiya isə 44 günlük müharibə məğlubu Ermənistana Kremlin təhlükəsizlik çətirini vəd etməklə, ölkənin yalnız illüziya bataqlığındakı yerini möhkəmləndirə bilər ki, bunun bir yeganə perspektivi var - iflas.

***Ə.CAHANGİROĞLU***
***XQ***

XQ aydınlıq gətirir

# Amerikalı yazar Qərbi Azərbaycan həqiqətinə qara yaxır

**Vaxtilə Türkiyənin təhlükəsizlik orqanlarının hərbi zonaya keçərkən saxlayıb həbs etdiyi amerikalı jurnalist Lindzi Snell bu dəfə ermənipərəst böhtançı çıxışı ilə gündəmə gəlib. Amerika Erməni Milli Komitəsinin muzdlu sözçüsü son vaxtlar Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən Qərbi Azərbaycan Araşdırmalar Mərkəzini hədəfə alıb.**






Böhtançı xanımın bu mərkəzlə bağlı gerçəyi əks etdirməyən, qərəzli yalanlarını Ermənistan mediası həvəslə tirajlayıb. ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, Qərbi Azərbaycan İcması idarə heyətinin üzvü, professor Mahirə Hüseynova bu təxribatçı, azərbaycanofob yazarın uydurmaları barədə XQ-yə bildirdi:

– ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektorlugu nəzdində fəaliyyət göstərən Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin məqsədi indiki Ermənistan ərazisindəki tarixi torpaqlarında soyqırıma və deportasiyaya məruz qalmış soydaşlarımızla bağlı təkzibedilməz faktları toplamaq və bu əsasda elmi araşdırma aparmaqdır. Lakin erməni millətçiləri və onların havadarları bizim bu humanist, ədalətli fəaliyyətimizi təhrif edərək ictimai rəyə yanlış təqdim edirlər. Həqiqətlərin aşkar edilib beynəlxalq hüquq işığına çıxarılması məlum düşmənçilik səbəbindən Ermənistanda təşviş və bədxah yozumlarla qarşılanır.

Amerikalı yazarın bu prosesə muzdla cəlb edilməsi və onun yalanlarının İrəvan mediasında yayılması təəssüf doğursa da, tarixi həqiqətlərin məzmun və xarakterini dəyişmir. Sadəcə olaraq, erməni millətçi təbliğat maşını amerikalı yazarı yalan uydurmağa, böhtan atmağa cəlb etməklə ölkədə bu prosesə beynəlxaq dəstək qazandırıldığı təsəvvürü yaratmaq istəyir. Əslində isə, Lindzi Snellin yalanları Amerika xalqının, bu dövlətin rəy və mövqeyini qətiyyən əks etdirmir.

Professor açıqlamasının davamında söylədi:

Xanım Snell bizim mərkəzdə olmadan, onun nə ilə və necə məşğul olduğunu bilmədən, erməni yalanlarını təkrarlayaraq bildirib ki, guya, burada saxta xəritə düzəldilib və erməni toponimləri dəyişdirilib. Həqiqət isə belədir ki, oyuncaq Ermənistan dövlətinin tarixi Azərbaycan torpaqları ərazisində yaradılması tarixşünaslıqda elmi təsdiqini tapıb. Bu ölkədəki Azərbaycan toponimlərini isə Ermənistan zaman-zaman heç bir əsas olmadan dəyişdirməklə tarixi həqiqəti saxtalaşdırıb.

Ermənilərin təşvisinə heç bir əsas görmürəm, bizim mərkəz elmi araşdırma ocağıdır. Ermənilərdən fərqli olaraq, burada milli nifrət, əsassız iddialar körüklənmir, obyektiv elmi araşdırmalar aparılır. Qərbi Azərbaycan icması bu həqiqətə güvənərək dinc və layiqli formada öz yurduna qayıtmaq istəyir.

Bu ümummilli hərəkatın bəşəri missiyasını heç bir Lindzi Snel dəyişdirə bilməz. Ermənisevər xanım bilməlidir ki, millətçi təbliğat bu xalqı fəlakətə yuvarlayıb. Amerikalı yazar əgər zehniyyatı zəhərlənmiş bu toplumun xoşbəxtliyini istəyirsə, bundan sonra ona açıqladığımız həqiqəti söyləməlidir.

***Hazırladı:***
***T.RÜSTƏMLİ***
***XQ***

*Xuntaçıların məhkəməsi*

# Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Azərbaycan ərazilərinin işğalında iştirak edib



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 23-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə prosesində dindirilən təqsirləndirilən şəxs Levon Mnatsakanyan Azərbaycanın suveren ərazilərinin işğalı prosesində iştirak etdiyini təsdiqləyib. O, müxtəlif illərdə keçmiş qondarma qurumda "tabor komandiri", "diviziya komandiri" və "artilleriya rəisi" olduğunu bildirib.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran təqsirləndirilən şəxs Samvel Karapetyan rəhbərlik etdiyi hərbi hissənin tərkibində Azərbaycanın suveren ərazilərinin işğalında iştirakını etiraf edərək deyib: "Ağdamda, Cəbrayılda, Ağdərədə, Füzulidə və digər ərazilərdə aparılan döyüş əməliyyatlarında iştirak etmişəm".

Məhkəmə prosesində daha sonra Azərbaycan ərazilərinin işğalı zamanı Ermənistanın təşəbbüsü ilə yaradılan "Şuşa əlahiddə taboru"nun tərkibində xarici ölkələrdən gələn şəxslərin iştirakını ifşa edən videomaterial tədqiq olunub.

Kadrlarda bildirilir ki, Ermənistandan və dünyanın müxtəlif yerlərindən, o cümlədən ABŞ-dan, Kanadadan, Suriyadan gələn 210-dan artıq daşnak və könüllü tərəfindən 1991-ci il noyabrın 5-də "Şuşa əlahiddə taboru" yaradılıb.

Videomaterialda deyilir ki, "Qarabağın azad edilməsi uğrunda" döyüşlərdə iştirak edən təxminən 100 erməni diaspor nümayəndəsindən 65-i bu taborun döyüşçüsü olub. Kadrlarda göstərilir ki, işğalçı Ermənistan ordusunun hərbçisi Petros Gevondyanın abidəsi önünə güllər qoyulur.

Materialda, həmçinin bildirilir: "Jirayr Sefilyan 1967-ci ildə Beyrutda anadan olub. "Mübarizə"də iştirak etmək məqsədilə 1990-cı ildə vətənə gəlib. Hərbi təlimçi kimi 1990-cı ildən Ermənistanın müxtəlif rayonlarında "yerli özünümüdafiə qrupları"nın formalaşmasında iştirak edib. 1991-ci ildə qrup komandiri kimi Qarabağın bir sıra rayonlarının yaşayış məntəqələrinin "müdafiəsi"ndə iştirak edib.

1992-ci ildə "Daşnaksütyun" döyüş qrupları əsasında Qarabağda ilk bölmələrdən biri yaradılıb və bunun əsasında bir neçə ay sonra keçmiş qondarma rejimin "ordusu"nun "Şuşa əlahiddə batalyonu" formalaşıb. Bütün müharibə boyunca bu hərbi hissənin komandiri Jirayr Sefilyan olub. Onun rəhbərliyi altında həmin hərbi hissənin bölmələri Qarabağın bütün rayonlarının, həmçinin Ağdamın işğal edilməsində iştirak edib.

Videoda bildirilir ki, Qarabağın "azad edilməsi" döyüşlərində iştirak edən təxminən 100 erməni diaspor nümayəndəsindən 65-i bu taborun döyüşçüləri olub. Vurğulanır ki, müharibədən sonra J.Sefilyan 1997-ci ildən 1998-ci ilədək 6-cı müdafiə rayonunun komandiri olub. O, 1-ci dərəcəli "Döyüş Xaçı" medalı (Ermənistan Respublikasının – red.), digər döyüş medalları və dövlət mükafatları ilə təltif olunub. Ermənistanın silahlı qüvvələrində polkovnik-leytenant rütbəsinə malikdir.

Videomaterialda Movses Akopyan (2016-2018-ci illərdə Ermənistan Respublikası silahlı qüvvələrinin baş qərargah rəisi olub – red.) çıxışında onların hərbi hissələrinin əməliyyatlarından danışıb və bildirib ki, xüsusən də Horadiz istiqamətində döyüşlərdə iştirak ediblər: "Bu gün xidmət edən zabitlər xərita üzərindən görə bilərlər ki, Qaraxanbəyli istiqamətində düşmənin dərinliyinə doğru irəliləmişik. Tabor Əsgəran, Şuşa, Xocavənd, Ağdərə, Ağdam, Füzuli, Qubadlı, Cəbrayıl, Kəlbəcər və Zəngilan əməliyyatlarında iştirak edib".

Kadrlarda Davit İşxanyan da görünür.

Videogörüntülərdəki şəxsin özü olduğunu təsdiqləyən təqsirləndirilən David Manukyan Şuşa taborunun tərkibində Ağdərədə və Kəlbəcərdə aparılan döyüş əməliyyatlarında iştirak etdiyini deyib.

D.Manukyan Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında iddia edib ki, Şuşa taborunun tərkibində muzdlular olmayıb, amma xarici ölkələrdən gələn şəxslər iştirak edib.

Videomateriallar tədqiq edilməklə sualları cavablandıran təqsirləndirilən David Manukyan təqdim olunan görüntülərdəki şəxsin özünün olmasını təkrar təsdiqləyərək, Şuşa taborunun tərkibində Ağdərədə, Kəlbəcərdə aparılan döyüş əməliyyatlarında iştirak etdiyini bildirib.

Təqsirləndirilən şəxs işğal dövründə Azərbaycan ərazilərinin talan edilməsi barədə suallara cavab verməkdən yayınıb.

Daha sonra sualları cavablandıran təqsirləndirilən şəxs Arayik Harutyunyan dövlət ittihamçısı Vüsal Abdullayevin "1993-1994-cü illərdə hansı əməliyyatlarda iştirak etmisiniz" sualına cavab olaraq deyib ki, sağlamlığı ilə əlaqədar atəş aça bilmədiyinə görə döyüş əməliyyatlarında iştirak etməyib. "Xankəndidə yerləşən 8-ci alayın mərkəzi müdafiə rayonunun silah anbarına cavabdeh şəxs idim. 8-ci alay demək olar bütün döyüş əməliyyatlarında - Şuşa, Laçın, Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli, Kəlbəcər, Horadiz döyüşlərində iştirak edib. Həmin alayın komandirlərindən biri də qardaşım olub. Alayın komandiri isə Samvel Karapetyan idi. Onu 1993-cü ilin yanvarından tanıyıram", - deyə o əlavə edib.

Ardınca videomaterial nümayiş olunmaqla Arayik Harutyunyana suallar verilib.

Videomaterialda jurnalistə müsahibə verən A.Harutyunyan döyüş əməliyyatlarının aparılması qaydası haqqında və Samvel Karapetyanla ilk görüşü barədə məlumatlar verərək deyir: "Mənim sonrakı komandirimlə (Samvel Karapetyan - red.) ilk görüşüm 1992-ci il mayın 7-də olub. O vaxt biz mayın 9-da Şuşaya girmək əməliyyatını planlaşdırırdıq. Hər şey uğurla başa çatdı, Şuşanı azad etdik".

Kadrlarda təqsirləndirilən şəxsin Samvel Karapetyanla birgə tankın üzərində oturub durbinlə ərazini müşahidə etdiyi görünür.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran A.Harutyunyan videomaterialda danışdıqlarını yalan adlandırıb, bu fikirləri qardaşının adından səsləndirdiyini deyib.

Təqsirləndirilən şəxs Güllücənin tutulması barədə videoda səsləndirdiyi fikirlər barədə isə qeyd edib: "Biz Güllücəyə girdik deyərkən 8-ci alayı nəzərdə tuturdum".

Məhkəmə prosesində nümayiş olunan fotoşəkillərin bəzilərində Arayik Harutyunyan özünü tanıyıb. Şəkillərin əksəriyyətində o, hərbi formada görünür.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli təqsirləndirilən şəxsə BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinin niyə icra olunmaması barədə suallar verib.

O, suallara cavabında deyib: "Bu barədə qərar var idi. Amma niyə yerinə yetirilməməsini bilmirəm. Mən Levon Ter-Petrosyanla da görüşmüşdüm. Başa düşdüm ki, yekdillik olmayıb".

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin böyük prokuror-metodisti Vüsal Abdullayevin suallarını cavablandıran təqsirləndirilən şəxs 2018-2019-cu illərdə Ermənistanla keçmiş qondarma qurum arasında keçirilən 2 iclasın birində iştirak etdiyini vurğulayaraq söyləyib: "2020-ci ilin may ayında "prezident" vəzifəsini qəbul etdim. İyun ayında Ermənistanın baş naziri Nikol Paşinyandan xahiş etmişəm ki, iclas çağırsın. İstəyirdim ki, Azərbaycanla danışıqlar olsun, yekun razılığa gəlinsin. Həmin söhbətdə BMT-nin 4 qətnaməsi də var idi".

Dövlət ittihamçısı Vüsal Əliyevin vaxtilə Azərbaycanın işğal edilmiş ərazilərinin talanması barədə sualına cavab verən A.Harutyunyan qəbiristanlıqların dağıdılmasını barbarlıq adlandırıb.

Daha sonra dindirilən David Babayan dövlət ittihamçılarının BMT Təhlükəsizlik Şurasının qətnamələrindəki işğalçı qüvvələrin kim olması barədə suallarına cavab verməkdən yayınıb.

Məhkəmədə Arkadi Qukasyanın vəkillərinin biri məhkəməyə müraciət edərək səhhətində yaranan problemə görə əvəzlənməsini xahiş edib.

A.Qukasyan müdafiəçisinin dəyişməsinə etirazının olmadığını bildirib. Məhkəmə təqsirləndirilən şəxsə yeni müdafiəçinin təyin olunması barədə qərar qəbul edib və icrası üçün Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına göndərib.

Məhkəmə iclasında təqsirləndirilən şəxslər, həmçinin müdafiəçilərin və zərərçəkmiş şəxslərin nümayəndələrinin suallarını cavablandırıblar.

Məhkəmə prosesi mayın 26-da davam etdiriləcək.

***XQ***

# Baş prokurorun BMT Baş Katibinin müavini ilə görüşü

**Vyanada işgüzar səfərdə olan Baş prokuror Kamran Əliyev ilə BMT Baş Katibinin müavini, Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin İcraçı direktoru Qada Vali arasında ikitərəfli görüş keçirilib.**



Görüş zamanı Azərbaycan ilə BMT arasında mövcud olan yüksək səviyyəli münasibətlər və hüquq-mühafizə orqanlarımızla BMTNCİ arasında formalaşmış səmərəli əməkdaşlıq xüsusi məmnunluqla qeyd edilib. Bildirilib ki, son bir ildə Bakıda və Vyanada təşkil olunmuş birgə sessiyalar bu tərəfdaşlığın möhkəmlənməsinə, eyni zamanda cinayətkarlığa qarşı mübarizədə yeni yanaşmalar və əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinə mühüm töhfə verib.

Qada Vali, BMT-nin qlobal antikorrupsiya platforması olan GLOBE şəbəkəsinin 6-cı plenar iclasının Bakıda yüksək səviyyədə təşkili münasibətilə Baş prokuror Kamran Əliyevi təbrik edib, hərtərəfli dəstəyə görə təşəkkürünü bildirib. O, tədbirin korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın dərinləşməsinə, yeni tərəfdaşlıqların qurulmasına və ümumilikdə dayanıqlı inkişaf məqsədlərinin reallaşdırılmasına xidmət etdiyini vurğulayıb.

***XQ***

# Ermənistanın Qərbi Azərbaycan xofu

*(əvvəli 1-ci səhifədə)*

A.Badalyan baş nazir Nikol Paşinyanın bəyanatını sanki sözbəsöz təkrarlayaraq deyib: "Ermənistan Respublikasının ərazisində Qərbi Azərbaycan yoxdur, – Qərbi Azərbaycan Azərbaycan Respublikasının qərb rayonlarıdır. Xatırladım ki, erməni tərəfi bundan əvvəl də Azərbaycanın bu cür bəyanatlarına dəfələrlə reaksiya verib və belə bəyanatların Ermənistan Respublikasına qarşı ərazi iddiası kimi qiymətləndirildiyini vurğulayıb".

Əvvəlcə, diqqəti A.Badalyanın açıqlamasında nəzərdən yayınmayan, əslində, çox şeyi izah edən bir detala yönəltmək istərdik. Bu da mətbuat katibinin açıqlamasında "Qərbi" sözünün kiçik hərflə, eyni zamanda, Qərbi Azərbaycan toponiminin dırnaq işarəsi daxilində yazılmasıdır. Bu, qətiyyən "Armenpress"in redaktə məsuliyyətinin pozulması deyil. Əksinə, tam şüurlu şəkildə həyata keçirilmiş manipulyasiyadır. Ermənistan tərəfi bununla Qərbi Azərbaycan toponimini qeyri-real, guya, süni və yalnız Azərbaycanın, belə deyək, fantaziya dünyasına məxsus bir anlayış kimi təqdim etməyə çalışır. Yəni bu torpağın coğrafi, tarixi və siyasi reallıq kimi qəbul olunmadığını dırnaq işarəsi içində ifadə edir.

Digər tərəfdən, "Qərbi" sözünün kiçik hərflə yazılması da ideoloji niyyəti açıq şəkildə göstərir. Beynəlxalq qaydalarda, eləcə də Azərbaycan dilinin orfoqrafiyasında toponimlərin, yəni coğrafi adların ilk hərfi böyük yazılır. "Qərbi Azərbaycan" ifadəsi də bir coğrafi-siyasi məfhumdur. Onun kiçik hərflə yazılması bu toponimi adi bir məkan kimi göstərmək, onun rəsmi və hüquqi məna daşımasını arxa plana atmaq cəhdidir. Əslində, burada söhbət sadəcə bir sözün necə yazılmasından getmir. Bu, Ermənistan diplomatiyasının apardığı sistemli siyasətin bir parçasıdır. Məqsəd Azərbaycan ictimai rəyində və beynəlxalq aləmdə Qərbi Azərbaycan anlayışının legitimliyinə kölgə salmaq, onu, necə deyərlər, həyata keçməyəcək iddia səviyyəsində saxlamaqdır. Halbuki bu toponim və onun daşıdığı məna təkcə Azərbaycanın yox, həm də deportasiyaya məruz qalmış yüz minlərlə azərbaycanlının taleyi, yaddaşı və hüquqları ilə birbaşa bağlıdır.

***

Badalyanın açıqlamasının digər hissəsinə, yəni, guya, Ermənistan ərazisində Qərbi Azərbaycanın mövcud olmadığı və Qərbi Azərbaycanın Azərbaycan Respublikasının qərb rayonları olması fikrinə gəldikdə isə bu, bir tərəfdən terminoloji çaşdırmaya, digər tərəfdən isə siyasi mahiyyətin təhrifinə xidmət edir. Halbuki Qərbi Azərbaycan ayrıca tarixi-coğrafi və hüquqi anlam daşıyan məfhumdur. Bu, hamıya, o cümlədən Ermənistan rəhbərliyinə və A.Badalyana da məlumdur. Amma xanım mətbuat katibinin "Qərbi Azərbaycan Azərbaycanın qərb rayonlarıdır" kimi təqdimatı, əslində, həm tarixi saxtalaşdırmaq, həm də hüquqi məsuliyyətdən yayınmaq cəhdidir.

Qərbi Azərbaycan termini, coğrafi olaraq indiki Ermənistan Respublikasının ərazisini, yəni Zəngəzur, Zəngibasar, Göyçə, Dərələyəz, Ağbaba, Qarakilsə, Şörəyel, Vedibasar, Loru, Sərdarabad, Pəmbək və digər mahalları, eləcə də İrəvan şəhərini əhatə edən və əsasən azərbaycanlı əhalinin yaşadığı tarixi məkanlara aiddir. Bu ərazilər birinci (1804–1813) və ikinci (1826–1828) rus-İran müharibələri zamanı çar Rusiyası tərəfindən ilhaq edilib. İrəvan xanlığı, Naxçıvan xanlığı kimi tarixi inzibati vahidlər bu ərazidə mövcud olub və onların əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edib. Toponim kimi Qərbi Azərbaycan ifadəsi isə XX əsrin ikinci yarısından etibarən formalaşıb və bu bölgələrdən deportasiya olunmuş azərbaycanlıların yaddaşında, milli kimliyində qeyri-rəsmi şəkildə istifadə olunub. Qərbi Azərbaycan azərbaycanlılar üçün sadəcə coğrafi istiqamət deyil, konkret tarixi məkan və mənəvi vətəndir.

Badalyanın, əslində, rəsmi İrəvanın iddia etdiyi Azərbaycanın qərb rayonları ifadəsi tamamilə yanlış və çaşdırıcıdır. Çünki Azərbaycan Respublikasının qərb rayonları dedikdə Qazax–Tovuz və Gəncə–Daşkəsən iqtisadi rayonlarına, eləcə də Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan inzibati ərazi vahidləri nəzərdə tutulur. Halbuki Qərbi Azərbaycan anlayışı coğrafi baxımdan bu sərhədlərin kənarında, yəni hazırda Ermənistan Respublikasının ərazisi olan torpaqları əhatə edir. Bu fərqin gizlədilməsi və manipulyativ şəkildə Qərbi Azərbaycanın Azərbaycan Respublikasının indiki qərb rayonları kimi təqdim olunması, əslində, ölkəmizin üzərinə ərazi iddiası ittihamını yönəltməyə xidmət edir. İrəvan dünya ictimaiyyətində "Azərbaycan Ermənistan ərazisinə iddia edir" təsəvvürünü yaratmağa çalışır. Amma reallıq budur ki, Azərbaycan, sadəcə olaraq, etnik təmizləməyə məruz qalmış öz vətəndaşlarının qayıdış hüququnu gündəmə gətirir və bu ərazilər Azərbaycan Respublikasının inzibati vahidlərinə yox, tarixi yaddaşına aiddir.

***

Məhz Ermənistan tərəfinin bu cür manipulyativ yanaşmasına bələd olduğumuz üçün Prezident İlham Əliyevin Ankarada keçirilmiş beynəlxalq konfrans iştirakçılarına ünvanladığı müraciətdə bildirilib: "Xüsusi olaraq vurğulamaq istərdim ki, Qərbi azərbaycanlıların qayıdış istəyi Ermənistana qarşı ərazi iddiası demək deyildir və Ermənistan həmin istəyi bu formada təqdim etmək cəhdlərindən əl çəkməlidir. Qayıdış reallaşana qədər bu məsələ Azərbaycanın gündəliyindən çıxmayacaqdır. Təbii ki, öz yurdlarına dönəcək Qərbi azərbaycanlılara təhlükəsizlik zəmanəti də verilməlidir".

Ümumiyyətlə, bu müraciətin hər cümləsi həm hüquqi, həm də diplomatik planda diqqətlə seçilib. Prezident İlham Əliyevin bu fikri, əslində, Qərbi Azərbaycan məsələsinə dair ölkəmizin rəsmi və prinsipial mövqeyini çox aydın və diplomatik dildə ortaya qoyur. Bu müraciət həm beynəlxalq ictimaiyyətə, həm də xüsusilə Ermənistan tərəfinin manipulyativ mövqeyinə ünvanlanmış açıq və prinsipial cavabdır. Dövlətimizin başçısının səsləndirdiyi bu fikirlər Qərbi Azərbaycan məsələsinin mahiyyətinə dair hər hansı qeyri-müəyyənliyə və ya şübhəyə yer qoymur. Cənab İlham Əliyev Ermənistan tərəfinin əsas "təbliğat silahı"nı bu cümlə ilə təkzib edərək bildirir ki, məsələ torpaq iddiası deyil, deportasiya edilmiş əhalinin doğma yurdlarına qayıtmaq hüququndan ibarətdir. Bu hüquq beynəlxalq konvensiyalarla qorunur və hər hansı ərazi dəyişməsini nəzərdə tutmur. Bu, həm də beynəlxalq ictimaiyyətin narahat olacağı məqamları öncədən neytrallaşdırmaq üçün atılmış addımdır. Azərbaycan açıq şəkildə deyir ki, biz sərhəd çəkmirik, biz qovulmuş insanların haqqını tələb edirik.

Prezident burada təkcə Ermənistan hökumətinə yox, eyni zamanda, beynəlxalq mediaya və siyasi dairələrə çağırış edir. Yəni, Ermənistanın bu məsələni "ərazi iddiası" kimi təqdim etməsi təbliğat xarakteri daşıyır və bununla beynəlxalq aləmi çaşdırmaq niyyəti güdülür. Əslində, bu manipulyativ yanaşmanın ifşası, Azərbaycanın informasiya müharibəsində üstün mövqe tutduğunu və nəhayət, haqlı mövqeyini hüquqi əsaslarla təqdim edə bildiyini göstərir.

Müracətdə əksini tapan bu məsələnin Azərbaycanın gündəliyindən çıxmayacağı fikri isə siyasi iradənin və ardıcıllığın ifadəsidir. Bu, Azərbaycanın Qərbi Azərbaycana qayıdış məsələsini uzunmüddətli siyasi strategiya ilə gündəmdə saxlayacağının birmənalı mesajıdır. Bu, həm də Ermənistana və onu dəstəkləyən dairələrə ünvanlanmış xəbərdarlıqdır: bu məsələni gündəmdən çıxarmaq mümkün olmayacaq, Azərbaycan öz hüquqi və tarixi haqqını heç vaxt unutmur və unutmayacaq.

Onu da bildirək ki, Ankarada keçirilmiş beynəlxalq konfransın əsas təşkilatçısı olan Qərbi Azərbaycan İcması Ermənistan xarici işlər nazirliyinin verdiyi bəyanatı qınayıb. Bu barədə icmanın yaydığı bəyanatda bildirilib: "Ermənistanın Qərbi Azərbaycan İcması ilə dialoqdan qaçması, öz ərazisində Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əleyhinə iş aparan keçmiş qondarma rejimin tör-töküntülərinin fəaliyyətinə imkan verməsi bu ölkənin regionda davamlı sülhdə maraqlı olmasına dair verdiyi bəyanatlarla tam ziddiyyət təşkil edir. İcmamız bir daha vurğulayır ki, beynəlxalq hüquq çərçivəsində və sülh yolu ilə qayıdış hüququ uğrunda əzmlə mübarizəsini davam etdirəcək".

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



***Ramiyə MƏMMƏDOVA,***
***politoloq***

– Qərbi Azərbaycana qayıdış məsələsinin son illər Azərbaycanın əsas prioritetlərdən birinə çevrilməsi, təbii ki, Ermənistanda narahatlıqla qarşılanmaya bilməzdi. Xüsusilə, bu mövzuda beynəlxalq konfranslar keçiriləndə İrəvanın da bu reallığı inkar etməyə yönəlmiş reaksiyalarının intensivləşməsi müşahidə edilir. Bu baxımdan, mayın 21-də Ankarada keçirilən beynəlxalq konfrans və Prezident İlham Əliyevin tədbirə ünvanladığı prinsipial və ardıcıl mövqeyə əsaslanan müraciəti məsələyə daha ciddi siyasi və hüquqi çərçivə qazandırdı.

Ümumiyyətlə, Qərbi Azərbaycana qayıdış təkcə azərbaycanlıların milli hüquqları kontekstində deyil, həm də beynəlxalq hüquq və tarixi ədalət baxımından çox mühümdür. Həm konfransın özü, həm də cənab İlham Əliyevin müraciəti beynəlxalq ictimaiyyətə və birbaşa Ermənistana siqnaldır. Onu da qeyd etmək lazımdır ki, Ankarada belə bir tədbirin keçirilməsi Türkiyənin bu məsələyə açıq dəstəyinin göstəricisidir. Konfransın beynəlxalq statusu problemin lokal deyil, beynəlxalq əhəmiyyət daşıdığını nümayiş etdirir.

Ermənistan xarici siyasət idarəsi sözçüsünün reaksiyası isə onu göstərir ki, İrəvan bu məsələdə reallıqdan açıq şəkildə qaçmağa çalışır. İrəvandan verilən bəyanatlar daha beynəlxalq ictimai rəydə əks-səda doğurmur. Azərbaycan cəmiyyətində, dövlətində və xaricdəki diasporunda Qərbi Azərbaycan məsələsi milli həmrəylik və konsensus mövzusudur. Ermənistan bu reallıqla barışmalıdır. Çünki bizim mövqeyimiz beynəlxalq hüquqa, tarixi faktlara və insan hüquqlarına söykənir.

## Azərbaycan Respublikası Prezidenti Administrasiyasının vətəndaş qəbulu mərkəzində 2025-ci ilin iyun ayında vətəndaşların qəbulu

**CƏDVƏLİ**

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | **2** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | **3** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | **4,19** |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | **5, 13, 27** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | **5** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | **10** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | **11** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Seyidov Fərid Mirmufid oğlu | **12** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | **13** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | **17** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | **17** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | **18** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | **20** |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | **23** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | **23** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | **23** |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | **24** |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | **24** |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Bəşir Qüdrət oğlu | **25** |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | **25** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | **27** |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | **27** |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Yusubov Elçin Mustafa oğlu | **30** |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | **30** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Özbək tələbələrə 28 May dərsi

**28 May – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Daşkənd Dövlət Şərqşünaslıq Universitetində Azərbaycan dilini öyrənən özbək tələbələr üçün xüsusi dərs keçirilib.**



Dərsi Azərbaycan dili müəllimi, filologiya üzrə fəlsəfə doktoru Mətanət Xudiyeva aparıb.

M.Xudiyeva Respublika Gününün tarixi əhəmiyyəti, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və milli dövlətçilik ənənələrinin formalaşmasında rolu haqqında geniş məlumat verib. O qeyd edib ki, 1918-ci ildə yaranan Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik respublika kimi tarixə düşüb, xalqımızın azadlıq və müstəqillik arzusunun rəmzinə çevrilib. Tələbələrlə həmçinin Azərbaycan dövlət rəmzləri, milli-mədəni irsimiz, eləcə də müasir dövrdə ölkəmizin beynəlxalq nüfuzu barədə də söhbətlər aparılıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

Azərbaycan Milli Mətbuatı – 150

# Media dövlətin söz dayağıdır



**Müsahibimiz Azərbaycan Jurnalistlər Şəbəkəsi İctimai Birliyinin sədri, tanınmış telejurnalist Ayaz Mirzəyevdir.**

**– Bu il milli mətbuatımızın 150 illiyini qeyd edirik. Mətbuatımız öz yubiley ilində çəkisini, dəyərini, vacibliyini nə dərəcədə qoruyub saxlayıb?**

– İlk növbədə sevinirəm ki, 150 illiyini qeyd etdiyimiz Azərbaycan mətbuatının əsgərləriyik. Haradan baxsaq, 20-25 ildir ki, jurnalistika ilə məşğuluq. İndi soruşurlar ki, Həsən bəy Zərdabinin "Əkinçi"si ilə bağlı insanlara aşıladığı ideyalar hazırda nə dərəcədə qorunur. Həsən bəyin "Əkinçi"ni yaratmaqda bir əsas məqsədi cəmiyyəti maarifləndirmək idi. İndi cəmiyyəti maarifləndirməyin müxtəlif yolları var. O zaman qəzet idisə, indi saytlar, TV-lər, radiolar, sosial şəbəkələr hətta fərdi olaraq blogerlər belə öz yazıları ilə izləyicilərinə nələrisə çatdıra bilirlər. Bu nə deməkdir? O deməkdir ki, Həsən bəy Zərdabinin ideyaları, onun məqsədləri yaşayır. Onu siz yaşadırsınız, mən yaşadıram, bizim həmkarlarımız yaşadırlar. Hərəmiz bir formada yaşadırıq. Xalqı maarifləndirməyin özü bunu yaşatmaqdır.

**– Zərdabinin əsas hədəfi əsasən maarifçilik idi. Bu gün isə cəmiyyətin əsas şikayəti əyləncə xəbərlərinə daha çox yer ayırılmasıdır...**

– Bir az sadə formada izah etməyə çalışacağam. Bazara gedirsən, narın öz alıcısı, kartofun, soğanın öz alıcısı... Dediyim odur ki, teleməkanda xəbərin öz alıcısı var. Amma bu bizə bir həyəcan təbili çala bilər ki, baxın, nisbət 51/49 deyil, 75/25-dir. Biz həmişə deyirik axı, mətbuat cəmiyyətin güzgüsüdür. Bu gün hamı istəyir ki, cəmiyyətimiz intelektli, təhsilli insanlarla zəngin, öz xalqını, gənclərini düşünən bir formada olsun. Bütün dünyanı maraqlandıran mövzular bizi də maraqlandırsın. Biz vakumun içərisində deyilik ki, orada bizim qonşularımız olmasın, yalnız özümüz üçün yaşayaq. Biz də bəşəriyyətin bir parçasıyıq və bəşəri maraqlandıran xəbərlərlə biz də maraqlanmalıyıq. Media bəşəriyyəti düşündürən məsələlərlə bağlı cəmiyyət arasında bir vasitə, bir platforma olmalıdır. Media nümayəndəsi onu araşdırmalı, öz düşüncə süzgəcindən keçirməli və maraqlı formada öz cəmiyyətinə təqdim etməlidir. Bu baxımdan, media nümayəndəsinin missiyası böyükdür. Bayaq qeyd etdiyiniz balansı media nümayəndəsi qorumalıdır. Amma bu xəbər artıq var, o biri xəbər olmasın, məsələn, əyləncəyə yer ayrılmasın və s. kimi fikirlərə gəldikdə isə doğrusu əyləncə həmişə olub, olacaq da. Çünki cəmiyyətdə ona tələbat var. Biz başqa növ ciddi xəbərlərə necə maraqlıyıqsa, əyləncəyə də marağı olan insanlar var. Amma bu doğrudur ki, balansı qorumalıyıq. Bir fərdi məsuliyyət məsələsi var, bir də inzibati resurslarla məsuliyyət tələb etmək var. Şükürlər olsun ki, demokratik ölkədəyik, inzibati-senzura resursları yoxdur. Biz kiməsə deyə bilmərik ki, əyləncəli xəbəri yayımlama. Amma media vasitəsinin sahibi olan kəs əgər öz millətinin, xalqının gələcəyini düşünürsə bu balansı qorumalıdır. Bəli, bəlkə də o müəyyən vəsait də itirə bilər. Amma yenə də burada fərdi məsuliyyət ön plana çıxır.

**– Ayaz bəy, rəqəmsal media bu gün sürətlə həyatımıza daxil olur. Əvəzində klassik mətbuat tənəzzül edirmiş kimi görünür. Necə etmək olar ki, klassik mətbuat öz varlığını qoruyub saxlaya bilsin.**

– Bir dəfə həmkarlarımızdan biri çox maraqlı bir ifadə işlətmişdi. Çay öz məcrasını dəyişibsə, amma oradan su axırsa deməli o davam edir. Klassik mətbuatla, rəqəmsallaşmanı da biz çox fərqləndirə bilərik. Amma mən həmişə ikisinin də dostlaşmasının tərəfdarı olmuşam. Başqa çıxış yolu da yoxdur. Deyirlər ki, kağız saralır. Söz ki saralmır. Klassik mətbuatın əlində olan onun sözüdür, güclü təhlil aparmasıdır. Bəli, artıq qəzet səhifələrindən müraciət eləmir öz auditoriyasına. Amma o başa düşməlidir ki, bu gün onun izləyicisi var. Amma izləyicisi başqa platformadan da onu izləyə bilər. Sosial şəbəkədən səhifələrindən, saytlardan, TV-dən. Biz bunu dünyanın ən aparıcı qəzetlərindən də görə bilərik. Onlar başa düşdülər ki, axına qarşı dayana bilməzlər, axına ancaq qoşula bilərlər. Bəs necə dostlaşdılar? Özlərinin saytlarını yaratdılar, sosial şəbəkə səhifələrini yaratdılar. Yenə də izləyicilər müəlliflərin məqalələrini həmin platformalardan oxuyurlar. Yəni dəyişən sadəcə vasitələr, platformalar oldu. Mətbuat ilk növbədə müasir, çevik və etibarlı olmalıdır. Çeviklik dəyişən zərurətlərə adaptasiya etməli, müasir olmalıdır. Necə ki, biz hazırda "Xalq qəzeti"nin redaksiyasındayıq. Halbuki TV-də əyləşmişik. Və etibarlılıq şərtdir. Sən müasir də, çevik də ola bilərsən. Amma yaydığın xəbərlər dəqiq olmasa, sən bu bazarda nüfuzlu ola bilməzsən.

**– Media savadlılığına sizin baxışınız maraqlıdır...**

– Mən dəfələrlə media savadlılığı ilə əlaqədar həm Audovizual Şuranın, eyni zamanda Media Agentliyinin tədbirlərində iştirak etmişəm. Mənə elə gəlir ki, media savadlılığı artıq seçim deyil, zərurətdir. Yəni burada söhbət jurnalistin özünün də media savadlılığından, həm də oxucudan gedir. Jurnalist dəyişən dövrdə müasir çağırışları izləməlidir. Çağırış odur ki, əvvəlki kimi artıq jurnalist xəbəri tapmır. Xəbər onu hər yerdə təqib edir. Vaxt var idi ki, biz xəbər axtarırdıq. Gedirdik soruşurduq, zəng edirdik, axtarırdıq, xəbərdən xəbər çıxarırdıq. İndi isə xəbər özü bizi tapır. Bildirişlər gəlir telefonumuza. Sosial şəbəkədə demək olar ki, hər kəs passiv və ya aktiv formada çəkilişlər edib paylaşır, yazır. Yəni biz başa düşməliyik ki, hazırda xəbər bolluğunun içindəyik. Amma bu bolluğu da çeşitləmək lazımdır. Biz ayırd etməliyik. Bunların böyük bir əksəriyyəti əsassız xəbərlərdir. Və bunu həyata keçirmək üçün bizdə media savadlılığı olmalıdır. Biz yalan xəbərlə doğrunu fərqləndirməyi bacarmalıyıq. Bunun üçün təkcə jurnalistika təhsilimiz kifayət eləmir, fərqli-fərqli mütaliələr mərhələsi keçməliyik. Təkcə bizim sadə, ibtidai təhsilimiz buna kifayət eləmir. Jurnalist hər gün mütaliə etməlidir, özü-öz üzərində işləməli, xarici mənbələri oxumalıdır və s.

Burada bir başqa məqam da var. Məsələn bizim üçün bunu ayırd etmək çox rahatdır. Çünki bizim təcrübəmiz var. Amma izləyicilərin hamısı bunu ayırd edə bilmir. Mən Finlandiyada bu mövzuda təlimdə oldum və maraqlı təcrübəyə şahidlik etdim. Orada orta sinifdən uşaqlara media savadlılığından dərslər keçilir. Təsəvvür edirsinizmi ? Ona görə də Finlandiya feyk xəbərlərin olmadığı və ya ən az yayıldığı olan ölkələr siyahısındadır. Səbəb sadədir, insanlar maarifləndirilir.

Çin filosofu Konfutsinin bir sözü var. Əgər sən bir dəhlizlə gedirsənsə və bir otağa daxil olmusansa, daxil olduğun otaqdakılardan ən savadlısı sənsənsə deməli, sən yanlış otağa daxil olmusan. Bu çox dərin bir fikirdir. Yəni sən həmişə özündən daha savadlı, daha məlumatlı olan insanların olduğu otağa daxil olmalısan. Burada mənəm-mənəmlik çox böyük maneədir. Gərək bu məsələdə olduqca təvazökar olasan ki, inkişaf edə biləsən.

**– Yeniləşən və dəyişən meyarlar fonunda jurnalistikamız 4-cü hakimiyyət statusuna adekvatdırmı ?**

– Vaxt var idi, məşhur bir qəzet müxbirinə ona medianın gücü ilə bağlı bir sual vermişdilər. O demişdi ki, ötən əsrin 60-cı illərində istənilən qəzetlə dünyaya açılan pəncərəni bağlamaq olardı. Yəni dediyi o idi ki, sən dünyaya baxmaq istəyirsən, amma qarşında olan bir qəzetdə nə yazılıbsa bax o həqiqətdir. Artıq elə deyil. Dövr dəyişib, mətbuat vasitələri çoxdur. Sanballı media nümunələrimiz də var. Media həm də rəy formalaşdırır. Bu, gücdür. Media sahəsində olan adam fəhlə ilə fəhlə, alimlə alim olmalıdır. Əsl media nümayəndəsi psixoloq, filosofla qismən də olsa danışa bilməlidir, siyasəti, iqtisadiyyatı bilməlidir. Biz müsahibəyə gedəndə qarşı tərəfə suallarımızı bu biliklərimizə güvənərək veririk, bundan müsbət mənada istifadə edirik.

Əslində, jurnalist peşəsi çox universal peşədir. Bu işə yaxşı yiyələnən insan gələcəkdə parlamentdə də seçilər bilir, dövlət qurumunda rəhbər vəzifədə də işləyə bilir. Çünki onun çoxşaxəli informasiyası vardır. Medianın güc olub-olmamasına gəldikdə isə, əlbəttə gücdür. İnsanlar başa düşür ki, jurnalistika cəmiyyətin gələcəyinin güzgüsüdür. Media olmasa həmin cəmiyyət necə inkişaf edə bilər. Həmin cəmiyyət mediasız deqradasiya olunar. Əgər bir dövlətin mediası güclüdürsə, elə o dövlətin özü də güclüdür.

*Müsahibəni qələmə aldı:*
***Anar TURAN***
***XQ***

# Türk rəssamlar Atatürk Mərkəzində



**Dünən Bakıda Atatürk Mərkəzində Azərbaycan və Türkiyə rəssamlarının sərgi-toplantısı keçirilib. Azərbaycanın 10-a yaxın və Türkiyənin 20-dən çox rəssamının sənət əsəri sərgilənib.**

Toplantı Vətən uğrunda canından keçmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsindən sonra açıq elan olundu.

Uluslararası Aktivist Sənətçilər Birliyinin (UASB) Azərbaycan və Orta Asiya təmsilçisi, rəssam Nəvai Metin bildirdi ki, belə tədbirlərin keçirilməsi mədəni əlaqələrin inkişafında böyük rol oynayır:

– Biz belə toplantıları tez-tez keçiririk. Son 2 ayda bu, 3-cü analoji tədbirimizdir. Əsas məqsədimiz dünya rəssamlarını bir-birinə yaxınlaşdırmaq, dostluq-qardaşlıq münasibətləri yaratmaqdır. Təsadüfi deyil ki, mənim dünyada yayılmış layihəmin də adı "Dünyanı sənət xilas edəcək"dir. Dünya bizim evimizdir və dünya rəssamları evimizin abadlaşmasına öz töhfələrini verməlidirlər.

"Basma Fistan Giyerim"in sədri, rəssam Günay Aral dedi ki, sənət insanları birləşdirir, dünyanın fərqli ölkələrində yaşayan adamları doğmalaşdırır:

– Nəvai Metinlə bu sərgini uğurla təşkil edə bildik. Özümüzü Azərbaycanda doğma evimizdəki kimi hiss edirik. Buradakı insanlar sayğılıdır, istiqanlıdır. Dünən Şəhidlər xiyabanını ziyarət etdik. Dilimiz, dinimiz birdir, eyni millətik. Toplantıda İstanbul, İzmir, Kıbrıs kimi fərqli bölgələrdən rəsaamlar iştirak edir. Onların bəziləri Bakıya ilk dəfə gəliblər və Azərbaycan haqqında çox müsbət fikirdədirlər.

Rəssam Nejat Orhan qeyd etdi ki, belə sərgilərə həvəslə qatılır:

– 45 ildir rəssamam. Ankarada Qazi liseyində 41 il rəsm müəllimi işləmişəm. Bakıya ilk gəlişimdir və bu şəhər düşündüyümdən də gözəlmiş.

Safiye Erdurakın da təəssüratları zəngindir:

– Rəssam müşahidə edən, sirli, sehrli təsvirlər yaradan insandır. Bakı özü də sanki sehirli bir məkandır. Şəhərdəki qədim memarlıq binaları sənətin özüdür. Azərbaycan öz mədəniyyətinə sahib çıxan, qonaqpərvər insanları olan və səliqəliliyi ilə seçilən ölkə olaraq yadımda qalacaq.

Arif Albayrak bildirdi ki, Bakıya 4-cü gəlişi olsa da, hər dəfə yeniliklər kəşf edir:

– Azərbaycanda musiqi kimi, rəsm də çox inkişaf edir. Buranın rəssamlarının yaradıcılığı, istedadı xüsusilə seçilir.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# SOSİAL XƏBƏRLƏR



## Məşğulluq monitorinqinin yekunu

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üzrə Tədbirlər Planı"nın icrasının 2024-cü il üzrə monitorinq nəticələri müzakirə edilib.**

Mərkəzin icraçı direktoru Vüsal Qasımlı məşğulluğun təminatının dayanıqlı iqtisadi inkişafın dəstəklənməsində önəmli rolunu vurğulayıb. Strategiya çərçivəsində müəyyən edilmiş əsas hədəf göstəricilərin ölkədə əmək məhsuldarlığının yüksəldilməsinə, müasir və rəqabətqabiliyyətli əmək bazarının yaradılmasına xidmət etdiyini vurğulayıb. Müasir texnoloji transformasiyalar, demoqrafik dəyişikliklər və süni intellektin əmək bazarının strukturuna təsirini qeyd edib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli Məşğulluq Strategiyasına uyğun olaraq, nazirliyin xidmətlərinin elektronlaşdırılması sahəsində son illər geniş proqramın icra olunduğunu, əmək və məşğulluq sahəsində də rəqəmsal xidmətlərin istifadəyə verildiyini, "Əmək və Məşğulluq" altsisteminin əmək bazarı iştirakçıları üçün önəmini qeyd edib. Strategiya çərçivəsində sosial rifahın artırılması və məşğulluq imkanlarının genişləndirilməsi, həssas qrupların əmək bazarına çıxışının dəstəklənməsi istiqamətində həyata keçirilən tədbirlərin ölkədə əmək bazarının dayanıqlılığını və inklüzivliyini təmin etmək məqsədi daşıdığını bildirib.

Daha sonra İİTKM-in iqtisadi təhlil şöbəsinin müdir müavini Elnur Ələkbərov strategiyanın həyata keçirilməsinə dair 2020–2025-ci illər üzrə Tədbirlər Planı çərçivəsində 2024-cü il üzrə monitorinq nəticələrini təqdim edib. Müəyyən edilmiş prioritetlərə uyğun olaraq həyata keçirilən ən mühüm layihələr, müzakirəsi vacib məsələlər diqqətə çatdırılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi və Elm və Təhsil nazirliklərinin məsul şəxsləri təqdimatdan sonra müzakirəyə çıxarılan məsələlərlə bağlı icrası davam edən və görüləcək tədbirlər barədə məlumat veriblər.

## Himayədar ailələrlə görüş

**Sosial Xidmətlər Agentliyi himayədar valideynlər və valideyn himayəsindən məhrum uşaqlarla görüş keçirib. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində keçirilən görüşdə iştirakçılarla "Himayədar ailə" qayğı modeli ilə bağlı fikir mübadiləsi aparılıb.**

Uşaqlarla davranış qaydaları, onların sosial reabilitasiyası və ailə himayəsində böyüməsinin üstünlüklərindən bəhs olunub. Ümumilikdə 14 himayədar ailənin iştirak etdiyi görüşdə qonaqların təklifləri dinlənilib. Onlara DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyəti ilə bağlı məlumatlar verilib. Mərkəzin təlimçiləri tərəfindən qonaqlar üçün dulusçuluq, floristika, xalçaçılıq, muncuqla toxuma və bədii tikmə istiqamətləri üzrə ustad dərsləri də keçirilib.

Sonda onlara agentliyin Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzinin benefisiarları tərəfindən hazırlanmış simvolik hədiyyələr təqdim edilib.

Agentlikdən bildiriblər ki, himayədar ailə institutu ilə bağlı məlumatlılıq səviyyəsinin artırılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin hazırladığı himayədar ailə fəlsəfəsini təbliğ edən poster və videoçarxlar Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin dəstəyi ilə smart tipli dayanacaq məntəqələrində və nəqliyyat mübadilə mərkəzlərində nümayiş olunur.



## Bərpa xidmətləri çoxalır

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu ilin yanvar-aprel aylarında əlilliyi olan 40,1 min şəxsi reabilitasiya xidmətləri ilə təmin edib.**

Onlardan 21 min 800-nə ambulator, 9 mininə stasionar və icma əsaslı, digərlərinə səyyar və onlayn formada, sosial-psixoloji, ippoterapiya istiqamətləri üzrə bərpa xidmətləri göstərilib.

Agentliyin reabilitasiya müəssisələrində ənənəvi üsullarla yanaşı, qabaqcıl dünya təcrübəsinə uyğun bərpa üsulları (robotik, sosial-psixoloji reabilitasiya, yoqa, hippoterapiya, rəqs terapiyası və s.) da tətbiq edilir. Ehtiyac yarandıqda stasionar və ambulator xidmətlərlə bərabər, icma əsaslı, telereabilitasiya, səyyar formalarda da bərpa xidmətləri göstərilir.

***Zərifə BƏŞİRQIZI***
***XQ***



# BVF Azərbaycanda davamlı inkişaf və əsaslı islahatları fəal dəstəkləyir

**Müasir dövrdə qlobal çağırışlar fonunda dayanıqlı iqtisadi inkişafın təmin edilməsi, dövlət idarəetməsinin təkmilləşdirilməsi və özəl sektorun inkişafı Azərbaycanın iqtisadi strategiyasının əsas prioritetlərindəndir. Bu istiqamətdə beynəlxalq təşkilatlarla, xüsusən də Beynəlxalq Valyuta Fondu (BVF) ilə əməkdaşlıq mühüm rol oynayır.**




Azərbaycan ilə BVF arasında münasibətlər hələ 1992-ci ildən etibarən formalaşmağa başlayıb. Son illərdə bu əməkdaşlıq daha çox texniki dəstək və məsləhətçi xidmətləri istiqamətində inkişaf edib. BVF ölkəmizdə fiskal dayanıqlığın gücləndirilməsi, büdcə siyasətinin effektivləşdirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi və dövlət borcunun idarə olunması sahələrində mütəmadi olaraq tövsiyələr verir. Eyni zamanda, adıçəkilən fond tərəfindən Azərbaycanın makroiqtisadi sabitliyi yüksək qiymətləndirilir və ölkənin enerji sektorundan kənarda da iqtisadi artım imkanları vurğulanır.

Azərbaycanın uzunmüddətli iqtisadi strategiyası "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində müəyyən olunub və əsas hədəflərdən biri iqtisadiyyatın şaxələndirilməsidir. Neft gəlirlərindən asılılığın azaldılması üçün kənd təsərrüfatı, informasiya texnologiyaları, turizm, logistika və sənaye sahələri üzrə aparılan islahatlar xüsusilə diqqət çəkir.

Dövlət tərəfindən sənaye zonalarının və aqroparkların yaradılması, eyni zamanda, vergi və gömrük güzəştlərinin tətbiqi yerli və xarici investorların cəlb olunmasına böyük töhfə verir. 2024-cü ildə qeyri-neft sektorunda ÜDM-in artım tempi ümumi iqtisadi artımı üstələyib ki, bu da struktur islahatlarının uğurunu əks etdirir.

İqlim dəyişikliyi ilə mübarizə və ekoloji davamlılıq Azərbaycanın iqtisadi inkişaf modelində əsas istiqamətlərdən birinə çevrilib. COP29 konfransının Bakıda keçirilməsi qərarı da ölkənin bu sahədə qlobal liderlik ambisiyalarını gücləndirir.

"Yaşıl enerji zonaları" konsepsiyası çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda bərpa olunan enerji layihələri – Günəş və külək elektrik stansiyalarının tikintisi artıq başlanılıb. 2030-cu ilə qədər enerji istehsalında bərpa olunan mənbələrin payının 30 faizə çatdırılması hədəflənir. Bununla yanaşı, elektrikli nəqliyyat vasitələrinin təşviqi, şəhər infrastrukturunda enerji səmərəliliyi tədbirləri və "yaşıl" maliyyə alətlərinin tətbiqi gündəmdədir.

İqtisadiyyatın səmərəliliyinin artırılması baxımından dövlət müəssisələrinin restrukturizasiyası prioritet məsələdir. Azərbaycan İnvestisiya Holdinqinin yaradılması bu sahədə mühüm institusional addımdır. Holdinqə daxil olan müəssisələrdə korporativ idarəetmə standartlarının tətbiqi, şəffaflıq və hesabatlılıq prinsiplərinin gücləndirilməsi sayəsində maliyyə intizamı yüksəlir.

Dövlət mülkiyyətində olan müəssisələrin kommersiyalaşdırılması və bir qisminin özəlləşdirilməyə hazırlanması həm dövlət büdcəsinə əlavə gəlirlər gətirəcək, həm də rəqabətli iqtisadi mühitin formalaşmasına xidmət edəcək.

Rəqəmsal hökumət və ictimai xidmətlərin avtomatlaşdırılması sahəsində atılan addımlar dövlət idarəetməsinin səmərəliliyini artırır. "ASAN xidmət" və "myGov" kimi platformalar vasitəsilə vətəndaş-məmur təmasını minimuma endirən yanaşmalar korrupsiyaya qarşı mübarizədə səmərəli vasitəyə çevrilib.

İctimai maliyyə sistemində rəqəmsallaşma, o cümlədən e-büdcə və xərclərin izlənməsi sistemləri dövlət vəsaitlərinin daha şəffaf və məqsədyönlü istifadə olunmasına şərait yaradır.

Kiçik və orta sahibkarlığın inkişafı üçün maliyyə resurslarına çıxış imkanlarının artırılması da əsas hədəflərdəndir. Sahibkarlığın İnkişafı Fondu, Aqrar Kredit və İnkişaf Agentliyi və digər qurumlar tərəfindən subsidiyalı kreditlər, zəmanət mexanizmləri və texniki dəstək vasitələri tətbiq olunur.

Bununla yanaşı, kapital bazarlarının inkişafı və "yaşıl" istiqraz kimi yeni maliyyə alətlərinin təşviqi sahibkarların alternativ maliyyələşmə imkanlarını genişləndirir. Bank sektorunda isə risk əsaslı yanaşmaların tətbiqi və kreditlərin qiymətləndirilməsində şəffaflığın artırılması maliyyə inklüzivliyini gücləndirir.

Azərbaycan iqtisadiyyatının mövcud transformasiya mərhələsi kompleks və çoxşaxəli islahatlarla müşayiət olunur. BVF ilə əməkdaşlıq bu prosesdə beynəlxalq təcrübənin tətbiqini gerçəkləşdirir. İqtisadiyyatın şaxələndirilməsi, "yaşıl" inkişaf, dövlət idarəçiliyinin təkmilləşdirilməsi və özəl sektorun maliyyə resurslarına çıxışının genişləndirilməsi ölkənin orta və uzunmüddətli inkişafının təminatçısı kimi çıxış edir. Bu yanaşmalar Azərbaycana dayanıqlı və inklüziv iqtisadi model qurmaq imkanı verir.

Yeri gəlmişkən, BVF Azərbaycandakı missiyasının rəhbəri Anna Rouz Bordon ölkə mediasına müsahibəsində 2023-cü ildəki yavaşlamadan sonra Azərbaycanın real ÜDM-inin 2024-cü ildə 1,4 faizdən 4,1 faizə qədər artdığını bildirib. O, bu artımın əsasən qeyri-neft sektorunun fəal inkişafı hesabına təmin olunduğunu, ötən ilin ikinci yarısınd inflyasiyanın artmağa başladığını, bunun isə tənzimlənən qiymətlərin düzəldilməsindən irəli gəldiyini və nəhayət, ilin sonuna 4,9 faizə çatdığını vurğulayıb. A.R.Bordon orta müddətli dövrdə iqtisadi artımın potensial imkanlara uyğun olaraq, təxminən, 2,5 faiz səviyyəsində olacağının gözlənildiyini də diqqətə çatdırıb. Eyni zamanda, BVF dünya bazarlarında ərzaq və enerji qiymətlərinin sabit qalacağı təqdirdə inflyasiyanən Azərbaycan Mərkəzi Bankının 4±2 faiz hədəf intervalında qalacağını proqnozlaşdırıb.

Missiya rəhbəri BVF ilə Azərbaycan arasında əməkdaşlığın əsas prioritet istiqamətlərinə də toxunaraq IV maddə, SMP və ya EFF çərçivəsində yeni əməkdaşlıq və ya monitorinq proqramı barədə də fikirlərini diqqətə çatdırıb: "Bu ilin mart ayında BVF IV maddə üzrə məsləhətləşmə missiyasını yekunlaşdırıb. Bu məsləhətləşmələr zamanı fiskal konsolidasiya zərurəti, pul-kredit siyasətinin təkmilləşdirilməsi və iqtisadiyyatın şaxələndirilməsi, davamlı artımın təmin edilməsi məqsədilə struktur islahatlarının aparılması xüsusi vurğulanıb.

Məsləhətləşmə missiyasından əlavə, BVF Azərbaycan hakimiyyətinə daimi əsasda texniki yardım göstərir. Bu dəstək dövlət maliyyəsinin idarə olunmasının səmərəliliyinin artırılması, gəlirlərin idarə olunmasının təkmilləşdirilməsi, pul-kredit siyasəti çərçivəsinin gücləndirilməsi və maliyyə sektorunun dayanıqlılığının artırılmasını əhatə edir. Xüsusilə qeyd olunur ki, Azərbaycan BVF-nin kredit proqramına ehtiyac duymur, çünki ölkənin kifayət qədər maliyyə ehtiyatları mövcuddur".

"BVF üçün Azərbaycanın iqtisadiyyatının rəqəmsallaşdırılması nə dərəcədə vacibdir və siz hansı konkret təşəbbüsləri dəstəkləyirsiniz?" sualına cavabında isə A.R.Bordon rəqəmsallaşdırmanın institusional bazanın möhkəmləndirilməsi üçün əsas alət hesab olunduğunu, bu maliyyə qurumunun vergi inzibatçılığı və dövlət satınalmaları kimi sahələrdə rəqəmsal həllərin genişləndirilməsini tövsiyə etdiyini, eyni zamanda, bunun təsadüfi olmadığını, fiskal şəffaflığın artırılmasını şərtləndirdiyini vurğulayıb. Eyni zamanda, mütəxəssis açıq bankçılıq və fintex təşəbbüsləri kimi rəqəmsal maliyyə xidmətlərinin inkişafını da vacib istiqamət kimi qiymətləndirib.

# Ölkəmiz dünyada ekosistemin zənginliyi ilə seçilir

## *Bu bioloji sərvət təhlükə ilə də üzləşib*



**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı nümayəndəsi Nasar Hayat beynəlxalq biomüxtəlifliyə həsr olunan mərasimlə bağlı müraciətində Azərbaycanın dünyanın bioloji baxımdan ən zəngin, eyni zamanda, ən çox təhlükə ilə üzləşən ekosistemlərindən biri sayılan Qafqaz ekoloji regionunun bir hissəsi olduğunu bildirib.**

BMT-nin rəsmisi qlobal əhəmiyyətə malik buğda, arpa, kartof və tərəvəz kimi ərzaq məhsullarının becərilən məkanı olmaqla bərabər, həm də bənzərsiz ekoloji müxtəlifliyi ilə tanınan Azərbaycanı regionun ən biomüxtəlif ölkələrindən biri kimi dəyərləndirib. Nasar Hayat daha sonra deyib: "Azərbaycanın təbiəti uca dağlardan tutmuş düzənliklərə, çaylara, bataqlıqlara, göllərə və Xəzər dənizinin 800 kilometrlik sahilinə qədər uzanır. Bu müxtəlif landşaftlar rütubətli subtropik zonalardan quru subtropik zonalara və mülayim iqlimlərə qədər bir sıra mikroiqlim və yaşayış mühitini dəstəkləyir. Bu kompleks ekosistem mozaikası Azərbaycanın zəngin təbii irsinin əsasını təşkil edir.

Lakin bu təbii irs artan təzyiqlərlə üz-üzədir. Davamlı olmayan torpaq istifadə üsulları, infrastruktur layihələri, qanunsuz ov və balıqçılıq, çirklənmə, meşə yanğınları, invaziv növlər və iqlim dəyişikliyi ekosistemlərin deqradasiyasına və növlərin itirilməsinə səbəb olur. Azərbaycanda biomüxtəlifliyin azalması yalnız təbiətin qorunması ilə bağlı deyil, həm də ölkənin dayanıqlı inkişafı, ərzaq təhlükəsizliyi və iqlimə davamlılığı baxımından ciddi çağırışdır".

BMT-nin respublikamızdakı nümayəndəsi əlavə edib ki, Azərbaycanda biomüxtəlifliyin itirilməsinə qarşı cavab tədbirlərindən biri mühafizə olunan ərazilərin genişləndirilməsidir. Hazırda ölkənin, təxminən, 10,3 faizini əhatə edən geniş mühafizə olunan ərazi şəbəkəsi mövcuddur. Bu şəbəkəyə 10 milli park, 10 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı daxildir ki, hər biri unikal növlərin və ekosistemlərin qorunmasında mühüm rol oynayır. Mühafizə olunan ərazilər şəbəkəsi daxilində biomüxtəlifliyin həm zənginliyini, həm də qorunma çətinliklərini nümayiş etdirən iki nümunəvi ərazi isə Şirvan və Hirkan milli parklarıdır.

N.Hayat, eyni zamanda, bildirib ki, mühafizə olunan ərazilər hələ də xarici təzyiqlər, institusional resursların məhdudluğu və idarəetmə çağırışları ilə üzləşir. Bunu nəzərə alaraq, Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı tərəfindən "Biomüxtəlifliyin mühafizəsi və davamlı istifadəsi: İdarəetmənin təkmilləşdirilməsi yolu ilə Azərbaycanın xüsusi mühafizə olunan ərazilər sisteminin gücləndirilməsi" adlı layihə həyata keçirilir".

Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının rəsmisi deyib ki, Qlobal Ətraf Mühit Fondu tərəfindən maliyyələşdirilən bu layihənin məqsədi mühafizə olunan ərazilərin səmərəliliyini artırmaq və biomüxtəlifliyi qorumaq üçün landşaft yanaşmasını tətbiq etməkdir. Bu inteqrasiya olunmuş və çoxsektorlu yanaşma yalnız mühafizə olunan ərazilərin daxilində deyil, həm də onların ətrafındakı ekoloji deqradasiyanın səbəblərini aradan qaldırmağa yönəlib. Layihə müxtəlif səviyyələrdə tərəfdaşları bir araya gətirərək ekosistemlərdə, o cümlədən ətraf icmalarda və bufer zonalarında təbiətin qorunmasını dəstəkləyir.

# Paytaxtda şənbə-bazar günləri yarmarkası

## *Sakinlərə 150 növ kənd məhsulu təqdim ediləcək*

**Mayın 24–25-də Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" Açıq Səhmdar Cəmiyyətinin təşkilatçılığı ilə paytaxtda "Kənddən şəhərə" həftəsonu yarmarkası keçiriləcək. Yarmarkanın təşkilində əsas məqsəd yerli fermerlərin məhsullarının bazara çıxışını dəstəkləmək, onları alternativ satış nöqtələri ilə təmin etmək, eyni zamanda, şəhər sakinlərinin təbii, yerli və sağlam kənd məhsullarına əlçatanlığını artırmaqdır.**

Kənd Təsərrüfatı Nazirliyinin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən XQ-yə verilən məlumata görə, yarmarkada 20-yə yaxın regiondan olan 50 fermer 150-yə qədər çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcək. "Kənddən şəhərə" yarmarkalarında fermerlər piştaxta, tərəzi və digər lazımi avadanlıqlarla ödənişsiz şəkildə təmin edilirlər.




Burada satışa çıxarılacaq məhsulların keyfiyyətinə isə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Belə ki, məhsulların keyfiyyəti ilə bağlı hər hansı bir sual yaranacağı təqdirdə vətəndaşlar yarmarkada fəaliyyət göstərən səyyar qida laboratoriyasına yaxınlaşaraq məhsuldan analiz verə bilərlər.

Qeyd edək ki, yarmarka 2 gün müddətində saat 9:00-dan 19:00-dək Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (metronun "Gənclik" stansiyasının yanı) ünvanında təşkil olunacaq.

# Qarabağ və Şərqi Zəngəzur nur içindədir

## Bölgə fasiləsiz elektrik enerjisi alır

**"Azərişıq" ASC-nin Tədris və İnnovasiyalar Mərkəzinin direktoru Araz Məmmədzadə jurnalistlərə açıqlamasında təmsil etdiyi qurumun qarşısında duran əsas məqsədin işğaldan azad edilmiş əraziləri qısa müddətdə keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təmin etmək olduğunu bildirib. Onun sözlərinə görə, ASC-nin innovasiya texnologiyalarının, xüsusilə "smart texnologiyalar"ın tətbiqi üzrə türkdilli dövlətlərə bir neçə səfəri təşkil olunub, onlarla təcrübə mübadiləsi keçirilib.**

Araz Məmmədzadə qeyd edib ki, türk energetiklər "yaşıl" texnologiyaların tətbiqi üzrə təcrübə mübadiləsinin həyata keçirilməsini istəyiblər. "Azərişıq" ASC isə, öz növbəsində, türkdilli dövlətlərin nümayəndə heyətlərini Azərbaycana səfərə dəvət edib. Onların yaxın aylarda Azərbaycana səfəri gözlənilir. Türkdilli ölkələri Qarabağda elektroenergetika sahəsində aparılan genişmiqyaslı islahatlar maraqlandırır.



"Azərişıq" ASC-nin rəsmisi bildirib ki, Qarabağ və Şərqi Zəngəzur çox qısa müddətdə sıfır karbon emissiyası olan regiona çevriləcək. Bu gün səhmdar cəmiyyətinin işğaldan azad edilmiş ərazilərdə yerləşən bütün yarımstansiyalarının damında günəş panelləri mövcuddur. Eyni zamanda, Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzinin və Təlim Tədris Kompleksinin damında 5 kilovata yaxın gücdə günəş panelləri quraşdırılıb. Demək olar ki, Qarabağ və Şərqi Zəngəzurun bütün hissələrində "yaşıl" texnologiyalardan istifadə olunur. "Azərişıq" COP29-da elan edib ki, Qarabağ və Şərqi Zəngəzur 100 faiz "yaşıl" enerji ilə təmin ediləcək.

Araz Məmmədzadənin sözlərinə görə, Azərbaycan regionun həm "yaşıl" enerji mənbələrinin sayı, həm də enerji dayanıqlılığı baxımından lider ölkədir. Gələcəkdə gözlənilən enerji defisitinin qarşısını almaq üçün region dövlətləri Azərbaycanla enerji münasibətlərini yaxşılaşdırmağa çalışırlar. Məlum olduğu kimi, Naxçıvan "yaşıl" enerji zonası elan olunub. Orada "yaşıl" enerji mənbələrinin sayının artırılması nəzərdə tutulub. Avropaya "yaşıl" enerjinin ötürülməsində qardaş Türkiyə önəmli rol oynayır. Bu mənada iranlı həmkarların Araz çayı üzərindəki bəndlər vasitəsilə ekoloji təmiz enerji əldə etməklə bağlı fikirləri heç də təəccüblü deyil. Düşünürəm ki, Azərbaycan qonşu ölkələrdən "yaşıl" enerji ilə bağlı daha çox təklif alacaq.

# Bağbanlarımız Dağıstanda zeytunluq salacaqlar



**İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Yevlax Pilot Aqroparkın rezidenti "İsfa" Məhdud Məsuliyyətli Cəmiyyət ilə Dağıstan Respublikasının İxraca Dəstək Mərkəzi arasında əməkdaşlıq memorandumu imzalanıb.**

Sənədi "İsfa" MMC-nin direktoru Samir Xeyirbəyov və Dağıstan Respublikasının İxraca Dəstək Mərkəzinin rəhbəri Ruslan Abasquliyev imzalayıblar. Razılaşmaya əsasən birinci mərhələdə "İsfa" MMC tərəfindən Dağıstan Respublikasının Dərbənd rayonunda cari ilin payızında 100 hektarlıq ərazidə zeytun bağı salınacaq. Bağın salınmasında Yevlax Pilot Aqroparkda yetişdirilən, ümumilikdə, 165 min ədəd tingdən istifadə olunacaq. Bununla yanaşı, bağın suvarma sisteminin qurulması da "İsfa" MMC tərəfindən həyata keçiriləcək.

İkinci mərhələdə isə günlük istehsal gücü 100 ton olacaq zeytun yağı emalı zavodunun qurulması nəzərdə tutulur. Ümumilikdə isə, Azərbaycan şirkəti Dərbənddə reallaşdıracağı layihəyə 7 milyon manata yaxın investisiya yönəldəcək.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Akademik elmin yeni nəsli

*İsa HƏBİBBƏYLİ,*
*AMEA-nın prezidenti, akademik*

**Azərbaycan Milli Elmlər Akademiyasının müasir dövrdəki yeniləşmə və islahatlar mərhələsinin inkişafında Akademiyanın vitse-prezidenti, akademik İradə Hüseynovanın özünəməxsus mühüm xidmətləri vardır. Akademiyada müasir idarəetmənin təmin olunmasında və islahatların həyata keçirilməsində İradə Hüseynova alim-təşkilatçı və tədqiqatçı kimi fəal iştirak edir. O, yüksək təşkilatçılıq qabiliyyəti və ictimai fəaliyyəti, geniş tədqiqatçılıq imkanları ilə səciyyələnir.**



İxtisasca kimyaçı-bioloq olan akademik İradə Hüseynova elmi mühitdə özünü molekulyar biologiya sahəsindəki yenilikləri və xidmətləri ilə isbat etmişdir. Azərbaycan Dövlət Universitetini kimya ixtisası üzrə bitirmiş, taleyini elmi tədqiqatçılıq fəaliyyətinə həsr etmiş, bu sahədə bütün enerjisi ilə səmərəli fəaliyyət göstərmişdir. Tərkibində biokimya elminin də yeri olan molekulyar biologiya istiqamətində apardığı səmərəli araşdırmalar və əldə etdiyi mühüm elmi nəticələr onu bu sahə üzrə ciddi tədqiqatçılardan biri kimi tanıtmışdır.

İradə Hüseynova görkəmli elm xadimi, akademik Cəlal Əliyevin yaratdığı seleksiya və genetika məktəbinin aparıcı simalarından və əsas təmsilçilərindən biri kimi qəbul olunur. O, Azərbaycanda yeni buğda sortları yaradılmasının biokimyəvi və mikrobioloji əsaslarını işləyib hazırlamışdır. Böyük müvəffəqiyyətlə 1994-cü ildə AMEA Botanika İnstitutunun Dissertasiya Şurasında “Buğda xloroplazlarının tilokoid membranının piqment-zülal komplekslərinin formalaşmasının genetik tənzimləndirilməsi” mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyası onu molekulyar biologiya sahəsində yeni elmi istiqamət açan cavan tədqiqatçıların sıralarına çıxarmışdır. Dissertasiyaya və avtoreferata alınan rəylərdə, rəsmi opponentlərin rəylərində müdafiəyə çıxarılan dissertasiya işinin mövzusu etibarilə elmdə tam yeni olub, geniş mənada biologiya elminə mühüm yeniliklər gətirən tədqiqat kimi qiymətləndirilmişdir. Burası da xüsusilə cəlbedici olmuşdur ki, İradə Hüseynova dissertasiyasında Azərbaycan şəraitində yeni buğda sortlarının alınması üçün nəzəri və praktiki cəhətdən əsaslandırılmış təkliflər paketi hazırlamaqla bərabər, həm də fəlsəfə doktorluğu müddətində az təsadüf olunan fərqli buğda sortu alıb, Azərbaycanın buğda növlərinin seleksiyası salnaməsini zənginləşdirməyi bacarmışdır. Bütün bunlara görə, elmi rəhbəri akademik Cəlal Əliyev cavan tədqiqatçı İradə Hüseynovanın timsalında molekulyar biologiya elminə bu sahəni irəli apara biləcək yeni nəslin istedadlı bir nümayəndəsinin gəldiyini görmüş və dərhal, ardıcıl surətdə onun doktorluq dissertasiyası mövzusu götürərək, elmi axtarışlarını davam etdirməsinə meydan açmışdır.

Ümumiyyətlə, məsuliyyətli və özünə qarşı tələbkar olan İradə Hüseynova Cəlal müəllim kimi dünya şöhrətli və çox tələbkar bir elm xadiminin ona göstərdiyi böyük etimada özünün gecəli-gündüzlü, yorulmaq bilmədən apardığı elmi axtarışlar, üzərində çalışdığı eksperimental müddəaların uğurla sınaqdan çıxarılması ilə əməli olaraq cavab vermişdir. Bu dəfə “Buğdanın fotosintetik membranının piqment-zülal komplekslərinin formalaşması və yığılmasını molekulyar-genetik mexanizmləri” mövzusunda doktorluq dissertasiyası ətrafında aparılan sistemli tədqiqatlar daha sanballı elmi nəticələrin əldə olunmasına gətirib çıxarmışdır. Əvvəla, İradə Hüseynova akademik Cəlal Əliyevin Azərbaycan elminə gətirdiyi fotosintez hadisəsinin işığında bir çox elmi müddəaları ilk dəfə olaraq nəzəri cəhətdən irəli sürdü və ikincisi isə, Azərbaycanın Aran bölgəsində qoyduğu eksperimentlərlə praktiki olaraq əldə etdiyi mühüm elmi nəticələr əsasında təsdiq etdi. İradə Hüseynovanın tədqiqatları sayəsində yeni buğda sortları kolleksiyası yarandı və tətbiq olunmağa başladı. Beləliklə, o hələ elmlər doktorluğu diplomu olmamışdan əvvəl yaratdığı buğda sortlarının əkilib-becərilməsini təşkil edərək, aldığı yeni sortların məhsuldarlıq cəhətdən də səmərəli olduğunu isbat etmişdir. Bu isə konkret olaraq o demək idi ki, molekulyar biologiya elmi sahəsində yeni nəzəri fərziyyələri elmi cəhətdən dərk və şərh etməyin öhdəsindən layiqincə gələn İradə Hüseynova artıq cavan yaşlarından başlayaraq Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyinin təmin olunmasında iştirak etmiş və buna özünün töhfələrini vermişdir. Beləliklə, İradə Hüseynovanın 2004-cü ildə, 39 yaşında “Buğdanın fotosintetik membranının piqment-zülal komplekslərinin formalaşması və yığılmasının molekulyar-genetik mexanizmləri” mövzusunda böyük uğurla müdafiə etdiyi doktorluq dissertasiyası molekulyar biologiya sahəsində yeni elmi hadisə kimi qəbul olunmuşdur. Praktiki tərəfi ilə bir yerdə alimin dünyanın molekulyar biologiya sahəsində ən nüfuzlu elmi jurnallarında çap olunan məqalələri nəinki onun müəllifinə, sözün gerçək mənasında, Azərbaycan biologiya elminə inam və ehtiram qazandırmışdır. Biologiya elmləri doktoru İradə Hüseynova ölkəmizdə molekulyar biologiya sahəsində ciddi elmi nəticələri olan alim kimi qəbul edilmiş, Azərbaycandan kənarlarda da bu sahəni təmsil edən tədqiqatçı olaraq tanınmışdır.



Akademik İradə Hüseynovanın elmə gətirdiyi əsas yeniliklər ilk növbədə Azərbaycan və dünya biologiya elmi üçün yeni olan ali bitkilərin fotosintetik üsullarla sintez edilməsi əsasında piqment-zülal komplekslərinin genetik xüsusiyyətlərinin araşdırılıb öyrənilməsindən və tətbiq edilməsindən ibarət olmuşdur. Bu isə tədqiqatçıdan mövzu ilə əlaqədar dünya təcrübəsini öyrənməklə bərabər, daha çox Azərbaycan florasının yerli şəraitini, torpaq strukturunu, iqlim xüsusiyyətlərini, su ehtiyatlarını da tədqiq edib araşdırmağı tələb edirdi. İradə Hüseynova fəlsəfə doktorluğu və elmlər doktorluğu dissertasiyasının əhatə etdiyi problemləri öyrənib işləyərkən kompleks tədqiqatlar aparmaq təcrübəsinə yiyələnmiş, elm sahələriarası araşdırmalar aparmaqla ölkəmiz üçün əhəmiyyətli olan elmi nəticələrin alınmasına nail ola bilmişdir.

Akademik İradə Hüseynovanın axtarışları sayəsində rəqəmsal fenotipləmə texnologiyasından istifadə etməklə bitkilərin fizoloji vəziyyəti qeyri-invaziv olaraq qiymətləndirilmişdir. RNAseq metodu ilə stresə davamlı və həssas buğda genotiplərində quraqlıq və istilik stresləri ilə induksiya olunan transkriptom analizləri akademik İradə Hüseynova həyata keçirmişdir. Onun səyləri nəticəsində yabanı və mədəni paxlalı bitkilərdə elm üçün yeni nanovirus identifikasiya edilmiş və onun tam genomu alınmışdır. Dünya elmində ilk dəfə olaraq fitoplazmalar üçün növlərarası rekombinasiya da İradə Hüseynova tərəfindən müəyyən edilmiş, “Reptalus noahi” həşərat növünün “Candidatus Phytoplazma solani” fitoplazmasını yayması aşkar olunmuşdur.

**B**undan başqa, İradə Hüseynova ali bitkilərin molekulyar-genetik xüsusiyyətlərini də öyrənərkən dünya elmində özünəqədərki modelləri qətiyyən təkrar etməməklə, apardığı tədqiqatların və təcrübələrin daxili məntiqindən və reallıqlarından doğan nəzəri qənaətlərə gəlmişdir. Buna görə də İradə Hüseynovanın tədqiqatları təkcə praktik tərəfi, yəni yeni buğda sortlarının alınması ilə deyil, həm də həmin buğda sortlarının kimyəvi-bioloji xüsusiyyətlərinin nəzəri cəhətdən kəşf edilməsi ilə də səciyyələnir. O, molekulyar biologiya elmi sahəsində nəzəri tərəfi ağır gələn seleksiyaçı-genetik kimi qəbul olunur. Buna görədir ki, akademik İradə Hüseynova tədqiqatlarının əhatə dairəsi geniş olan, molekulyar biologiya ilə yanaşı, seleksiya, genetika, biokimya, torpaqşünaslıq, iqlimşünaslıq kimi elm sahələrini özündə cəmləşdirən görkəmli alim kimi tanınır. Sözün həqiqi mənasında, akademik İradə Hüseynova geniş elmi dünyagörüşə malik kompleks tədqiqatlar müəllifi kimi özünəməxsus böyük nüfuz qazanmışdır.

O öz tədqiqatları əsasında gəldiyi mühüm elmi nəticələrin həm araşdırma metodologiyasını, həm də tətbiq mexanizmlərini işləyib hazırlamışdır. Bu isə öz növbəsində alimin elmi ideyalarının davamlılığını təmin etmiş, tətbiq imkanlarını artırmışdır. İradə Hüseynova, həmçinin, aldığı buğda sortları əsasında gəldiyi nəticələrin, irəli sürdüyü



təkliflərin biotik stresslərə və risklərə dözümlülüyünü də müəyyən etməklə tədqiqatlarının dayanıqlığını təmin etmişdir. Təsadüfi deyil ki, hazırda Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik İnstitutunun tətbiq və təklif etdiyi ali bitkilər sırasında İradə Hüseynovaya məxsus yeni sortlar dayanıqlı və əhəmiyyətli olması ilə seçilir. Ölkəmizin elmi ictimaiyyəti və bu sahədən olan dünya alimləri akademikin elmi xidmətlərini yüksək qiymətləndirirlər. İradə Hüseynovanın adı molekulyar biologiya istiqamətində əsərlərinə ən çox istinadlar edilən alimlər sırasındandır.



Əmək fəaliyyəti bütünlüklə Azərbaycan Milli Elmlər Akademiyası ilə bağlı olan İradə Hüseynova 1987-ci ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra Milli Elmlər Akademiyası Botanika İnstitutunun aspiranturasında molekulyar biologiya ixtisası üzrə təhsilini davam etdirmişdir. O, 1991-ci ildə AMEA Botanika İnstitutunun “Məhsuldarlığın fundamental problemləri” şöbəsində kiçik elmi işçi kimi fəaliyyətə başlamış, burada laboratoriya müdiri vəzifəsinə qədər şərəfli yol keçmişdir. İradə Hüseynova molekulyar biologiya üzrə 2009-cu ildə professor elmi adını alan ən cavan alimlərdən biri olmuşdur. Elmi əsərləri ilə ölkəmizdə və kənarda tanınaraq, 2007-ci ildə AMEA-nın müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilmişdir. 49 yaşında ikən Milli Elmlər Akademiyasının akademiki elmi rütbəsinə layiq görülmüş İradə Hüseynova bu yüksək elmi rütbənin tələblərinə layiqli səviyyədə cavab verən Azərbaycan alimi kimi özünü təsdiq etmişdir. Avropanın “Şpringer” kimi nüfuzlu nəşriyyatında, yüksək beynəlxalq reytinqə malik olan “Skopus” şəbəkəsinə daxil olan jurnallarda çap olunan elmi əsərləri Azərbaycan molekulyar biologiya elminin mühüm elmi nailiyyətləri sırasındadır.

İradə Hüseynova həm də bacarıqlı elm təşkilatçısıdır. Görkəmli elm xadimi 2016-cı ildən AMEA-nın tərkibində təsis edilən Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun yaradıcısıdır. O, ölkə üçün yeni olan bu elmi istiqamətdə müstəqil bir elmi tədqiqat institutunun elmi-təşkilati əsaslarını işləmişdir. Hazırda akademikin uğurla rəhbərlik etdiyi bu institut Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tərkibindədir, tanınmış elmi mərkəzlərdən biri sayılır. Bu elm ocağı tədqiqat institutu ölkə üzrə molekulyar biologiya üzrə tədqiqatları təşkil etmək və əlaqələndirməklə yanaşı, bir neçə mühüm istiqamətdə beynəlxalq laboratoriyalar quraraq, həmin elmi tədqiqat laboratoriyalarının normal fəaliyyətini təmin edərək, beynəlxalq elmi əməkdaşlığa da mühüm töhfələr verməkdə davam edir. Yeni nəsil elmi kadrların hazırlanmasında da akademik İradə Hüseynovanın rəhbərlik etdiyi Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun mühüm nəticələri vardır. Hazırda institutun gənc doktorant və dissertantları Oksford, Kembric Universitetləri kimi çox nüfuzlu ali təhsil və elmi ocaqlarında doktorantura təhsillərini davam etdirir və ya stajor kimi ixtisaslarını artırırlar.

Akademik İradə Hüseynova 2018-ci ildən etibarən Azərbaycan Milli Akademiyasının vitse-prezidenti kimi də müstəqil dövlətimizdə elmin inkişafı yollarında yorulmadan çalışmaqdadır. O, yorulmaz elmi-təşkilati fəaliyyəti ilə respublika üzrə biologiya, tibb və aqrar elmlər sahəsində elmi tədqiqatların təşkili, əlaqələndirilməsi, istiqamətləndirilməsi, mühüm elmi nəticələrin ümumiləşdirilməsi, ölkə əhəmiyyətli təkliflərin hazırlanması və həyata keçirilməsi işinə bütün qüvvə və bacarıqlarını sərf edir. Akademik İradə Hüseynova AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinə və həmin Bölmənin Elmi Şurasına uğurla rəhbərlik etməklə, ölkə üzrə bu istiqamətdə bacarıqlı bir koordinator funksiyasını da məqsədyönlü şəkildə həyata keçirir. Uzun illər Biologiya və Tibb elmləri üzrə Problem Şuraya rəhbərlik etmiş akademik İradə Hüseynova müxtəlif elmi tədqiqat institutlarında və ali təhsil müəssisələrində doktorant və ya dissertant kimi fəaliyyətə başlamış gənc nəslin elmi istiqamətlərinin, tədqiqat problemlərinin, dissertasiya mövzularının dünya elmində gedən proseslərlə, ölkəmizin inkişaf strategiyasına və milli prioritetlərinə uyğun şəkildə qurulmasının sistemini yaratmış və icra etmişdir.

**G**örkəmli alimin baş redaktoru olduğu “Həyat elmləri və Biotibb” jurnalı ixtisas üzrə ölkəmizdə əsas elmi nəşrdir, beynəlxalq elmi mühitdə isə tanınan jurnal kimi nüfuz qazanmışdır. O, Molekulyar Biologiya və Biotexnologiyalar ixtisasları üzrə Dissertasiya Şurasına da bacarıqla rəhbərlik edir. Azərbaycan Respublikasının “Qırmızı kitabı”nın üçüncü nəşrinin yüksək elmi səviyyədə hazırlanması akademik İradə Hüseynovanın rəhbərliyi ilə həyata keçirilmişdir.

Akademik İradə Hüseynova UNESCO-nun Bioetika, Elmi Biliklərin və Texnologiyaların Etikası üzrə Azərbaycan Milli Komitəsinin sədr müavini olaraq təbiət elmi sahəsində ölkəmizdə qazanılmış nailiyyətlərin beynəlxalq aləmə çıxarılması, inteqrasiya olunması üçün əhəmiyyətli addımlar atır. O, Azərbaycan Milli Elmlər Akademiyasının “Məruzələr”, “Elm və həyat” jurnallarının redaksiya heyətlərinin üzvü kimi də elmin inkişafına öz töhfələrini verir.

Hazırkı şəraitdə akademik İradə Hüseynova 2021-ci ildə yaradılmış və işğaldan azad edilmiş ərazilərdə mövcud problemlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üzrə Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi Qrupunun üzvü kimi regionda elmi tədqiqatların bərpası və gücləndirilməsinə, tədbirlərin təşkil edilməsinə də məsuliyyətlə xidmət edir. O, dəfələrlə Qarabağda və Şərqi Zəngəzurda keçirilən tədbirlərdə məruzələrlə çıxış etmiş, təkliflər irəli sürmüşdür. Milli Elmlər Akademiyası və Elm və Təhsil Nazirliyinin elmi-tədqiqat institutlarında aparılan tədqiqatların Qarabağda və Şərqi Zəngəzurda gedən proseslərlə əlaqələndirilməsi məsələləri də akademik İradə Hüseynovanın gündəlik işində mühüm yer tutur.

**A**kademik İradə Hüseynova 15-dən çox beynəlxalq və ölkə tədbirinin, o cümlədən, ulu öndər Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın 100 illik yubileylərinə, COVİD19-a və Qarabağa elmin “Böyük Qayıdışı”na həsr edilmiş elmi konfransların işinə rəhbərlik etmiş, Beynəlxalq Fotosintez Cəmiyyətinin bir neçə konfransının məsul katibi və təşkilat komitəsinin üzvü olmuşdur.

Azərbaycan alimi Fotosintez Tədqiqatları üzrə Beynəlxalq Cəmiyyətin, Avropa Biokimyaçılar və Molekulyar Bioloqlar Cəmiyyətinin (FEBS), Avropa Bitki Bioloqları Cəmiyyətinin (FESPB), Azərbaycan Biokimyaçılar və Molekulyar Bioloqlar Cəmiyyətinin Rəyasət Heyətinin, Azərbaycan Botanika və Bitki Fizioloqları cəmiyyətlərinin üzvü kimi beynəlxalq elmi qurumlarda ölkəmizi layiqincə təmsil edir.

Aydın siyasi mövqeyə malik olan akademik İradə Hüseynova elmi fəaliyyətlə dövlətçilik təfəkkürünün, azərbaycançılıq ideyasının vəhdətini özündə cəmləşdirən görkəmli elm xadimi kimi respublikamızın ictimai həyatında da yaxından iştirak edir. Azərbaycan cəmiyyəti onu ölkəmizdə qadın hərəkatının fəal üzvlərindən biri kimi tanıyır. O, Azərbaycan Milli Elmlər Akademiyası Alim Qadınlar Cəmiyyətinin işinin yüksək səviyyədə qurulması üçün səy və bacarığını əsirgəmir. Təbiət elmləri sahəsində maarifləndirmə işlərinin təşkilində də akademik İradaə Hüseynovanın mühüm xidmətləri vardır.

İradə Hüseynova 500-ə yaxın, o cümlədən yüksək impakt faktorlu jurnallarda çap olunmuş 100-dən artıq elmi məqalənin, 7 monoqrafiya, 4 kitab, 6 buklet, 13 kitab fəsli, 1 metodik vəsait və 2 patentin müəllifidir. Alimin elmi araşdırmalarının nəticələri dünyanın müxtəlif ölkələrində keçirilmiş beynəlxalq konqres, konfrans və simpoziumlarda təqdim olunmuş və bir sıra nüfuzlu nəşrlərində çap edilərək yayılmışdır.

Akademik İradə Hüseynova elmi kadr hazırlığı sahəsində də bir sıra mühüm nailiyyətlər əldə etmişdir. Onun elmi rəhbərliyi və məsləhətçiliyi ilə 11 fəlsəfə doktoru və 3 elmlər doktoru hazırlanmışdır.

**G**örkəmli elm xadimi molekulyar biologiya elmi sahəsindəki fundamental tədqiqatlarına və əldə edilən mühüm əhəmiyyətə malik elmi nəticələrinə görə akademik Cəlal Əliyevlə birlikdə AMEA-nın Həsən Bəy Zərdabi adına mükafatı (2014), “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)” yubiley medalı (2019), “Bakı Dövlət Universitetinin 100 illiyi (1919–2019)” Azərbaycan Respublikasının yubiley medalı (2019), “Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921-2021)” Azərbaycan Respublikasının yubiley medalı (2021) ilə təltif olunmuşdur. O, həmçinin “Heydər Əliyevin 100 illiyi (1923-2023)” yubiley medalı (2024) və “Ətraf mühitin mühafizəsi sahəsində fərqlənməyə görə” Azərbaycan Respublikasının medalını (2023) almışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti akademik İradə Hüseynovanın xidmətlərini bir neçə dəfə Fəxri Fərmanla rəğbətləndirmişdir.

Beynəlxalq aləmdə elmi əsərləri ilə diqqəti cəlb edən akademik İradə Hüseynova İqtisadi Əməkdaşlıq Təşkilatının 2023-cü il üçün elm və texnologiya sahəsi üzrə xüsusi mükafatına, Rusiya Təbiət Elmləri Akademiyasının “EkoMir-2024” beynəlxalq ekologiya mükafatına layiq görülmüşdür.

Fundamental akademik elmin yeni nəslinin layiqli nümayəndəsi, görkəmli bioloq alim, tanınmış elm təşkilatçısı akademik İradə Hüseynova ölkəmizdə başlanmış yeni tarixi şəraitdə Azərbaycan elminin, Milli Elmlər Akademiyasının daha da inkişaf etdirilməsi yollarında yorulmadan və inamla fəaliyyət göstərməkdə davam edir.

# Xəzər yenidən geri çəkilir

## Çoxsaylı bəlaları isə sahilə hücum çəkir



**Dünya okeanı ilə birbaşa əlaqəsi olmadığından, Xəzər dənizinin səviyyəsi daim tərəddüdlərə məruz qalıb. Son minillikdə Xəzərin ən aşağı səviyyəsi X əsrə təsadüf edir (okean səviyyəsindən 35 metr aşağı). Ən yuxarı səviyyə isə XIV və XVIII əsrlərdə qeydə alınıb (okean səviyyəsindən 22 metr aşağı). Sonrakı yüzilliklərdə dənizin səviyyəsi tərəddüdlərinin amplitudu 2–4 metr diapazonunda dəyişib. Beləliklə, bütün əsrlərdə Xəzər dənizi səviyyəsinin enmə və qalxma dövrləri mövcud olub. Daha doğrusu, Xəzərin səviyyəsinin özünəməxsus uzunmüddətli dəyişmə dövriliyi mövcuddur.**

XX əsrdə dənizin səviyyə dəyişmələri 2 dəfə kəskin xarakter alıb. 1930-cu ildən 1977-ci ilədək dənizin səviyyəsi 3 metr aşağı düşərək, son 400 ilin mütləq minimumuna (-29,05 metr) çatsa da, 1977-ci ildən başlayaraq kəskin qalxmağa başlayıb və 1995-ci ilə qədər bu artım 2,5 metr təşkil edib. Sonrakı dövrdə dənizin səviyyəsi nəzərə çarpacaq dərəcədə azalmağa doğru gedir və hazırda - 29 metrə yaxındır.

Səviyyənin aşağı düşməsi ilə əlaqədar dəniz səthi sahəsinin azalması isə daha çox Qazaxıstana aid şimal-şərq hissəsində hiss olunur, çünki dənizin ən dayaz hissəsi məhz orada yerləşir. 2001–2023-cü illər arasında dayazlaşma nəticəsində sahil xətti 40 kilometrədək geri çəkilib. Azərbaycan ərazisində isə ən böyük dayazlaşma Abşeron yarımadasının şimal hissəsində yerləşən Sumqayıt tərəfdə, həmçinin Neftçala, Kür çayı və Astaraya qədər ərazidə müşahidə olunur. Bəs hazırda Xəzərin səviyyəsinin kəskin enməsinə səbəb nədir?

Xəzər dənizinin səviyyəsi onun su balansı ilə müəyyən olunur. Su balansının mədaxil hissəsini dənizə tökülən çayların gətirdiyi suyun və onun səthinə düşən yağıntıların miqdarı, məxaric hissəsini isə səthdən buxarlanan suyun miqdarı təşkil edir. Balansın məxaric hissəsi (buxarlanma) mədaxil hissəsindən (atmosfer yağıntıları və çayların gətirdiyi su) böyük olduqda səviyyə aşağı düşür, əksinə olduqda isə qalxır. Müəyyən edilib ki, Xəzərin su balansı və onun yuxarıda sadalanan elementlərinin tərəddüdləri əsasən qlobal hava dövranında baş verən uzunmüddətli dəyişikliklərlə əlaqədardır.

Son dövrlərdə dənizin su balansına antropogen amillərin təsiri də artıb ki, bu da özünü daha çox dənizə axan çayların hidroloji rejimində baş verən dəyişikliklərdə göstərir. Xəzər dənizinə Volqa, Ural, Terek, Kür və digərləri də daxil olmaqla, 130-dan çox çay axır, lakin dənizə gətirilən çay sularının 80 faizdən çoxu Volqa çayına məxsusdur. Rusiya ərazisindən keçən Volqanın hövzəsində ölkənin sənaye müəssisələrinin 45 faizi, kənd təsərrüfatı obyektlərinin isə 50 faizdən çoxu yerləşir. 1950-ci ildən sonra bu hövzənin üzərində 12 su anbarı tikilib ki, bunlar da çayın təbii axınını tənzimləməklə çayın hidroloji rejimində dəyişikliklərə səbəb olur. Təsərrüfat məqsədləri üçün hər il çaydan 25–30 kubkilometr su götürülür ki, bu da Xəzərin səviyyəsinin 7–8 sm aşağı düşməsinə ekvivalentdir.

Çayın axımının azalmasına səbəb olan amillərdən biri də iqlimin istiləşməsidir. Araşdırmalar göstərir ki, Volqa hövzəsində temperatur artımı, dəniz hövzəsinin digər ərazilərinə nisbətən daha çoxdur. Bunun nəticəsində çayın hövzəsindən, xüsusilə də geniş əraziləri tutan su anbarlarının səthindən buxarlanma kəskin artıb.

ETN H.Əliyev adına Coğrafiya İnstitutunun Xəzərin hidrometeorologiyası şöbəsində aparılan tədqiqatlara əsasən 1977-2023-cü illəri əhatə edən dövr ərzində yalnız temperatur artması səbəbindən Volqa çayının axımı 492 kubkilometr azalmışdır ki, bu da dəniz səviyyəsinin 1,30 metr azalmasına ekvivalentdir. Əgər əvvəllər dəniz səviyyəsinin qalxdığı 1977–1995-ci illərdə Volqanın orta illik axımı 260 kubkilometr təşkil edirdisə, sonrakı dövrdə bu göstərici 220 kubkilometrdən azdır.

Temperaturun artması həm də dəniz səthindən buxarlanmanın artmasına səbəb olur. Su qıtlığı digər çaylarda, o cümlədən Kürdə də müşahidə olunur. ETN Coğrafiya İnstitutunun Xəzər dənizinin hidrometeorologiyası şöbəsinin müdiri Səid Səfərov çayın aşağı axarlarında vəziyyətin pisləşdiyini dedi: “2010-cu ildən başlayaraq Kür çayının illik axını getdikcə azalır. Bu səbəbdən də dəniz suyu Salyana qədər Kürün aşağı axar hissəsini doldurur. Düzdür, son 2 ildə yağıntılar bir qədər artdığından Kürün suyunun dənizə axması bərpa olunub, amma növbəti illərdə vəziyyət yenidən dəyişə bilər”.

Baş verənlər onu göstərir ki, dənizin səviyyəsi sürətlə aşağı düşür və bunun qarşısının alınması hələlik mümkün görünmür. Deməli, region gələcəkdə daha ciddi çətinliklərlə üzləşə bilər. Prinsipcə, qarşıdakı illrdə də dəniz səviyyəsinin azalması üçün real təhlükələr mövcuddur. S, Səfərov deyir: “Mövcud iqlim dəyişmələri, qlobal istiləşmə və su idarəetmə rejimləri bu cür davam edərsə, Xəzər dənizinin səviyyəsi daha da azala bilər. Dənizin hazırki geri çəkilməsi ən azı 2042-ci ilə qədər davam edə və səviyyəsi isə -31 metrə yaxınlaşa bilər ki, bu da onun ekosistemi və dəniz təsərrüfatı üçün çox təhlükəlidir”.

*

Bəli, bu gün Xəzər dənizi ciddi problemlərlə qarşılaşıb. Onun səviyyəsinin enməsi səbəbindən Volqa çayının deltası tədricən dənizə doğru sürüşür ki, bunun da. nəticəsində son illərdə çapaq, durna, sudak, vobla (Xəzər külməsi), nərə balıqlarının kürü tökdükləri yerlər də kilometrlərlə cənuba “köçür”.



Kür, eləcə də Araz çaylarında da suyun miqdarı azalıb. Dağ çaylarının əksəriyyəti yayda quruyaraq mənsəbə gəlib çatmır. Beləliklə, balıqların kürü tökməsi üçün ənənəvi yerlər yoxa çıxır. Onu da qeyd edək ki, kilkələr, kefallar və s. əsasən, iyuldan sentyabra qədər müddətdə kürü tökmək üçün sahilyanı dayaz ərazilərə miqrasiya edirlər. Burada onlar əlverişsiz bir şəraitlə rastlaşdıqları üçün məhv olurlar. Çünki sahilə yaxın ərazilərdə dəniz dayazlaşdığından, yayda su daha çox qızır və onda həll olmuş oksgenin miqdarı azalır. Son monitorinqlərin nəticələrinə görə, adi çəki, kütüm, Xəzər külməsi, şərq çapağı və şamayı balıqlarının populyasiyası kəskin azalıb.

Şöbə müdirinin sözlərinə görə, suyun səviyyəsinin azalması duzluluğu və çirkləndiricilərin konsentrasiyasını artırır ki, bunun nəticəsində bir çox canlı və bitki növləri üçün təhlükə yaranır: “Xəzər dənizinin ekoloji sistemi böyük bioloji müxtəlifliyə malikdir. Suda duzluğun və çirkləndiricilərin konsentrasiyasının artması nəticəsində biomüxtəliflik pozulur, həmçinin zooplanktonla qidalanan xırda balıqların populyasiyalarında, əsasən, kilkələrin sayında kəskin azalma müşahidə olunur”.

Son dövrlərdə Xəzərdə dəniz ixtiofaunasının, təxminən, 60 faizini təşkil edən kilkə balığı populyasiyasının 50–60 faiz azaldığı bildirilir. Bu isə iri balıqların yem ehtiyatının azalmasına və ya yox olmasına gətirib çıxara bilər. Nəticədə, nərə balığı, qızılbalıq, siyənəkkimilərin Xəzərdə mövcudluğu risk altındadır.

Xüsusilə, nərəkimilərinin yox olma təhlükəsi var. Bu, bir tərəfdən qida azlığı ilə bağlıdırsa, digər tərəfdən çaylarda su elektrik stansiyaları, bəndlərin tikintisi ilə əlaqəlidir. Volqa, Ural və Kür çaylarında iri bəndlərin tikilməsi səbəbindən nərəkimilərin kürü tökmə yerlərinə keçməsi çətinləşib. Bu, o deməkdir ki, hazırda balıq ehtiyatlarının təbii artırılması qeyri-mümkün olmuşdur.

Xəzər suitiləri də risk zonasındadır. Onlar endemikdir (yalnız müəyyən coğrafi ərazidə və başqa heç yerdə rast gəlinməyən canlı orqanizm növü) və onların sağlamlığı bütün Xəzər dənizinin ekoloji rifahının göstəricisi hesab olunur. Ekoloji dəyişikliklər suitilərin kilkə və siyənəkdən ibarət qida təminatını pisləşdirir. Bütün bu amillər isə suitilərin həyatı üçün ciddi təhlükələr yaradır və onların sayının azalmasına səbəb olur. Son müşahidələr də bunu təsdiqləyir. Tez-tez Xəzəryanı dövlətlərin sahillərində suitilərin kütləvi şəkildə tələf olması qeydə alınır. Onlarda balıq torlarından yaralar, viral və yoluxucu xəstəliklər aşkar edilib.

Ölən suitilərin piylərinin araşdırılması zamanı onların piyində ağır metalların - kadmium, qurğuşun, arsenin konsentrasiyasının artdığını aşkar edilib. Mütəxəssislər zərərli maddələrin tərkibinin artmasını Xəzər şelfində neft-qaz şirkətlərinin fəaliyyəti və çirkləndiricilərin dənizə axıdılması ilə əlaqələndiriblər.

*

Dənizin ona tökülən çaylardan və digər mənbələrdən çirikləndirilməsi onun səviyyəsinin azalması qədər əhəmiyyətlidir. S. Səfərov bildirdi ki, təmizlənməmiş sənaye və kənd təsərrüfatı, həmçinin dəniz sahillərində yerləşən şəhər və qəsəbələrdən məişət tulantı suları dənizə axıdılır: “Dəniz nəqliyyatı, neft və qaz quyularının istismarı, neftin dəniz yolu ilə daşınması su hövzəsinin çirikləndirilməsində əsas rol oynayır. Bütün bu səbəblərdən Xəzərdə yaşayan bütün canlıların həyatı müxtəlif çirkləndiricilərin intensiv təsiri altındadır ki, bu da bir sıra mənfi nəticələrə gətirib çıxarır”.








Beləliklə, Xəzər dənizinin əsas çirkləndirici mənbələrindən biri nef-qaz yataqlarıdır. Yada salaq ki, Xəzər regionu karbohidrogen ehtiyatları ilə zəngindir. Hazırda yataqlarda 48 milyard barel neft və 292 trilyon kubmetr qazın olduğu bildirilir. Onların istismarı ekoloji vəziyyətin pisləşməsinə səbəb olur. Mütəxəssisin sözlərinə görə, dəniz sularında neft və qaz yataqlarının işlənməsi təcrübəsi göstərir ki, hətta standart neft hasilatı şəraitində də hər bir qazma qurğusu bərk, maye və qaz tərkibli komponentləri özündə birləşdirən bir çox çirkləndiricilərin mənbəyidir. Orta hesabla dəniz yataqlarının işlənməsi zamanı bir quyudan su mühitinə 30–120 ton neft, 200–300 ton qazma tullantıları, 150–400 ton qazma məhlulu daxil olur. Tərkibində 409-a yaxın yüksək zəhərli qatqı olan qazma tullantıları neftdən daha çox təhlükə yaradır.

Neftlə çirklənmə isə Xəzər dənizində fitobentos və fitoplanktonun inkişafına mane olur. S, Səfərof dedi ki, cəmi 1 ton neft 12 kvadratkilometr dəniz səthində neft pərdəsi əmələ gətirir: “Su səthindəki neft pərdələri isə atmosferlə su hövzəsi arasında enerji, istilik, rütubət və qaz mübadiləsini pozur, fiziki və kimyəvi prosesləri dəyişdirir. Eyni zamanda, suyun səth qatının temperaturu yüksəlir, qaz mübadiləsi pisləşir. Nəticədə, balıqlar oranı tərk edir və ya ölürlər. Dənizin dibinə çökən neft qalıqları da təhlükəlidir. Çünki o, yumurtaların, sürfələrin və balaların qida ehtiyatını məhv edir və dəniz heyvanlarının ətinin dadına mənfi təsir göstərir”.

Onu da qeyd edək ki, su nəqliyyatı da Xəzər dənizi ərazisinin çirklənməsi mənbəyidir, çünki onun istismarı yanacaq sızması və tərkibində neft, neft məhsulları və sintetik səthi aktiv maddələr (SAS) olan yuyulma suyunun dənizə axıdılması ilə nəticələnir. Gəmilərdən gələn səs-küy balıq yumurtalarının inkişafına mənfi təsir göstərir və bəzi balıq növləri ondan kar olurlar.

“Son illərdə Xəzərin açıq sularında mikroplastiklərin konsentrasiyası da artır. Artıq bu rəqəm hər kubmetr suda 33 min hissəciyə çatır, yəni zərərli çirklərin qatı bulyonu əmələ gəlir. Volqa deltasında bu rəqəm üç dəfə çoxdur. Təəssüf ki, Xəzər dənizinin canlıları bu zərərli qalıqları qida mənbəyi kimi qəbul edirlər. Nəhayət, mikroplastiklər quşlar və suitilər üçün kəskin zəhərlənməyə səbəb ola bilər”.

Ümumiyyətlə, çaylar vasitəsilə Xəzərə daxil olan çirkab sularının 60 faizi Volqanın payına düşür. Belə ki, hər il Volqa çayına 2,5 kubkilometr təmizlənməmiş və 7 kubkilometr şərti təmizlənmiş tullantı suları axıdılır. Nəticədə, çayın axarında maksimum yol verilən konsentrasiyadan artıq zəhərli maddələrin toplanır. Ümumiyyətlə, son illərdə dənizin çay hövzəsində neft məhsulları və fenollar (iki dəfə), mis birləşmələri (dörd dəfə) artıb. Onu da qeyd ki, çirkləndiricilərin çay axını ilə daxil olduğu yerlərin 90 faizi Xəzərin şimalında cəmləşib.

Şöbə müdri bildirdi ki, dənizin çirklənməsində Kür və Ural çayları da az rol oynamır: “Tbilisi, Rustavi şəhərlərinin sənaye müəssisələrinin çirkab suları, həmçinin kənd təsərrüfatında işlədilən müxtəlif toksiki maddələr Kür çayı vasitəsilə Xəzərə daxil olur. Çay axınındakı zəhərli maddələrin konsentrasiyası maksimum yol verilən həddən yüksəkdir. Dəniz sahillərində yerləşən iri şəhərlər və sənaye müəssisələrindən dənizə axıdılan tullantı suları da onun əsas çirkləndiricilərindən hesab edilir”.

Maraqlıdır ki, son vaxtlar dənizin heyvan və bitki aləmində bəzi dəyişikliklər də var. Həştərxan Dövlət Biosfer Qoruğunun hüdudlarında iki yeni balıq növü aşkar edilib: Amur çebaçoku və Azov-Qara dəniz çöpü. İxtioloqlar qorxurlar ki, bu varlıqlar yerli ekosistemi poza və digər balıq növlərinin yumurtalarını yeyə bilərlər.

Beləliklə, dənizdə karbohidrogen ehtiyatlarının axtarışı, hasilatı və nəqli zamanı ekoloji tələblərin gözlənilməməsi, sənaye tullantıları, çay suları ilə dənizə müxtəlif çirkləndirici maddələrin gətirilməsi, məişət tullantı sularının təmizlənmədən Xəzər dənizinə axıdılması, kənd təsərrüfatında istifadə olunan gübrələrin yağıntı və suvarma suları ilə çaylar–kanallar vasitəsilə dənizə buraxılması onu çirikləndirir, flora və faunasına ciddi zərər vurur. Xəzəri qorumaq üçün isə Xəzərsahili ölkələrin birgə tədbirlər görməsinin vaxtıdır.



*Pünhan ƏFƏNDİYEV*
*XQ*

Üzeyir Hacıbəyli – 140

# Üzeyir Hacıbəylinin Nizami obrazı

**Hələ 1940-cı ildə dahi Nizami Gəncəvinin 800 illik yubileyi ilə bağlı "Nizaminin portreti" əsərini ərsəyə gətirən ilk rəssam Qəzənfər Xalıqovun eskizi bu münassibətlə elan olunmuş müsabiqədə bəyənilmişdi. Rəssam karandaşla çəkdiyi ilkin variantı yağlı boya ilə rəngli portretə çevirərkən dahi bəstəkar Üzeyir Hacıbəyli məsləhətinə qulaq asıb və birincilik qazanıb.**







Məsələ isə belə olub: Nizamişünas Yevgeni Bertels, filosof Heydər Hüseynov və ədəbiyyatşünas Həmid Araslı Nizaminin xarici görünüşünü təxmini təsvir etdikdən sonra Üzeyir Hacıbəyli deyib: "Siz dediyiniz parametrlərdə Ağcəbədidən bir axund tanıyıram. Bu adam mənim və daha bir çox tanınmış ziyalının yetişməsində rol oynamış Mirzə Mehdi Sarıcalıdır. O çəkilsə, daha məqsədəuyğun olar".

Fırça ustası elə də edib. Maarif fədaisi olan həmin axunda Tarix-diyarşünaslıq muzeyindən alınmış orta əsrlərə aid əlbisələr geyindirildikdən sonra Qəzənfər Xalıqov Nizaminin portretini bir növ naturadan işləyib və çox uğurlu əsəri ilə müsabiqədə qalib gəlib. Sənətşünasların fikrincə, portretin tünd rəng koloritinə baxmayaraq, dövrünə uyğun geyimi, nəcib üz quruluşu və digər xarakterik cizgiləri ilə diqqət çəkir. Ciddi yaradıcılıq nailiyyəti sayılan həmin portret hazırda Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində saxlanır. Əsərin 2-ci nüsxəsi isə Gəncə muzeyindədir.

Axund Mirzə Mehdi Sarıcalıya gəlincə, xatırladaq ki, onun sənətə, ədəbiyyata xidməti təkcə Nizaminin portretinin yaradılmasına köməyi ilə bitmir. Bu böyük ziyalı şəxsiyyətin bütün elmi və insani keyfiyyətlərini mənimsəmiş onlarla tələbəsi olub ki, hər biri Azərbaycan ədəbiyyatında, tarixində və mədəniyyətində silinməz izlər buraxıb. Onlardan "bacıoğlum", "bacımın balası" deyib müraciət etdiyi Üzeyir bəyin qardaşları Zülfüqar və Ceyhun Hacıbəylilləri, Yusif Vəzir Çəmənzəminlini, Bahadır Vəlibəyovu, Mehdi bəy Həyatovu, Hüsü Hacıyevi və digərlərini misal göstərmək olar.

Dahi Nizaminin yaradıcılığına dərindən bələd olan görkəmli bəstəkar Üzeyir Hacıbəylinin özü klassik şairin bədii irsindən layiqincə bəhrələnib. Onun əsərlərinə parlaq musiqilər bəstələyib. Elə bu günlərdə AMEA-nın Gəncə Bölməsində Prezident sərəncamı ilə 140 illik yubileyinə hazırlaşdığımız dahi bəstəkarın yaradıcılığına həsr olunmuş "Üzeyir Hacıbəyli və Nizami Gəncəvi" adlı seminarda bu barədə ətraflı danışılıb.

Bölmənin sədr müavini, filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarov bildirib ki, Azərbaycanın iki böyük övladı – Nizami Gəncəvi və Üzeyir Hacıbəylinin yaşadıqları dövrləri 8 əsr ayırsa da, zamanın fövqündə duran və ən yüksək yaradıcı meyarlara sahib olan bu dahi şəxsiyyətlər arasında ruh doğmalığı var. Nizami Gəncəvi "Xəmsə"sində musiqiyə dair təsvirlərin olmasına, eləcə də 60-dək musiqi alətinin adının çəkilməsinə, şairin poetikasının zənginliyinə, xüsusən də qəzəllərinin dərin melodikliyinə böyük istedad sahibi Üzeyir Hacıbəyli biganə qala bilməzdi və bu da bəstəkarın yaradıcı enerjisini daha da qüdrətləndirən amillərdən olub.

Qeyd edilib ki, Üzeyir bəy Nizami Gəncəvinin 800 illik yubileyi münasibətilə 1941-ci ildə Süleyman Rüstəmin sözlərinə "Nizami" kantatasını, eləcə də dahi şairin iki qəzəlinə "Sənsiz" və "Sevgili canan" romanslarını bəstələyib. Həm də vokal musiqimizin qızıl fonduna daxil olmuş bu iki əsərlə o, romans-qəzəl janrının əsasını qoyub.

Seminarın sonunda "Nizami" filmindən böyük musiqiçi Müslüm Maqomayevin ifasında "Sevgili canan"ın səsləndirilməsi hər kəsi duyğulandırıb. Doğrudan da, illər, onilliklər ötdükcə Üzeyir Hacıbəylinin Nizaminin lirik şeirlərinə, qəzəllərinə yazdığı musiqinin populyarlığı, şöhrəti nəinki azalmayıb, əksinə, qat-qat artıb. Deyildiyinə görə, şairin sözlərinə Üzeyir bəy 10-a qədər musiqi yazmaq niyyətində olub, təəssüf ki, yalnız ikisini bitirə bilib. Amma əvəzində onun ünlü ardıcılları Nizami mövzusuna bol-bol müraciət ediblər. Şairin irsi əsasında Əfrasiyab Bədəlbəylinin "Nizami", Niyazinin "Xosrov və Şirin" operaları, Qara Qarayevin "Leyli və Məcnun" simfonik poeması və "Yeddi gözəl" baleti, Fikrət Əmirovun "Nizami" simfoniyası və "Nizami" baleti, eləcə də Süleyman Ələsgərovun və Ramiz Mustafayevin dəyərli əsərləri yaranıb.

Üzeyir Hacıbəylinin "Sənsiz" (rəməl bəhri) və "Sevgili canan" (həcəz bəhri) musiqili qəzəllərinin isə Azərbaycan vokal musiqisinin inkişafında və xalqımızın qəlbində xüsusi yeri var. Çünki dahi bəstəkar ədəbi və musiqi formalarının vəhdəti ənənəsindən, qəzəlin musiqi ilə üzvi bağlılığından özünəxas yaradıcı surətdə istifadə edib. Hər iki əsərdə Nizami qəzəllərinin muğam əsasında qurulan melodik xəttini və fikrini birə-bir saxlayıb, vəzn bəhrlərini bacarıqla musiqiyə keçirə bilib. Dahi bəstəkar özü 1944-cü ildə bu barədə belə yazırdı: "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin 800 illik yubileyinə hazırlıq ərəfəsində Azərbaycan bəstəkarları onun məşhur qəzəllərinə musiqi yazmışlar. Beləliklə, Azərbaycanda ilk dəfə olaraq musiqili qəzəllərin, artıq improvizasiya şəklində deyil, inkişaf etmiş melodiya şəklində olan, müvafiq ladlarda yazılan və Avropa romansları janrına yaxınlaşan yeni bir forması meydana gəlmişdir".

Beləliklə, Nizami və Hacıbəyli dühası şeirlə musiqinin vəhdətində qovuşub və hər iki klassikin adını bir daha əbədiləşdirib.

***Ə.DOSTƏLİ***
***XQ***

Abbas Abdulla – 85

# Borçalının şair oğlu

**Ötən il Bakıdakı Kəpənəkçi qəbristanlığında olanda xəyalən Abbas Abdulla ilə danışırdım. Məzarı önündə düşüncələrə dalmışdım. Onunla keçən günlərimizi, unudulmaz görüşlərimizi, duzlu- məzəli söhbətlərimizi yada salıb kövrəlmişdim. Hər dəfə Abbas Abdullanı xatırladıqca, ömür kitabını vərəqlədikcə həsrətli duyğulara köklənirəm. Özü həyatda yoxdur, amma yoxluğu ilə yanaşı, varlığını da hiss edirəm...**



Bu gün Abbas Abdullanın illərin, əsrlərin arxasından boylanan ruhu şaddır. Çünki unudulmayıb - səsi, nəfəsi şeirlərində, özü dostlarının, qohumlarının, Borçalı əsilli ziyalıların xatirələrində yaşayır.

Hələ öz şeirlərini demirəm, qələm dostlarının sağlığında və dünyasını dəyişəndən sonra ona ithaf etdiyi çoxsaylı şeirlərdən də bir unudulmaz şair Abbas Abdulla boylanır. Bu şeirlər də onun böyük hərflərlə yazılan İNSAN ömrünə və şair taleyinə işıq salan, bir – birindən gözəl poeziya nümunələridir. Bir işıqlı insan və gözəl şair ömrünün mənasını diymaq üçün bu şeirləri oxumaq da yetərlidir. Sevimli şairimiz Hüseyn Arifin yazdığı kimi:

***Bəlkə, zaman- zaman gül açdı dilək,***
***Bəlkə, yarı yolda dayandı ürək,***
***Bəlkə, unudulduq...Bəlkə... Nə bilək,***
***Nə çoxdur həyatın bəlkəsi, Abbas!***

***Sevincin də duru, qəmin də duru,***
***Bu eşqi əzizlə, bu eşqi qoru!***
***Dağlar kəlamında dağlar qüruru,***
***Hər şeyin ucası, zirvəsi, Abbas.***

"Əməkdar mədəniyyət işçisi", Ukraynanın Maksim Rılski adına ədəbi mükafatının laureatı, ictimai xadim, Azərbaycanın İstanbuldakı sabiq baş konsulu – diplomat Abbas Abdullanın 85 illik yubileyi geniş şəkildə qeyd olundu. Şeir-sənət sevərlər Abbas Abdullanın həmişəyaşar poeziyasının – yaddaşlarda yaşayan şeirlərinin və unudulmaz xatirəsinin işığına yığışmışdılar.



Mən Abbas Abdullanı yaxından tanıyırdım. Haqqında çox uca sözlər yazmaq olar... Bir zamanlar onunla oturub – duracaq yaşda və səviyyədə olmasam da, sonralar aramızda dost münasibəti və sıx ünsiyyət yarandı. O, lirik təbiətli insan idi. İnsanları, Vətənini, doğulduğu ata yurdunu, ana təbiəti çox sevirdi. Ona görə də ürəkdən gələn şeirləri ürəklərə yol tapırdı. Onun lirik şeirlərindəki dağlar, bulaqlar, ağaclar da sanki insanlarla dil tapıb danışır:

***Bu il yenə gedəmmədim***
***Bizim dağlara - dağlara.***
***Gorən gedib çatacaqmı***
***Sözüm dağlara - dağlara.***

***Atım yoxdu yəhərlənə,***
***Dəli könlüm qəhərlənə,***
***Yolum düşüb şəhərlərə,***
***İzim dağlara – dağlara.***

***Bu dağların Abbasıyam,***
***Kəpənəkçi balasıyam.***
***Qəbirdə də yatasıyam***
***Üzüm dağlara - dağlara.***

Abbas Abdulla bir ömür boyunca qələmlə həmdərd oldu. Şair ruhu ona hamıdan və hər şeydən yaxın olduğu kimi, həm də özünə böyük şöhrət qazandırdı. Şair adını və şeirlərini yaddaşlara yazdırdı.

Dünən Rəşid Behbudov adına Mahnı Teatrında Kəpənəkçi Cəmiyyətinin təşkilatçılığı ilə keçirilən yubiley tədbirində bunun bir daha şahidi olduq. Görkəmli şair-tərcüməçi, ədəbiyyatşünas, redaktor, Yubiley mərasimində çıxış edənlər – görkəmli dövlət xadimi Həsən Həsənov, Millli Məclisin deputatları Aqil Abbas, Fazil Qəzənfəroğlu, sabiq Baş Nazirin müavini, professor İzzət Rüstəmov, Əməkdar İncəsənət xadimi İsmayıl Ömərov, Türkiyədən və Ukraynadan yubiley tədbirinə gəlmiş qonaqlar – Türk ədəbiyyatı dərgisinin baş redaktoru İmdat Avşar, Ukraynadakı Bakı Mərkəzinin rəhbəri Kristina Şkula və başqaları Abbas Abdullanın mənalı ömür yolundan, ədəbi-bədii, tərcüməçilik və diplomatik fəaliyyətindən söz açdılar. Şair haqqında acılı, şirinli xatirələri dilə gətirdilər.

Məclis iştirakçıları sazın- sözün avazında, aşıqların, musiqiçilərin ifasında Abbas Abdullanın şeirlərini dinlədilər. Bu şeirlərdəki milli ruh, xalq dilinin şəhd – şirəsi, yurd sevgisindən və Vətən eşqindən süzülüb gələn kövrək lirika saz üstündə dinləyicilərə daha zəngin duyğular aşıladı. Xalq artistləri Gülyaz və Gülyanaq Məmmədova bacılarının ifa etdikləri mahnılar da yubiley tədbirinə rəng qatdı, dinləyicilər tərəfindən hərarətlə qarşılandı.

Sonda şairin övladları məclisin təşkilatçılarına və iştirakçılarına minnətdarlıqlarını bildirdilər.

***Həzi HƏSƏNLİ,***
***şair- publisist***

Mətbuat konfransı

# Tələbə adına 130 min abituriyent iddiaçıdır

**Dünən Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanlarının başlanması ilə əlaqədar mətbuat konfransı keçirib.**

Sədr qeyd edib ki, bu il ali təhsil müəssisələrinə qəbul olmaq üçün qeydiyyatdan keçən abituriyentlərin sayı 130 mindən artıqdır. Ötən illə müqayisədə ərizələrin sayında təqribən 12 min nəfər artım var. Bu, ilk növbədə, 2025-ci ildə məzun olan abituriyentlərin sayının çoxluğu ilə bağlıdır. Bu il buraxılış imtahanlarında 119 mindən çox şagird iştirak edib.

İmtahan keçirilən şəhər və rayonları qeyd edən sədr onların sayının daim artırılmasına diqqət yetirildiyini söyləyib. Qəbul imtahanları əvvəllər Bakı və Naxçıvanda, daha sonra DİM-in regional bölmələrinin yerləşdiyi digər böyük şəhərlərdə, hazırda isə respublikamızın 24 şəhər və rayonunda keçirilir. "Sevindirici haldır ki, DİM artıq Xankəndi şəhərində də qəbul imtahanları keçirəcək. Bu, işğaldan azad edilmiş bölgələrdə keçirilən ilk qəbul imtahanıdır", – deyə sədr bildirib.

Ötən ildən etibarən tələbə qəbulu aparılan Qarabağ Universiteti haqqında məlumat verən M.Abbaszadə 2025-ci ildə bu təhsil müəssisəsi üzrə qəbul planının 28.5 faiz artırılaraq 1440 yerə çatdırılmasının regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi baxımından xüsusi əhəmiyyət daşıdığını qeyd edib.

2025–2026-cı tədris ili üçün ali təhsil müəssisələrinə tələbə qəbulu planı haqqında məlumat verən sədr ümumilikdə 60489 plan yerinin ayrıldığını açıqlayıb. Plan yerlərinin 28401-i dövlət sifarişlidir. Bu say ötən illə müqayisədə 568 yer artıb.

Ali təhsil müəssisələrinə qəbul olmaq üçün müsabiqə şərtlərində hər hansı dəyişiklik nəzərdə tutulmur və ötən illərdə olduğu kimi, ümumi 200, imtahanın ikin-



ci mərhələsində 100 (bəzi ixtisaslar üzrə ümumi 150 və ikinci mərhələ üçün 50) bal toplayanlar ixtisas seçimində iştirak edə biləcəklər. Bu il keçirilən tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları haqqında danışan sədr ötən illə müqayisədə nəticələrin bir-birinə, demək olar ki, uyğun olduğunu vurğulayıb. 2025-ci ildə imtahanda iştirak edən orta statistik şagirdin balı 132.33, 2024-cü ildə isə 132.09 olub. Qeyd edək ki, bu mərhələdə toplanıla biləcək maksimal bal 300-dür.

Mətbuat konfransında gələcək imtahan iştirakçılarının davranış qaydalarına da xüsusi diqqət yetirmələri ilə bağlı çağırış edilib. Bir daha imtahan iştirakçılarının nəzərinə çatdırılıb ki, qayda pozuntularına yol verən şəxslərin bütün nəticələri ləğv olunur və onlar ali və ya orta ixtisas təhsili müəssisələrinin müsabiqəsində iştirak etmək şanslarını itirirlər. Yəni, qayda pozuntusuna yol verənlər qəbul imtahanlarının ikinci cəhdinə də buraxılmırlar, həmçinin onlar buraxılış imtahanının nəticəsinə əsasən V ixtisas qrupunun da müsabiqəsində iştirak hüququnu itirirlər.

Sonda Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilən müxtəlif layihələr haqqında məlumat verilib.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# May "Ulduz"u

**AYB-nin ədəbi-bədii jurnalı olan "Ulduz"un may sayı artıq işıq üzü görüb.**



Jurnal Seyid Aynurun "Özüylə söhbəti və şeirləri" ilə açılır. "Nəsr" rubrikasında Xan Abdullanın "Dumru", Tural Cəfərlinin "Eyforiya", Zəka Vilayətoğlunun "Eeey, səs salma", Əlisəfdər Hüseynovun "Meloman", Mübariz Cəfərlinin "Amədə" və "Bal" hekayələrini təqdim edilir. "Şeir vaxtı"nda Elşən Əzim, Sevinc Yunuslu, Tural Turan, Ceyhun Ötkəm, Xuraman Hüseyn, Rəsmiyyə Sabir oxucuların görüşünə gəlib.

Jurnalın baş redaktoru, şair Qulu Ağsəs bu dəfə Xalq artisti Arif Babayevlə "Ayrı söhbət" eləyir. Çeçenistan ədəbiyyatının tanınmış nümayəndəsi İsa Zakriyevin qısa hekayələri Seyfəddin Hüseynlinin tərcüməsində təqdim olunur. "Anım"da Nizami Tağısoy "Vətən ağrılarının ağırlığı"ndan yazır. "Tribuna" Aysel Xanlarqızının "Vasif Süleyman yaradıclığı haqqında", Vaqif Yusiflinin "Ədəbi fraqmentlər" yazısını yer ayırıb. "Debüt"də isə "İndinin simfoniyası" ilə Məryəm Bağırovadır. İltimas Səmiminin, İlkin Əhmədoğlunun şeirləri də "Ulduz"un may sayında yer alır.

"Dərgidə kitab" filologiya elmləri doktoru Sərxan Xavərinin "Qeysdən Məcnuna: təsəvvüfün mistik zaman modeli kontekstində subyektin sufi transformasiyası"nı (3-cü məqalə) təqdim edir. "Dərgidə sərgidə" rəsm əsərləri ilə Xatirə Həsənzadədir.

***XQ***

**Son vaxtlar qlobal mediada İbrahim razılaşması mövzusu yenidən gündəmə gəlib. Bu sazişə yeni ölkələrin qoşula biləcəyi haqqında müəyyən ehtimallar da səsləndirilir. Bunun baş verib-verməyəcəyini indidən demək çətindir. Məqsədimiz Yaxın Şərqdəki proseslərə ciddi təsir göstərən razılaşmanın yaranma səbəbləri və regional siyasətə təsirləri barədə oxuculara məlumat verməkdir.**



# İbrahim razılaşması: aşkar və gizli məqamlar

Dərhal qeyd etmək istərdik ki, İbrahim Razılaşması 2020-2021-ci illər ərzində İsrail dövləti ilə bir çox ərəb ölkələri arasında münasibətlərin normallaşdırılması niyyəti ilə imzalanıb. Sənədin adı yəhudi, xristian və İslam dinlərinin səmavi kitablarında adı dərin hörmət və ehtiram ilə çəkilən İbrahim (ə.s) peyğəmbərin mübarək ismindən götürülüb.

Razılaşma ABŞ Prezidenti Donald Trampın Ağ evdə 1-ci dönəmindəki administrasiyasının gərgin səyləri sayəsində mümkün olub. İsrailin ABŞ-ın tövsiyəsi ilə İordan çayının Qərb sahilindəki torpaqlara (fələstinlilər bu ərazini özlərinin tarixi vətənləri hesab edirlər – müəllif) olan iddialarını qeyri-müəyyən müddətə təxirə salması, regionda nüvə silahına malik olmağa can atan İranın qonşu dövlətlərə artan təhdidləri, eləcə də ABŞ-ın bir çox ərəb ölkələrinə vəd etdiyi maliyyə və hərbi yardımlar və s. amillər sazişin hazırlanması və imzalanması prosesinin sürətlənməsinə səbəb olub.

Bir daha vurğulayaq ki, İbrahim Razılaşmasının reallaşması üçün Vaşinqton gərgin diplomatik səylər ortaya qoymuşdur. Bu mühüm missiyanın icrasına məsul olan şəxslər – Trampın müşaviri, böyük qızı İvankanın həyat yoldaşı Cared Kuşner, ABŞ-ın Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Ceyson Qrinblatt, eləcə də bu ölkənin İsraildəki səfiri Devid Fridman danışıqların aparılması və uğurla başa çatması istiqamətində əllərindən gələni etmişlər.

Yeri gəlmişkən, ABŞ mediası bu prosesə güclü informasiya dəstəyi vermişdir. İsrailin İordan çayının Qərb sahilindəki ərazilərə iddialarından "əl çəkməsi" bir çox ərəb dövlətlərinin, eləcə də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Təl-Əvivə qarşı əvvəlki onillər boyu tutduğu kəskin düşmənçilik mövqelərini yumşaltmışdı. Digər bir amil isə, bir qədər əvvəl qeyd etdiyimiz kimi, İsrailin və bir çox ərəb dövlətlərinin İrandan qaynaqlanan təhlükə qarşısında birgə təhlükəsizlik tədbirlərinə əl atmağa məcbur olmaları idi.

O biri tərəfdən Vaşinqton razılaşmaya qoşulan ərəb dövlətlərini səxavətlə mükafatlandırmağı vəd etmişdi. Ağ ev o vaxta qədər tarixdə analoqu olmayan bir tərzdə BƏƏ-yə "F-35"lər də daxil olmaqla, böyük həcmdə ən modern silahlar satmağa razılaşdı. Vaşinqton, həmçinin Mərakeş Krallığının Qərbi Saxarada mübahisəli ərazilərə hüququnu tanıdı, Sudanı terrorçu dövlətlərin siyahısından çıxardı və Dünya Bankına olan borclarını ödəmək üşün bu ölkəyə 1,2 milyard dollarlıq güzəştli kredit ayırdı.

İbrahim Razılaşmasının ilk sənədi İsraillə BƏƏ və İsraillə Bəhreyn dövlətləri arasında 2020-ci ilin 15 sentyabrında imzalandı. Sənədi Prezident D.Trampın iştirakı ilə İsrailin Baş naziri Benyamin Netanyahu, BƏƏ və Bəhreynin xarici işlər nazirləri imzaladılar. Amerikalı jurnalistlər dərhal bu sənədi "Əsrin sazişi" adlandırdılar.

Bu, həqiqətən D.Tramp administrasiysının aktivinə yazılan böyük diplomatik uğur hesab edilirdi. Burada ən çox qazanan tərəf isə İsrail hesab olunurdu. Belə ki, Təl-Əvivin ilk dəfə BƏƏ və Bəhreynlə diplomatik əlaqələr qurması 1994-cü ildə İsraillə İordaniya arasında bağlanan məlum sülh sazişindən sonra ərəb-İsrail münasibətlərinin normallaşdırılması istiqamətində ilk uğurlu presedent idi.

22 dekabr 2020-ci ildə razılaşmaya Mərakeş də qoşuldu. Təxminən bir ildən sonra, yəni 2021-ci ilin 24 noyabrında İsrailin müdafiə naziri Beni Hans mərakeşli həmkarı ilə birlikdə Rabatda iki ölkə arasında milli təhlükəsizlik sahəsində anlaşma memorandumu imzaladı. Bu, İsrail tərəfindən milli təhlükəsizlik sahəsində ərəb dövlətləri ilə bağlanan ilk hərbi müqavilə idi.

2021-ci ilin yanvarın 6-da Sudan da İbrahim Razılaşmasına cəlb olundu. Paytaxt Xartumda ABŞ-ın maliyyə naziri Stiven Muniçin iştirakı ilə Sudan İsraillə hərtərəfli əlaqələrin qurulması ilə əlaqədar sənəd imzaladı. Həmin ilin aprelində Sudan parlamenti vaxtilə yekdilliklə qəbul etdiyi İsraillə hər hansı bir əlaqələrin olmasını qadağan edən qanunu ləğv etdi. Lakin BƏƏ və Bəhreyndən fərqli olaraq, Sudan İsraillə sülh sazişini hələ də imzalamayıb.

Dünyanın İbrahim Razılamasına münasibəti birmənalı deyildi. Bu gün də onu ədalətli hesab edənlər olduğu kimi, əksinə, neqativ sənəd adlandıranlar az deyil. Məsələn, Avropa İttifaqı və Böyük Britaniya sülh razılaşmasını alqışladılar. Lakin Fələstin-İsrail münaqişəsinin ədalətli həlli üçün BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsinə uyğun olaraq "iki dövlət" prinsipinə bundan sonra da sadiq qalacaqlarını bir daha bəyan etdilər.

İran rəsmiləri İsraillə əlaqələr yaradan ərəb dövlətləri rəhbərlərini kəskin tənqid edərək, bunu "Fələstin xalqının kürəyinə sancılmış xəncər" adlandırdılar. Türkiyə hökuməti razılaşmaya etiraz əlaməti olaraq BƏƏ rəhbərliyini Dubaydakı səfirliyini bağlamaqla hədələdi. Ankara bu gün də hesab edir ki, nə qədər, fələstin xalqının öz tarixi ərazilərində müstəqil dövləti yaradılmayıb, bu iki xalq arasında düşmənçilik davam edəcək.

Amma bir çox ərəb dövlətləri razılaşmaya rəsmi münasibət bildirməkdən çəkindilər. Onlardan bəziləri (Əlcəzair, Tunis, Liviya və Qətər) sazişin Fələstin probleminin həllinə müsbət təsir etmədiyini, əksinə, xalqlar arasında milli nifrət və qarşıdurmalara rəvac verdiyini bildirdilər. Ən kəskin reaksiya isə Fələstindən gəldi. Belə ki, Fələstin administrasiyası 2020-ci ilin 15 sentyabrını Fələsin xalqının tarixində "qara gün" kimi səciyyələndirdi. Fələstin ilə BƏƏ dövləti arasındakı münasibətlər isə kəskin pisləşdi. Fələstinin ali müftisi BƏƏ-dən olan ziyarətçilərin Qüdsdəki müqəddəs "Əl-Əqsa" məscidini ziyarət etmələrinə qadağa qoydu. HƏMAS qruplaşması, öz növbəsində sözügedən sənədi fələstinlilərə qarşı xəyanət adlandırdı.

Ədalət naminə demək lazımdır ki, İbrahim Razılaşması, bütövlükdə, regionda sabitliyin güclənməsinə müsbət təsir göstərdi. Xüsusilə sazişə imza atan ölkələr arasında iqtisadi və ticari əlaqələr genişləndi. Üstəlik, İsraillə bir çox ərəb dövlətləri arasında müdafiə, kibernetika sahələrində əməkdaşlıq gücləndi. Məsələn, hazırda İsrail Mərakeşin əsas silah tədarükçüsünə çevrilib.

Bütün hallarda İbrahim Razılaşması Yaxın Şərqin siyasi və iqtisadi həyatına yeni dinamizm gətirdi. Konkret misal çəkməli olsaq, demək olar ki, təkcə 2024-cü ildə İsrail ilə razılaşmanı imzalayan ölkələr arasında əmtəə dövriyyəsi 4 milyard dollara çatmışdır. Əlamətdar haldır ki, regionda turizmin inkişafı daha da sürətlənib. Yeri gəlmişkən, ötən il BƏƏ-ni yarım milyon çox israilli turist ziyarət edib.

2021-ci ildə Ağ evdə Trampı əvəz edən Prezident Co Baydenin komandası isə sözdə İbrahim Razılaşmasına qarşı çıxmasa da, bütövlükdə, ərəb dövlətlərinin İsraillə əlaqələrinin güclənməsi prosesinə kifayət qədər siyasi və diplomatik dəstək vermədi. Vaşinqton–Təl-Əviv münasibətlərində uzun müddət gərginliklər yaşandı. İsrail ümid edir ki, Trampın Ağ evə qayıdışı ilə İbrahim Razılaşması üzrə planlar yenidən aktuallaşacaq.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Fransa–Əlcəzair böhranı

## *Postmüstəmləkə gərginliyi yeni mərhələdə*

**Fransa ilə Əlcəzair arasında hazırkı münasibətlər kəskin şəkildə gərgindir və diplomatik qovulmalar nəticəsində ən aşağı səviyyədədir. 2025-ci ilin aprelində Əlcəzair Fransada bir konsulluq əməkdaşının həbsinə cavab olaraq, bu ölkənin 12 diplomatını ölkədən çıxardı. Buna qarşılıq olaraq Fransa da 12 əlcəzairli diplomatı deportasiya etdi və səfirini geri çağırdı. Gərginlik may ayında daha da artdı: Əlcəzair Fransanın daha 15 diplomatını ölkədən qovdu, Fransa eyni addımla cavab verdi. Bununla kifayətlənməyən Paris Əlcəzair rəsmiləri üçün viza azadlığını ləğv etdi. Mayın 22-də Əlcəzair də Fransa diplomatlarına viza azadlığını dayandırdı.**




Hazırkı vəziyyəti və böhranın inkişaf dinamikasını nəzərə alaraq, Fransa–Əlcəzair münasibətlərinin gərginləşməsi yalnız ikitərəfli problem deyil, həm də strateji və sistemli xarakter daşıyır. Bu böhran, həm dərin tarixi–müstəmləkə mirası, həm də çağdaş geosiyasi və iqtisadi maraqlar fonunda baş verir. Vizaların ləğvi isə münasibətlərdəki etimadsızlığın artdığını və diplomatik əlaqələrin minimum səviyyəyə endiyini açıq şəkildə göstərir. Bu, yalnız diplomatik missiyalara deyil, ümumilikdə iki ölkə arasındakı iqtisadi, mədəni və təhlükəsizlik əməkdaşlığına da ciddi zərbə vurur.

### Diplomatik savaşın səbəbi?

2024-cü ilin aprelində Fransa ictimai fəal Amin Boukhorsun qaçırılması ittihamı ilə, aralarında bir konsulluq əməkdaşı da olmaqla, üç əlcəzairlini həbs etdi. Əlcəzair bu addımı suveren hüquqlarına qarşı kobud müdaxilə kimi qiymətləndirdi və sərt reaksiya verdi. Eyni zamanda, Əlcəzair Fransanı yeni diplomatların təyinatı prosedurlarını pozmaqda günahlandırdı ki, bu da əlavə gərginlik yaratdı. Fransa isə Əlcəzairin etirazlarına məhəl qoymadı və Mərakeşin Qərbi Səhraya dair muxtariyyət planını açıq şəkildə dəstəkləyərək Əlcəzairin əsas geosiyasi narahatlıqlarından birinə qarşı çıxdı.

Ümumilikdə, Fransa–Əlcəzair münasibətlərinin təməlində 132 illik müstəmləkəçilik dövrü və 1962-ci ildə başa çatan müstəqillik müharibəsinin ağır mirası dayanır. Əlcəzair cəmiyyətində və siyasi dairələrində Fransaya qarşı uzunmüddətli etimadsızlıq və antikolonial yaddaş hələ də canlıdır. Fransa isə postmüstəmləkə münasibətlərini əsasən təhlükəsizlik və siyasi maraqlar prizmasından idarə etməyə çalışır, tarixi və humanitar məsuliyyətləri isə daha çox simvolik jestlərlə məhdudlaşdırır.

Əlcəzair Sahel bölgəsində təsir gücünə malik olmaqla yanaşı, Avropa üçün vacib enerji tədarükçüsüdür. Fransa isə Saheldə artan nüfuz itkisilə üz-üzədir və Əlcəzair kimi əsas aktorla əlaqələrin kəsilməsi Parisin regional strategiyasına ciddi zərbə vura bilər.

Mövcud böhran yalnız ikitərəfli insident kimi qiymətləndirilə bilməz. Bu, əslində, postmüstəmləkə münasibətlər sisteminin sarsıldığını göstərən bir simptomdur. Əgər tərəflər bu böhranı dönüş nöqtəsi kimi dəyərləndirib münasibətləri yenidən, qarşılıqlı hörmət və bərabərlik əsasında qurmasalar, Fransa Şimali Afrikada nüfuzunu tamamilə itirəcək, Əlcəzair isə Qərb ilə münasibətlərdə daha sərt xətti seçəcək. Bu isə region üçün sabitlik, Avropa üçün isə enerji və təhlükəsizlik riskləri deməkdir.

Məğrib regionu – Əlcəzair, Mərakeş, Tunis və Liviya – artıq siyasi və təhlükəsizlik baxımından həssas durumdadır. Fransa–Əlcəzair böhranı digər regional münaqişələrin həllinə də mənfi təsir göstərə bilər. Bundan əlavə, Əlcəzair xüsusilə İtaliya və İspaniya üçün vacib qaz tədarükçüsüdür. Rusiya–Ukrayna müharibəsindən sonra Avropanın enerji təhlükəsizliyində bu ölkənin rolu daha da önəm qazanmışdır. Münasibətlərin pozulması isə Avropanın enerji təchizatında yeni qeyri-müəyyənliklər yarada bilər.

Fransa müstəmləkə keçmişinin kölgəsindən çıxmaq və Əlcəzair ilə qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurmaq üçün konkret, davamlı və etibarlı addımlar atmalıdır. Bu addımlar həm postmüstəmləkə travmasını aşmaq, həm də gələcəyə yönəlik sağlam əməkdaşlıq modeli qurmaq üçün zəruridir. Əks təqdirdə, bu böhranın nəticələri təkcə iki ölkə üçün deyil, bütün region və Avropa üçün ciddi strateji risklər doğuracaq. Çünki postmüstəmləkə dövründəki beynəlxalq münasibətlərin necə inkişaf edəcəyinə dair daha böyük bir sualın tərkib hissəsidir.

***S.ELAY***
***XQ***




# Çaqosun qayıdışı və Parisin inadı

## *Müstəmləkə keçmişi ilə vidalaşma zamanıdır*

**Böyük Britaniyanın Baş naziri Kir Starmerin Çaqos arxipelaqını Mavrikiyə qaytarması ilə bağlı imzaladığı saziş beynəlxalq hüquq və postkolonial ədalət baxımından mühüm hadisəyə çevrildi. Bu qərar həm BMT-nin ədalət çağırışlarına cavab, həm də Londonda beynəlxalq imicin yenidən formalaşdırılması cəhdi kimi qiymətləndirilir. Eyni zamanda, bu addım Parisin oxşar öhdəliklərdən boyun qaçırması fonunda daha da diqqət çəkir. Fransa, Böyük Britaniyadan fərqli olaraq, öz dənizaşırı ərazilərindən imtina etməyə tələsmir – əksinə, bu ərazilərdə siyasi və hərbi mövqeyini möhkəmləndirməyə çalışır.**

Çaqos arxipelaqı Hind okeanında, Maldiv adalarından cənubda yerləşən 60-dan çox kiçik adadan ibarətdir. Ən böyük adası – Dieqo Qarsiya ABŞ hərbi bazasına evsahibliyi edir. Böyük Britaniya 1814-cü ildə bu əraziləri Fransadan əldə etdikdən sonra 1965-ci ildə Çaqosu Mavrikidən inzibati cəhətdən ayırdı və 3 milyon funt qarşılığında özünün xarici ərazisi elan etdi. 1960–70-ci illərdə arxipelaqın 1000-ə yaxın sakini zorla köçürüldü. London dəfələrlə üzr istəsə də, Mavriki bu ərazilərin geri qaytarılması üçün illərlə mübarizə apardı.

Yalnız 2019-cu ildə Beynəlxalq Ədalət Məhkəməsinin Böyük Britaniyanın bu əraziyə dair suverenliyini qanunsuz elan etməsindən sonra London arxipelaqı Mavrikiyə təhvil verməyə razılaşdı. 2025-ci il mayın 22-də sazişin imzalanması ilə bu uzunmüddətli postkolonial mübahisəyə hüquqi nöqtə qoyuldu.

Fransa isə hazırda dünyada ən çox dənizaşırı əraziyə sahib ölkələrdən biridir: Qvadelupa, Martinika, Mayot, Renyon, Fransız Qvianası, Yeni Kaledoniya və Fransız Polineziyası kimi regionlar rəsmi olaraq Fransa Respublikasının "ayrılmaz hissəsi" kimi tanınır. Bu ərazilərdə müstəqillik tələbləri yüksəlsə də, Paris ardıcıl şəkildə bu çağırışlara qarşı çıxır və hüquqi, inzibati, hətta repressiv vasitələrlə suverenliyini qorumağa çalışır.

Fransa konstitusiyası bu əraziləri metropoliten Fransanın departamentləri və regionları ilə eyni statusda təqdim edir. Paris bu yanaşma ilə postkolonial məsuliyyətdən yayınır, əraziləri müstəmləkə irsi kimi deyil, milli bütövlüyün bir hissəsi kimi legitimləşdirməyə çalışır. Lakin beynəlxalq hüquq bu arqumenti qəbul etmir.

BMT Nizamnaməsi, 1960-cı il Dekolonizasiya Bəyannaməsi və C-24 Komitəsinin prinsiplərinə əsasən, xalqların öz müqəddəratını təyin etmək hüququ toxunulmazdır. Yeni Kaledoniya və Fransız Polineziya bu prinsiplər əsasında dekolonizasiya siyahısına salınmışdır. Fransa isə daxili hüququ əsas gətirərək bu siyahını və beynəlxalq hüququ görməzlikdən gəlir.

BMT Nizamnaməsinin 103-cü maddəsinə əsasən, beynəlxalq hüquq daxili hüquqdan üstündür. Bu baxımdan Fransa konstitusiyasında göstərilən "ayrılmazlıq" statusu, xalqın iradəsi və beynəlxalq tanınma ilə dəstəklənmədiyi halda mübahisəli qalır. Parisin bu siyasəti təkcə hüquqi mübahisə doğurmur, həm də əhalinin artan narazılığı ilə müşayiət olunur.

Yeni Kaledoniyada keçirilən referendumlara baxmayaraq, müstəqillik tələbləri səngiməyib. Eyni proseslər Fransız Polineziyasında və Korsikada da müşahidə olunur. Paris isə bu çağırışlara cavab olaraq demokratik dialoqu deyil, hüquqi statusları və inzibati nəzarəti ön plana çıxarır.

Böyük Britaniyanın Çaqos arxipelaqı ilə bağlı qərarı, onun müstəmləkə keçmişi ilə bağlı unikal bir haldır. Ancaq bunu Fransa barədə demək olmur. Paris qaranlıq keçmişindən ikiəlli yapışır və dənizaşırı ərazilərə müstəqillik vermək istəmir. Bu da onu göstərir ki, Fransanın "ayrılmazlıq" doktrinası, əslində, suverenlik üzərində konstitusional nəzarət vasitəsidir. Bu, BMT-nin dekolonizasiya çağırışları ilə açıq ziddiyyət təşkil edir.

Bir sözlə, müstəmləkəçilik keçmişindən imtina etməyən Fransanın neokolonializm siyasəti daha "yumşaq", daha "mədəni" görünsə də, onun təməlində yenə nəzarət, asılılıq və yönləndirmə dayanır. Bu siyasətin uzunmüddətli nəticəsi nə olacaq? Dənizaşırı ərazilərdə azalmayan müstəqillik çağırışları göstərir ki, yeni müstəmləkəçiliyin sonu da keçmiş müstəmləkəçiliyin sonu kimi olacaq, gec-tez xalqın iradəsi ilə…

***S.MƏMMƏDLİ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 107 (30801) 24 may 2025-ci il, şənbə

Dünyadan gələn sorağımız

# Soydaşımız şahmatda “ikiqat ginnesçi”dir

## *Beynəlxalq hakim bu zirvəyə “piyada oyunu” ilə yüksəlib*

**Ömrünün 60 ildən çoxunu milli şahmatın inkişafına həsr edən Azərbaycan Şahmat Federasiyasının 1-ci vitse-prezidenti Faiq Həsənovun dünya şahmatında da nüfuzu böyükdür. O, çox sayda oyunlarda, superturnirlərdə, Linares, Vüqar Həşimov Memorialı, “Böyük dəbilqə”də, eyni zamanda Ümumdünya Şahmat Olimpiadası, Dünya çempionatları, Dünya kuboku, FİDE Qran-Pri kimi yarışlarında ədalət təmsilçisi olub.**

Soydaşımızın adı ən uzunmüddətli hakim kimi “Ginnesin rekordlar kitabı”nda yer alıb. Belə ki o, 60 ildən artıq dövrdə müxtəlif şahmat yarışlarında hakimlik edib. Təcrübəli şahmat bilicisinin Azərbaycan Televiziyasında müəllifi və aparıcısı olduğu “Şahmat klubu” da dünyada ən uzunömürlü idman layihəsidir. 55 ildən artıq eyni verilişin aparıcısı olduğuna görə Faiq Həsənov 2-ci dəfə “Ginnesin rekordlar kitabı”na düşüb.



Tanınmış hakim Azərbaycan şahmatının inkişafındakı əməyinə görə “Şöhrət” və “Şərəf” ordenləri ilə təltif olunub.  Prezidentin Fəxri diplomuna, Əməkdar idman xadimi fəxri adına layiq görülüb.

Dünya şöhrətli Faiq Həsənovla müsahibəni “Xalq qəzeti”nin oxucularına təqdim edirik.

***– Faiq müəllim, bir məşhur deyim var: “Həyat şahmat lövhəsi kimidir. Burada hər şey sənin öz gedişindən asılıdır”. Əgər belə olsaydı, hansı fiqura üstünlük verərdiniz?***

– Razıyam. Həyatın qanunlarını çox vaxt şahmat lövhəsində görürük. Şahmat oyunu müharibədə qarşı-qarşıya durmuş qoşunları xatırladır. Hər şey 2 oyunçunun qərarlarından asılıdır. Oyun başa çatdıqda isə şah və digər fiqurların hamısı bir qutuya yığılır. Burada da, böyük hikmət var. Yəni bu mübarizə həyat durduqca davam edəcək. Fiqurlardan piyadaya üstünlük verirəm. Oyunda ən zəif fiqur olmasına baxmayaraq, həm müdafiədə, həm də hücumda iştirak edir, son xanaya çatdıqda isə ən güclü fiqura-vəzirə çevrilə bilir.

***– Bəs oyunçularda hansı xüsusiyyətləri dəyərləndirirsiniz?***

– Şahmat strateji oyundur. Hətta həyatda olduğundan daha ağıllı və diqqətli olmalısan. Oyunçularda ən dəyərləndirdiyim xüsusiyyət, onların heç vaxt, hətta uduzduqda belə ruhdan düşməmələridir. Şahmatçı olmaq istəyən daha səbirlə öz üzərində işləməyə davam etməlidir. İnamla oynamalı, lazım gəldikdə, risk etməyi bacarmalıdır. Bəzi oyunçular öz səhvlərini dəfələrlə, hətta illərcə təkrarlayırlar ki, bu da onların yaxşı şahmatçı kimi yetişməsinə mane olur. Uzun illərdir, şahmatçılarımızı bu istiqamətdə yetişdirməyə çalışırıq.

***– “Şahmat klubu” verilişinin tarixi 55 il bundan əvvələ gedib çıxır. O dövrdə Azərbaycanda şahmat o qədər də inkişaf etməmişdi...***

– Bildiyiniz kimi, o dövrdə Azərbaycanda, ümumilikdə idmanda bir inkişaf dövrü başlamışdı. Ümummilli lider Heydər Əliyev şahmatın inkişafına da böyük diqqət yetirirdi. 1969-cu ildə AZTV-də şahmat verilişi yaratmaq ideyası ortalığa gələndə, düşündük ki, “Şahmat klubu” adı altında fəaliyyətə başlasa, daha yaxşı olar. Əsas hədəf şahmatı yaymaq, onu populyarlaşdırmaqla, kütləviliyinə nail olmaq idi. Veriliş vasitəsilə uşaq və gənclərə şahmatı öyrədirdik. Hər buraxılışda gedişləri təkrar edirdik. İlk dövrdə çətinliklər də çox idi.

O zaman studiyadakı nümayiş lövhələrinə fiqurları asmaq üçün mişmarlar vurulmuşdu və çox vaxt fiqurlar yerə düşürdü. İzləyicilərin verilişə marağının getdikcə artması bizi də ruhlandırırdı. Azərbaycanın hər yerindən aldığımız çoxsaylı məktublar göstərirdi ki, bu proqramım faydası kifayət qədərdir. Daha sonra müsabiqələr keçirməyə başladıq. Uşaqlar bu cür tədbirlərdə böyük həvəslə iştirak edirdilər.

Zaman keçdikcə məktəblərin sayı çoxalmağa başladı, məşqçilər yetişdi. Şahmatçılarımız nəticə verməyə başladılar. Verilişin formatında da dəyişikliklər etdik.  Çempionlarımızı güclü şahmatçılarımızı proqrama dəvət edirdik. Beləliklə, veriliş zamanın tələblərinə tam cavab verdiyi üçün bu gün də aktuallığını saxlayır.

***– “Ginnesin Rekordlar Kitabı”na müraciətlə bağlı proseslər bildiyimizə görə, çətindir. Yəqin burada da şahmatçı dəqiqliyi və diqqəti köməyinizə gəlib...***

– Bu, əslində, çox çətin prosesdir. Amma insan qarşısına hədəf qoyub, bütün diqqətini ona yönəltməyi bacaracaqsa, istədiyi nəticəni əldə edəcək. Nə deyim? Şahmat həyat tərzimə çevrilib. Hakimlikdə yolçuluğum 1964-cü ildən başlayıb. Həmin il Bakıda keçirilən ilk beynəlxalq şahmat turnirində hakimlik etmişəm. Dünya çempionatları, digər nüfuzlu yarışlar, saysız-hesabsız turnirlərdə ədaləti qorumuşam. Lazımi sənədləri toplayıb təqdim etdik.

“Şahmat klubu” verilişi ilə bağlı müraciət zamanı proseslərin daha mürəkkəb olduğunu gördük. Bununla bağlı tələblər kifayət qədər böyük idi. Bir il ərzində müraciətə baxıldı. Şahmat Federasiyasının prezidenti Mahir Məmmədov hər 2 müraciətlə bağlı yaxşı komanda yaratmışdı. O vaxt “Şahmat klubu” canlı yayımlandığı üçün arxiv yox idi. Ona görə də, sübut etməliydik ki, proqram fasiləsiz fəaliyyət göstərib. Təbii ki, köməyimizə o zaman çıxan qəzetlər gəldi. Həmin qəzetlərdən verilişə dair məlumatları topladıq. Bütün bu məlumatlardan, o cümlədən AZTV arxiv materiallarından istifadə edərək verilişlərin nüsxəsini çıxarıb təqdim etdik. Kifayət qədər çətin proses olsa da, onun öhdəsindən gələ bildik.

İnsan əməyin nəticəsini görəndə çox sevinir. Bu gün Azərbaaycan, həm də şahmat ölkəsi kimi tanınıb. Bu intellektual idman növünün inkişafına dövlət tərəfindən böyük diqqət və qayğı göstərilir. Federasiya şahmatın daha da kütləviləşməsi istiqamətində böyük işlər görür. Dünya şahmat elitasında oyunçularımız mübarizə aparır. Biz bununla qürur duyur, fəxr edirik.

***Leyla QURBANOVA***
***XQ***

İdman

## Azərbaycan İngiltərəyə qalib gəlib



**Çimərlik futbolu üzrə Azərbaycan millisi Avropa çempionatının I seçmə mərhələsində (EBSL) ilk oyununu keçirib.**

B Liqasının A qrupunda yer alan komandamız İngiltərə yığması ilə qarşılaşıb. İspaniyanın El Puerto de Santa Maria şəhərində təşkil olunan görüş Sahib Məmmədovun yetirmələrinin 5:4 hesablı qələbəsi ilə yekunlaşıb. Millimizin heyətində Ramil Əliyev iki, Sahib Məmmədov və Bayram Bayramlı hərəyə bir dəfə fərqləniblər, bir qol isə avtoqol kimi qeydə alınıb.

Qeyd edək ki, komandamız qrupda növbəti oyunlarını mayın 24-də Belçika (saat 13:00), 25-də isə Litva (saat 14:15) seçməsinə qarşı keçirəcək.

## Şəhidlərin xatirəsinə həsr olunmuş karate turniri



**Yeniyetmələr, gənclər, U-21, böyüklər və parakarateçilər arasında reytinq xarakterli karate turniri keçirilib.**

Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzində təşkil edilən yarış Vətən müharibəsi şəhidləri - Cəsarət Səfərov və Şahmar Səfərovun əziz xatirəsinə həsr olunub. Turnirdə ölkənin müxtəlif bölgələrindən 35 klubun 350-dən çox karateçisi iştirak edib. Xüsusi reytinq sistemi çərçivəsində, üç ardıcıl reytinq turnirində ən yüksək bal toplamış idmançılar respublika birinciliyi və Azərbaycan çempionatında iştirak hüququ əldə edəcəklər.

Karate idman növünün inkişafına xüsusi töhfə vermiş və dəstək göstərmiş bir sıra şəxslərə Azərbaycan Karate Federasiyası tərəfindən fəxri diplomlar və təşəkkürnamələr təqdim olunub.

## Boksçularımız “Qələbə kuboku”nda



**Rusiyada boks üzrə “Qələbə kuboku”na start verilib.**

Yarışa “Bakı” adı altında qatılan Azərbaycan millisi turnirə 1/4 final mərhələsindən başlayıb. Permdə keçirilən “Qələbə kuboku”nda boksçularımızın rəqibləri “Ural” olub. “Bakı” görüşü 3:2 hesabı ilə öz xeyrinə bitirib. 4 raunddan ibarət qarşılaşmalarda komandamızın heyətində Zaur Qəhrəmanov Mark Urvanovu, Səidcəmşid Cəfərov Xyşbaxt Kuldaşevi və Məhəmməd Abdullayev Aleksandr Dorofeyevi məğlub edib.

“Bakı” yarımfinal döyüşünə mayın 29-da çıxacaq. Görüş Saransk şəhərində baş tutacaq.

***L.AZAD***
***XQ***

# “Kiçik akademiya”ların dairəsi böyüyür

**Paytaxtdakı ümumi təhsil müəssisələrində “Kiçik akademiya”ların fəaliyyətinin genişləndirilməsi ilə bağlı aksiyalara start verilib. Bu məqsədlə “Kiçik akademiya”lar daxilində həyata keçirilən işlərlə bağlı konfrans, seminar, dəyirmi masa və sərgilər keçiriləcək.**

Bu barədə mətbuata Bakı Şəhəri üzrə Təhsil İdarəsindən məlumat verilib. “Kiçik akademiya” daxilində “Uşaq və gənclərin milli-mənəvi dəyərlərə bağlılıq və azərbaycançılıq məfkurəsi ruhunda tərbiyəsi” mövzusunda tədbirlərin, “Kiçik akademiyaların böyük dahiləri” adlı robototexnika, proqramlaşdırma və texnologiya sahələrinə dair müxtəlif müsabiqələrin, şagirdlərdə liderlik, tənqidi düşüncə, problem həlletmə, kommunikasiya bacarıqlarını inkişaf etdirmək üçün təlim və simulyasiya proqramlarının təşkili nəzərdə tutulur.




Həmçinin “Gələcəyin startapçısı” adlı ideya müsabiqəsinin, “EkoDostlar” layihəsinin, “Gənc tədqiqatçılar forumu”nun, “Uşaq teatrı” proqramının, “Açıq elmi gün” - valideynlər və icma üçün təqdimat sessiyalarının, “Kiçik akademiyaların böyük dahiləri” adlı II ümumşəhər konfransının keçirilməsi planlaşdırılır.

Bundan əlavə, “Akademik mentorluq proqramı”nın, kibertəhlükəsizliklə bağlı praktiki sessiyaların təşkili, “Elm aylığı” adlı aylıq qəzetin hazırlanması da nəzərdə tutulur.

***XQ***

# Cavanlıq iksiri – matça çayı

**Fərqli bir dadlı, zəngin tərkibli matça çayı piyləri əridir, yağların sorulmasını ləngidir, xolesterini tənzimləyir, dərini yeniləyir və ləkələrin qarşısını alır. Bu yapon yaşıl çayı təbii antioksidant mənbəyidir.**

Matçanın tərkibindəki təbii maddələr qocalmanı sürətləndirən sərbəst radikalları neytrallaşdırır. Bu barədə dietoloq və qastroenteroloq Yekaterina Kilipko məlumat verib. Onun sözlərinə görə, matça katexin adlanan təbii üzvi maddələrlə zəngindir. İçki xüsusilə sərbəst radikalları zərərsizləşdirən maddələrlə zəngindir. Bu sərbəst radikallar yığılaraq hüceyrə quruluşunu zədələyə bilər.



Matça müntəzəm istehlak edildikdə qocalmanı ləngidir və xroniki xəstəliklərin inkişaf riskini azaldır. Həkim gündə bir və ya iki stəkan matça içməyi məsləhət görür. Həkim xəbərdarlıq edib: “Bir payda 60–100 millilitr suya tökülən 1–2 qram üyüdülmüş yaşıl çay olur. Lakin nəzərə almaq lazımdır ki, matçanın tərkibində kofein var, ona görə də həddindən artıq içildikdə ürək döyüntülərinin artmasına  və yuxu pozulmasına səbəb ola bilər. Kofein tərkibli məhsullar saat 16:00-dan əvvəl qəbul edilməlidir”.

O əlavə edib ki, ürək-damar, böyrək və qaraciyər problemi olan xəstələr içkidən ehtiyatlı olmalıdırlar. Belə narahatlığı olanlar gündə 1 stəkandan çox matça içməməlidir.

***Z.HÜSEYNLİ***
***XQ***

HAVA

## Abşeronda yağmursuz, bölgələrdə yenə yağış və duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 24-də Bakıda və  Abşeron yarımadasında havanın  dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var.**

Mülayim şimal-qərb küləyi əsəcək.  Gecə 16-19°, gündüz 22-27° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunu, nisbi rütubət gecə 60-65 , gündüz 45-50  faiz  olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 13-17° , gündüz 23-28° , dağlarda gecə 3-8°, gündüz 13-18° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

**“Boradigah çay-2” ASC səhmdarlarının nəzərinə!**

15 iyul  2025-ci il saat 12.00-da “Boradigah çay-2” ASC səhmdarlarının ümumi yığınca¬ğı Masallı rayonunun Boradigah qəsəbəsində “Boradigah çay-2” ASC-nin yerləşdiyi ünvanda keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** “Boradigah çay-2” ASC-nin maliyyə məsələlərinin müzakirəsi.
**2.** Digər məsələlər.
**Telefon:** 050-537-04-08.

**“Boradigah çay-2” ASC-nin idarə heyəti**

**ALLAH RƏHMƏT ELƏSİN**

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Səbuhi Abdinova həyat yoldaşı

**SEVA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3468
SİFARİŞ 986
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00